RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 64 (10084) 16 aprel 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Milli maraqları qətiyyətlə təmin edən lider



## Bakı qlobal əməkdaşlığın strategiyasını formalaşdırır

### Azərbaycan beynəlxalq təşkilatlara sədrliyi dövründə uğurlu fəaliyyəti və liderliyi ilə seçilir



Payızda Bakıda AQEM sammiti və AQEM Media Forumu keçiriləcək, mühüm qərarlar qəbul olunacaq. Bakı sammiti həm Asiyada təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq nüfuzunun artmasına xidmət edəcək. Bu tədbir ölkəmizin sədrlik dövründəki uğurlarının nümayişi üçün tarixi bir mərhələ olacaq.

Coğrafi baxımdan Asiya ilə Avropanın kəsişməsində yerləşən Azərbaycan ticarət yollarının inkişafı üçün infrastrukturunu tamamilə yeniləyib. Mövcud enerji və nəqliyyat layihələri, o cümlədən yaxın illərdə istifadəyə veriləcək Zəngəzur dəhlizi (TRIPP) və Xəzər ilə Qara dənizi birləşdirəcək elektrik enerjisi ixracı kabeli, eləcə də digər daxildəki infrastruktur layihələri AQEM dövlətləri üçün mühüm fürsətdir.

Belə əhəmiyyətli bir təşkilata 2024-2026-cı illər üzrə sədrliyin Azərbaycana həvalə olunması heç də təsadüfi deyil. Azərbaycanın beynəlxalq qurumlara rəhbərliyi ölkənin xarici siyasətində çoxşaxəlilik prinsipinin və qlobal diplomatik nüfuzunun göstəricisidir. Bakı bu platformalarda təkcə milli maraqlarını deyil, həm də ədalət, beynəlxalq hüquq və inkişaf etməkdə olan ölkələrin səsini təmsil edən aparıcı aktor kimi çıxış edir.

9

## 16 aprel 2024-cü ildən Rusiya sülhməramlıları ərazilərimizi birdəfəlik tərk etməyə başladılar

Rusiya sülhməramlılarının çıxarılması qərəzli dairələrin "onlar heç vaxt getməyəcək" kimi əsassız proqnozlarını alt-üst etdi. Xatırladaq ki, 2020-ci il bəyanatına "müvəqqəti" statusunun daxil edilməsi məhz Prezident İlham Əliyevin israrlı və uzaqgörən taktikasının nəticəsi idi.

Dövlət başçısının "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fəlsəfəsi həm döyüş meydanında, həm də diplomatik masada özünü doğrultdu. Bəyanatın 4-cü maddəsində nəzərdə tutulan 5 illik müddətin tamamlanmasını gözləmədən bu nəticəyə nail olunması Azərbaycanın regionun lider dövləti olduğunu dünyaya nümayiş etdirdi.

Hazırda bölgədə müşahidə olunan sabitlik şəraiti, normallaşma mühiti və faktiki sülhə nail olunması ölkəmizin bu istiqamətdə yürütdüyü qətiyyətli siyasətin yaratdığı reallıqlardır. Bu gün münaqişədən uzaq bölgə kimi çoxsaylı ölkələrin əməkdaşlıq üçün maraq dairəsinə düşən Cənubi Qafqazın Zəngəzur dəhlizi (TRIPP) kimi nəhəng layihələrin timsalında inkişaf və tərəqqi vəd edən strateji ünvana çevrilməsi də göz önündədir. Bütün bunlar Azərbaycanın liderliyi ilə yürüdülən normallaşma prosesinin, onun sülh gündəliyinə sadiqliyinin uğurlu nəticələridir.

Bir sözlə, Rusiya sülhməramlı kontingentinin ölkəmizi tərk etməsi mühüm hadisə kimi tarixə düşdü. Sülhməramlıların vaxtından əvvəl ərazilərimizdən çıxması respublikamızın suverenliyinin və milli maraqlarının müzakirə mövzusu olmadığını ortaya qoydu. Qətiyyətlə sübut edildi ki, Azərbaycan öz torpaqlarında kənar heç bir hərbi baza saxlamayan müstəqil gücdür.

Son altı il ərzində Cənubi Qafqazda cərəyan edən proseslər həm də Prezident İlham Əliyevin böyük hərbi-siyasi strateq və mahir diplomat olduğunu bir daha təsdiqlədi. Məhz Qalib liderin düşünülmüş və uzaqgörən siyasəti Azərbaycanı qısa müddətdə dünyanın qüdrətli ölkəsinə çevirdi.

8

## İqtisadi inteqrasiya artdıqca etimad mühiti də güclənir

Azərbaycanın tranzit ölkə kimi çıxış etməsi həm regionda iqtisadi inteqrasiyanı gücləndirir, həm də ticarət dövriyyəsinin artmasına şərait yaradır. Ermənistan rəsmiləri də bəyan ediblər ki, neft məhsullarının çatdırılması ölkənin daxili bazarında enerji təminatını və qiymətlərini sabitləşdirir, sənaye sektorunun davamlı fəaliyyətinə müsbət təsir edir. Baş nazir Nikol Paşinyan bu addımı "real sülhün nümunəsi" kimi qiymətləndirərək, Azərbaycanın neft məhsullarının Ermənistandakı monopoliyanı dağıtdığını da bildirmişdi.

Azərbaycanın bu prosesdə iştirakı regionda iqtisadi əməkdaşlıq modelinin formalaşmasına töhfə verir. Həmçinin uzunmüddətli perspektivdə siyasi sabitliyə müsbət təsir edir. Beynəlxalq təcrübə göstərir ki, iqtisadi inteqrasiya səviyyəsi yüksəldikcə münaqişə riskləri azalır və tərəflər arasında etimad mühiti formalaşır. Ermənistan iqtisadiyyatı üçün bu əməkdaşlığın potensial faydalarına gəlincə, demək olar ki, tranzit imkanlarının genişlənməsi bu ölkəni regional ticarət şəbəkələrinin bir hissəsinə çevirə bilər.

9

## Müasir şəhərsalmanın Azərbaycan nümunəsi

Azərbaycan bu il XIII Ümumdünya Şəhərsalma Forumuna (WUF13 - World Urban Forum XIII) evsahibliyi edəcək. Belə bir tədbirin Azərbaycanda keçirilməsi respublikamızdakı şəhərsalma siyasətinin beynəlxalq səviyyədə diqqət mərkəzində olması ilə bağlıdır. Bu beynəlxalq tədbir Azərbaycanın şəhərsalma sahəsində gördüyü işləri, yenilikləri və inkişaf planlarını dünya ilə bölüşmək üçün yaxşı fürsət olacaq. Belə tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın şəhərsalma, infrastruktur və beynəlxalq əməkdaşlıq sahəsində nüfuzunun artdığının göstəricisidir.

Hazırda Azərbaycanın qarşısında duran əsas məsələlərdən biri Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Azad edilmiş ərazilərdə geniş bərpa və tikinti işləri davam edir. Şuşa, Füzuli, Ağdam, Cəbrayıl, Kəlbəcər, Zəngilan, digər şəhər və rayonlarda həyata keçirilən layihələr müasir şəhərsalmanın uğurlu nümunəsidir. Bu, beynəlxalq səviyyədə qəbul olunan şəhərsalma prinsiplərinə uyğundur.

9



## AZAL-ın qəzaya uğrayan təyyarəsi ilə bağlı Azərbaycan və Rusiya arasında razılıq əldə olunub

"Azərbaycan və Rusiya prezidentlərinin Düşənbə şəhərində 2025-ci il oktyabrın 9-da keçirilən görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də Rusiyanın hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus "Embraer 190" tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər".



AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirliklərinin birgə bəyanatında əksini tapıb.

Bəyanatda həmçinin bildirilib: "Atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir.

Əminik ki, Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafı bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcək.

Təyyarə qəzası nəticəsində həyatını itirmiş şəxslərin ailələrinə və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir və faciədən zərər çəkmiş hər kəslə bu əvəzolunmaz itkinin ağrı-acısını bölüşürük".

## *Xəyanət şəbəkəsinin fiaskosu:* Qarabağda nə sülhməramlı qaldı, nə də separatçı

### Bədxahların qarayaxma kampaniyası Azərbaycan Prezidentinin uzaqgörən diplomatiyası qarşısında darmadağın oldu

Yeni reallıqlar 2024-cü il aprelin 16-dan etibarən Rusiya sülhməramlı kontingentinin Azərbaycanı mərhələli şəkildə tərk etməsinə səbəb oldu. İyunun 12-də Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş sülhməramlıların tamamilə çıxarılması prosesi başa çatdı. Rusiya sülhməramlılarının 2024-cü ildə Azərbaycanı tərk etməsi suverenliyimizin tam bərpa edilməsinin məntiqi yekunu və Prezident İlham Əliyevin həyata keçirdiyi strateji diplomatiyanın parlaq qələbəsi idi.



Bu tarixi uğurun arxasında duran bəzi məqamlara diqqət çəkək. Dövlətimizin başçısı sülhməramlıların fəaliyyəti dövründə yaranan hər bir insidenti və hüquqi boşluğu böyük ustalıqla diplomatik rıçağa çevirdi. Qarabağda keçirilən hərbi əməliyyatlar, Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması və 2023-cü ilin sentyabrındakı antiterror tədbirləri sülhməramlıların ərazidə qalmasını funksional olaraq əhəmiyyətsiz hala gətirdi.

8

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 10-cu, 16-cı və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli, 30 dekabr tarixli 332-VIIQD nömrəli və 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli qanunları) 131-ci maddəsinin 4-cü hissəsinin "c" bəndinə "müddətli" sözündən sonra "həqiqi" sözü əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743, № 11, maddə 1011; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli və 30 dekabr tarixli 332-VIIQD nömrəli qanunları) 159.3-cü maddəsində "hərbi komissarlığa" sözləri "müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 671; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 11, maddə 1183; 2025, № 8, maddə 737) 6-cı maddəsinin birinci hissəsinin səkkizinci abzası ləğv edilsin.

**Maddə 4.** "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 213; 1995, № 9, maddə 177, № 14, maddə 241; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 5 (I kitab), maddə 501) 23-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. ikinci cümlədə "hərbi komissarlıqlar" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.2. üçüncü cümlədə "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 5 (I kitab), maddələr 489, 503, № 11, maddə 1183; 2025, № 6, maddələr 524, 525) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 31-ci maddənin dördüncü hissəsi üzrə:

5.1.1. birinci cümləyə "Müddətli" sözündən sonra "həqiqi hərbi" sözləri əlavə edilsin və həmin cümlədə "yerlərin hərbi komissarlarına" sözləri "yerlərdə yerləşən həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandirinə (rəisinə)" sözləri ilə əvəz edilsin;

5.1.2. ikinci cümləyə "barədə" sözündən sonra "müddətli həqiqi hərbi xidmət keçdiyi" sözləri əlavə edilsin;

5.2. 77-ci maddənin birinci hissəsinin birinci cümləsinə "Müddətli" sözündən sonra "həqiqi hərbi" sözləri əlavə edilsin;

5.3. həmin Nizamnaməyə 5 saylı əlavə - "Qarnizonun hərbi hissələrinin (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin və digər müəssisələrin) qarnizonda ezamiyyətdə və məzuniyyətdə olan hərbi qulluqçularının uçotu qaydası" üzrə:

5.3.1. 1-ci maddə üzrə:

5.3.1.1. birinci hissədə "hərbi komissarlıqda" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsində (qurumunda)" sözləri ilə əvəz edilsin;

5.3.1.2. ikinci hissədə "hərbi komissarlıq" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsi (qurumu)" sözləri ilə əvəz edilsin;

5.3.2. 2-ci maddə üzrə:

5.3.2.1. birinci hissə üzrə:

5.3.2.1.1. birinci cümlədə "hərbi komissara" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandirinə (rəisinə)" sözləri ilə əvəz edilsin;

5.3.2.1.2. ikinci cümlədə "hərbi komissara" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandirinə (rəisinə" sözləri ilə əvəz edilsin;

5.3.2.2. ikinci hissədə "hərbi komissarlığa" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinə (qurumuna" sözləri ilə əvəz edilsin;

5.3.3. 3-cü maddənin ikinci cümləsində ", hərbi komissarlığa" sözləri "və ya həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinə (qurumuna)" sözləri ilə əvəz edilsin;

5.3.4. 4-cü maddə üzrə:

5.3.4.1. ikinci cümlədə "hərbi komissarlığa" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinə (qurumuna)" sözləri ilə əvəz edilsin;

5.3.4.2. üçüncü cümlədə "hərbi komissarlığa" sözləri "yaşadıqları əraziyə yaxın hərbi tibb müəssisəsinə və ya həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinə (qurumuna)" sözləri ilə əvəz edilsin;

5.3.5. 5-ci maddədə "hərbi komissarlıqda" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsində (qurumunda" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7, № 4 (I kitab), maddə 324, № 6, maddələr 524, 525, 527; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 306-VIIQD nömrəli və 30 dekabr tarixli 328-VIIQD nömrəli qanunları) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 16-cı maddənin birinci hissəsinin "a" bəndinin ikinci abzası, "b", "q" və "d" bəndləri aşağıdakı redaksiyada verilsin:

"çağırışçılar üçün - müvafiq icra hakimiyyəti orqanı tərəfindən hərbi hissəyə göndərildikləri gün;";

"b) əsgərlərin, matrosların və çavuşların müddətdən artıq həqiqi hərbi xidmətində:

bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar üçün - bağlaşmanın imzalandığı gün;";

"q) gizirlərin və miçmanların həqiqi hərbi xidmətində:

bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar üçün - bağlaşmanın imzalandığı gün;

d) zabitlərin həqiqi hərbi xidmətində:

bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar üçün - bağlaşmanın imzalandığı gün;

ali və orta ixtisas hərbi təhsil müəssisəsini bilavasitə qurtardıqdan sonra hərbi xidmətə çağırılan (qəbul olunan) ehtiyat zabitləri üçün - hərbi xidmətə çağırılması (qəbul olunması) barədə əmrin imzalandığı gün.";

6.2. 17-ci və 18-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"17. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən hərbi uçot ixtisası olan 19 yaşından 40 yaşınadək Azərbaycan Respublikasının qadın vətəndaşları özlərinin razılığı ilə hərbi qeydiyyata götürülür və bağlaşma əsasında Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həqiqi hərbi xidmətə qəbul edilirlər. Bağlaşmanın imzalandığı gün həqiqi hərbi xidmətin başlanğıcı sayılır.

18. Müddətli həqiqi hərbi xidmətə çağırılmış vətəndaşların həqiqi hərbi xidmət keçəcəyi dövlət orqanlarının (qurumlarının) toplanış məntəqəsinə (hərbi hissələrə) aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Müddətli həqiqi hərbi xidmətə çağırılmış şəxslər hərbi hissələrə göndərilməzdən əvvəl qeydiyyatda olduğu yer üzrə müvafiq icra hakimiyyəti orqanı, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə daxil olduqda isə həmin müəssisənin müdiriyyəti çağırışçının (kursantın) şəxsiyyət vəsiqəsini müvəqqəti alaraq həqiqi hərbi xidmət başa çatanadək və sonra sahibinə qaytarmaq üçün müvafiq icra hakimiyyəti orqanına göndərir.

Müvafiq icra hakimiyyəti orqanının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının və kursantlarının şəxsiyyət vəsiqələri müvəqqəti alınaraq həmin qurumda saxlanılır.

Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşlara və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına hərbi bilet verilir.";

6.3. 19-cu maddənin dördüncü hissəsindən "(4 saylı əlavə)" sözləri çıxarılsın;

6.4. 26-cı maddə üzrə:

6.4.1. birinci hissənin "a" bəndi aşağıdakı redaksiyada verilsin:

"a) müddətdən artıq həqiqi hərbi xidmətə - ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilən müddətli həqiqi hərbi xidməti başa çatdırmış hərbi qulluqçular, 40 yaşınadək hərbi vəzifəlilər (zabitlər, gizirlər və miçmanlar istisna olmaqla), habelə 19 yaşından 40 yaşınadək qadınlar;";

6.4.2. ikinci hissə ləğv edilsin;

6.4.3. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:**

1. Bu maddənin birinci hissəsinin "b" bəndinə uyğun olaraq hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrinə qəbul edilərkən 18 yaşı tamam olmayan şəxslərlə bağlaşma onların qanuni nümayəndələrinin - valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır.

2. Azərbaycan Respublikasının hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələrini (xarici ölkələrin analoji ali təhsil müəssisələrini) müvəffəqiyyətlə bitirərək ilk zabit hərbi rütbəsi almış Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçular, habelə müvafiq icra hakimiyyəti orqanında zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olan, bu maddənin birinci hissəsinin "q" bəndində göstərilən vətəndaşlar birbaşa kadr zabit heyətinə keçirilirlər.";

6.5. 27-ci maddənin ikinci hissəsindən "(4 saylı əlavə)" sözləri çıxarılsın;

6.6. 28-ci maddənin birinci hissəsinin birinci cümləsində "rayon (şəhər) hərbi komissarlıqları" sözləri "həmin orqanın müvafiq qurumları" sözləri ilə əvəz edilsin;

6.7. 29-cu maddə üzrə:

6.7.1. birinci hissə üzrə:

6.7.1.1. birinci abzasdan "(yaşayış yeri üzrə hərbi komissarlığa)" sözləri çıxarılsın;

6.7.1.2. ikinci abzasdan "(hərbi komissarın adına ərizə)" sözləri çıxarılsın;

6.7.2. üçüncü hissədən "və rayon (şəhər) hərbi komissarlıqları" sözləri çıxarılsın;

6.7.3. dördüncü və beşinci hissələr ləğv edilsin;

6.8. 37-ci maddənin üçüncü hissəsindən "(yaşayış yeri üzrə hərbi komissarın)" və "(bağlaşma imzalayırlar)" sözləri çıxarılsın;

6.9. 72-ci maddənin ikinci hissəsinin "z" bəndinin beşinci abzasından "onların yaşadıqları yer üzrə hərbi komissarlığa" sözləri çıxarılsın və həmin abzasda "məlumat almaq üçün sorğu göndərilə bilər" sözləri "məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi hərbi qulluqçunun razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya hərbi qulluqçu tərəfindən təmin edilir" sözləri ilə əvəz edilsin;

6.10. 77-ci maddənin dördüncü hissəsi ləğv edilsin;

6.11. 95-ci maddənin birinci hissəsinin üçüncü abzası ləğv edilsin;

6.12. 117-ci maddə üzrə:

6.12.1. ikinci hissədə "hərbi komissarlığa" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandirinə (rəisinə)" sözləri ilə, "hərbi komissara" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandirinə (rəisinə" sözləri ilə əvəz edilsin;

6.12.2. üçüncü hissədə "hərbi komissar" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandiri (rəisi" sözləri ilə əvəz edilsin;

6.13. 118-ci maddə üzrə:

6.13.1. birinci hissə üzrə:

6.13.1.1. "a" bəndinin ikinci cümləsində "hərbi komissarlıq" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandiri (rəisi)" sözləri ilə əvəz edilsin;

6.13.1.2. "v" bəndinin ikinci cümləsində "hərbi komissar" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandiri (rəisi)" sözləri ilə əvəz edilsin;

6.13.2. ikinci hissədə "hərbi komissar" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandiri (rəisi" sözləri ilə əvəz edilsin;

6.13.3. üçüncü hissədə "(hərbi komissara)" sözləri ", həmçinin qeydiyyatda olduğu yer üzrə müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin;

6.14. 119-cu maddə üzrə:

6.14.1. birinci hissənin ikinci cümləsində "hərbi komissarlığa" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinə (qurumuna)" sözləri ilə əvəz edilsin;

6.14.2. ikinci hissədə "hərbi komissarlığa" sözləri "yaşadıqları əraziyə yaxın hərbi tibb müəssisəsinə və ya həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinə (qurumuna)" sözləri ilə əvəz edilsin;

6.15. 129-cu maddənin altıncı hissəsindən "hərbi komissarlıq və ya" sözləri çıxarılsın və həmin hissədə "ya da" sözləri "yaxud" sözü ilə əvəz edilsin;

6.16. 141-ci maddənin ikinci hissəsində "hərbi komissarlıqdan" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandirindən (rəisindən)" sözləri ilə əvəz edilsin;

6.17. 142-ci maddədə "hərbi komissarlığa" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinin (qurumunun) komandirinə (rəisinə)" sözləri ilə əvəz edilsin;

6.18. 143-cü maddənin üçüncü hissəsindən "(hərbi komissarlıq)" sözləri çıxarılsın;

6.19. 144-cü maddənin birinci cümləsindən "(hərbi komissarlığa)" sözləri çıxarılsın;

6.20. 145-ci maddənin ikinci hissəsində "hərbi komissarlığa" sözləri "həqiqi hərbi xidmət keçdiyi orqanın müvafiq hərbi hissəsinə (qurumuna)" sözləri ilə əvəz edilsin;

6.21. 165-ci maddə üzrə:

6.21.1. dördüncü hissədə "hərbi komissarlıqlara" sözləri "müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin;

6.21.2. beşinci hissədə "hərbi komissarlıqlara" sözləri "müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin və həmin hissədən "və daxil olmasına nəzarət korpusların (diviziyaların), Silahlı Qüvvələr növlərinin," sözləri çıxarılsın;

6.22. 170-ci maddə aşağıdakı redaksiyada verilsin:

"170. Vətəndaşlar ("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla) ehtiyata keçirildikdən sonra 7 gün müddətində yaşayış yeri üzrə hərbi qeydiyyata alınmaq üçün müvafiq icra hakimiyyəti orqanına gəlməlidirlər.

Hərbi vəzifəlilər ("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla) və çağırışçılar yaşayış yerini 3 aydan çox müddətə dəyişdirdikdə yaşayış yeri üzrə hərbi qeydiyyatdan çıxmalı və olduğu yer üzrə hərbi qeydiyyata alınmalıdırlar.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ehtiyatında olan vətəndaşların tibbi şəhadətləndirilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil olunur. Həqiqi hərbi və ya alternativ xidmət keçmədən xəstəliyinə görə ehtiyata keçirilmiş hərbi vəzifəlilər 30 yaşına çatanadək həqiqi hərbi xidmət keçməyə yararlı sayıldıqda çağırışçıların hərbi qeydiyyatına qaytarılır (Azərbaycan Respublikasının müvafiq qanunları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla) və onlar ümumi qayda üzrə müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Göstərilən vətəndaşların tibbi şəhadətləndirilməsi işinə cəlb edilən tibbi heyətə daxil olan şəxslərin iş yerlərində onların orta əməkhaqları saxlanılır.

Bu maddənin üçüncü hissəsində qeyd edilən vətəndaşların çağırışçıların hərbi qeydiyyatına qaytarılması və müddətli həqiqi hərbi xidmətə çağırılması "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa və hərbi uçotun və qeydiyyatın aparılması sahəsində digər normativ hüquqi aktlara uyğun olaraq tənzimlənir.";

6.23. 175-ci maddənin dördüncü hissəsinin birinci cümləsindən "və hərbi komissarlıqlar" sözləri çıxarılsın;

6.24. 184-cü maddəyə "şəxslərin" sözündən sonra "("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin və həmin maddədə "hərbi komissarlıqlar" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə, "Silahlı Qüvvələr növlərinin komandanları, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılır və qərar verilmək üçün yuxarı rəislərə" sözləri "baxılması və qərar verilməsi üçün həqiqi hərbi xidmətdən buraxıldıqları müvafiq dövlət orqanlarına" sözləri ilə əvəz edilsin;

6.25. 186-cı maddənin birinci hissəsinin "q" bəndində "rayon (şəhər) hərbi komissarlarından" sözləri "müvafiq icra hakimiyyəti orqanından" sözləri ilə əvəz edilsin;

6.26. 187-ci maddədə üçüncü halda "müvafiq" sözü "uyğun" sözü ilə, "hərbi komissarlıqlar" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin;

6.27. Əsasnaməyə 4 saylı əlavə - "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətə qəbul haqqında Bağlaşma" ləğv edilsin;

6.28. Əsasnaməyə 6 saylı əlavə - "Hərbi qulluqçulara növbəti hərbi rütbə verilməsi (hərbi rütbəsinin aşağı salınması və bərpa edilməsi, hərbi rütbədən məhrum edilməsi), onların vəzifəyə təyin edilməsi və həqiqi hərbi xidmətdən buraxılması (müddətli və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından, hərbi təhsil müəssisələrinin kursantlarından və hərbi xidməti bağlaşma ilə keçən hərbi qulluqçulardan başqa) üçün təqdimatların tərtib edilməsi Qaydaları"nın 3-cü maddəsinin "v" bəndinin doqquzuncu abzasında "rayon (şəhər), rayon bölgülü şəhər, Muxtar Respublika hərbi komissarlığının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 8, maddələr 735, 743) 18-ci maddəsinin birinci hissəsinin 4-cü bəndində ", qoşun hissələrinin komandirlərinə və ya hərbi komissarlara" sözləri "və ya həqiqi hərbi xidmət keçdiyi orqanın həmin yerdə yerləşən müvafiq hərbi hissəsinin (qurumun) komandirinə (rəisinə)" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 14; (Cild I); 2025, № 1, maddə 15, № 7, maddə 629) ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 4-cü maddəsindən "və ya təhkim şəhadətnaməsini" sözləri çıxarılsın və həmin maddədə "hərbi komissarlığı" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613 (Cild I); 2024, № 2, maddə 138, № 7, maddə 776; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) 17.10-cu maddəsində "hərbi komissarlıqlar" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 376-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 376-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 159.3-cü maddəsindənəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri, öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

1.2. "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin ikinci və üçüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunun 23-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri nəzərdə tutulur;

1.4. həmin Qanunun 23-cü maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.5. "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 17-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.6. həmin Qanunun 16-cı maddəsinin birinci hissəsinin "a" bəndinin ikinci abzasında, 18-ci maddəsinin birinci və ikinci (birinci halda) hissələrində, 165-ci maddəsinin dördüncü və beşinci (birinci halda) hissələrində, 170-ci maddəsinin birinci hissəsində və üçüncü hissəsinin birinci cümləsində və 6 saylı Əlavəsinin 3-cü maddəsinin "v" bəndinin doqquzuncu abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri həyata keçirirlər;

1.7. həmin Qanunun 18-ci maddəsinin ikinci hissəsində ikinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

1.8. həmin Qanunun 18-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir;

1.9. həmin Qanunun 26-cı maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;

1.10. həmin Qanunun 28-ci maddəsinin birinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq qurumların səlahiyyətlərini qərargah və kadrlar orqanları həyata keçirirlər;

1.11. həmin Qanunun 118-ci maddəsinin üçüncü hissəsində, 186-cı maddəsinin birinci hissəsinin "q" bəndində və 187-ci maddəsində üçüncü halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri, öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

1.12. həmin Qanunun 184-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirir;

1.13. Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin 4-cü maddəsində birinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri həyata keçirirlər;

1.14. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 17.10-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.15. həmin Qanunun 17.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 376-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I); 2024, № 1, maddə 34, № 2, maddə 153, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 6, maddə 549, № 12 (I kitab), maddə 1153; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. dördüncü abzasa "səlahiyyətlərini," sözündən sonra "17-ci maddəsinin birinci cümləsində və" sözləri əlavə edilsin;

3.2. altıncı abzasdan "29-cu maddəsinin dördüncü hissəsində," sözləri çıxarılsın, həmin abzasda "190-cı maddəsində" sözləri "190-cı maddəsinin ikinci hissəsinin birinci cümləsində" sözləri ilə əvəz olunsun və həmin abzasa "Agentliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (100-cü maddəsinin ikinci hissəsində, 165-ci maddəsinin beşinci hissəsində və190-cı maddəsinin ikinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına münasibətdə istisna olmaqla)" sözləri əlavə edilsin;

*Ardı 3-cü səh.*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 376-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 2-ci səh.*

3.3. doqquzuncu abzasdan "77-ci maddəsinin dördüncü hissəsində,", ", 184-cü maddəsində, 4 saylı Əlavəsində" və "və 187-ci maddəsində" sözləri çıxarılsın;

3.4. on dördüncü abzasdan ", 180-ci maddəsində" sözləri çıxarılsın;

3.5. on beşinci abzasa "səlahiyyətlərini" sözündən əvvəl "və 184-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın" sözləri əlavə olunsun və həmin abzasda "Hərbi Komissarlığı" sözləri "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

3.6. on səkkizinci abzasdan ", 170-ci maddəsinin üçüncü hissəsində" sözləri çıxarılsın;

3.7. iyirminci abzasa "103-cü" sözlərindən əvvəl "28-ci maddəsinin birinci hissəsinin birinci cümləsində," sözləri əlavə edilsin;

3.8. iyirmi birinci abzasdan "29-cu maddəsinin dördüncü hissəsinin ikinci abzasında," sözləri çıxarılsın;

3.9. iyirmi altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 18-ci maddəsinin üçüncü hissəsində və öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə 175-ci maddəsinin ikinci hissəsinin ikinci abzasında (üçüncü halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir;

3.10. iyirmi doqquzuncu abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda otuzuncu-otuz beşinci abzaslar əlavə edilsin:

"həmin Qanunun 16-cı maddəsinin birinci hissəsinin "a" bəndinin ikinci abzasında, 18-ci maddəsinin birinci və ikinci (birinci halda) hissələrində, 165-ci maddəsinin dördüncü və beşinci (birinci halda) hissələrində, 170-ci maddəsinin birinci hissəsində və üçüncü hissəsinin birinci cümləsindəvə 6 saylı Əlavəsinin 3-cü maddəsinin "v" bəndinin doqquzuncu abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri həyata keçirirlər;

həmin Qanunun 18-ci maddəsinin ikinci hissəsində ikinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

həmin Qanunun 26-cı maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər;

həmin Qanunun 118-ci maddəsinin üçüncü hissəsində, 186-cı maddəsinin birinci hissəsinin "q" bəndində və 187-ci maddəsində üçüncü halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri, öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

həmin Qanunun 180-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirirlər;

həmin Qanunun 187-ci maddəsində ikinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər.".

4. "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 135 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 305 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. üçüncü abzasdan "və 23-cü" sözləri çıxarılsın;

4.2. ikinci - beşinci abzaslar müvafiq olaraq üçüncü - altıncı abzaslar hesab olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci, yeddinci və səkkizinci abzaslar əlavə edilsin:

"həmin Qanunun 23-cü maddəsinin ikinci və üçüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

"həmin Qanunun 23-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri həyata keçirirlər;

həmin Qanunun 23-cü maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.".

5. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 244 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 23 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.2-ci bəndə "4-cü" sözündən sonra "(ikinci halda)" sözləri əlavə edilsin;

5.2. 2.6-cı bəndə "Əsasnamənin" sözündən sonra "4-cü maddəsində (birinci halda)," sözləri əlavə edilsin.

6. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611 (Cild I); 2024, № 8, maddə 943; 2025, № 11, maddə 1036;2026, № 1, maddə 24) aşağıdakı məzmunda 3.19-1-ci bənd əlavə edilsin:

"3.19-1. həmin Məcəllənin 159.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri, öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər.".

7. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 623 (Cild I); 2024, № 4, maddə 398; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1-ci bəndə "13.1-ci," sözlərindən sonra "17.10-cu," sözləri əlavə edilsin;

7.2. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. həmin Qanunun 17.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2026-cı il*

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı,10-cu, 14-cü, 16-cı və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, №12 (l kitab), maddə 1283; 2025, № 4 (I kitab), maddələr 308, 322, № 6, maddə 526, № 7, maddə 610, № 8, maddələr 736, 743, № 11, maddə 1011; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 72.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qanunla nəzərdə tutulmuş əməllə təmsil edilən şəxsə mənəvi, fiziki və ya maddi ziyan vurması istinad edilən şəxs həmin şəxsin qanuni nümayəndəsi qismində mülki prosesdə iştirak etmək üçün buraxıla bilməz.";

1.2. 192.3-cü və 197.1-ci maddələrin birinci cümlələrinə "nümayəndəsinin" sözündən sonra "və psixoloqun" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); 2024, №5 (I kitab), maddə 484, №6 (I kitab), maddə 637, №7, maddələr 763, 765, 769, 772; 2025, № 2, maddə 98, № 4 (I kitab), maddə 322, № 6, maddə 523, № 11, maddə 1004;Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 51.7-ci maddəyə "himayəçilik orqanı" sözlərindən sonra", bu Məcəllə və digər qanunlarla müəyyən edilmiş hallarda prokuror" sözləri əlavə edilsin;

2.2. 114.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"114.1. Valideynlər öldükdə və ya məlum olmadıqda, məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə, valideynlik hüquqlarından məhrum olunduqda və ya valideynlik hüquqları məhdudlaşdırıldıqda, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edildikdə, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar valideynlik vəzifələrini həyata keçirə bilmədikdə, uşaqların tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina etdikdə, uşaqları sosial xidmət müəssisələrindən götürməkdən imtina etdikdə, cəzaçəkmə müəssisələrində cəza çəkdikdə, həmçinin valideyn himayəsinin olmadığı digər hallarda uşaqların hüquq və mənafelərinin müdafiəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.".

**Maddə 3.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, №4, maddələr 362, 365, 368, №6 (I kitab), maddə 631; 2025, №1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743, № 11, maddə 1011) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 101.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"101.3. Qanunla nəzərdə tutulmuş əməllə zərərçəkmiş şəxsə, mülki iddiaçıya, şübhəli və ya təqsirləndirilən şəxsə,yaxud mülki cavabdehə mənəvi, fiziki və ya maddi ziyan vurması istinad edilən şəxs həmin şəxsin qanuni nümayəndəsi qismində cinayət prosesində iştirak etmək üçün buraxıla bilməz.";

3.2. 123-2.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 123-2.1.9-cu maddə əlavə edilsin:

"123-2.1.9. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşağa aid istintaq materiallarının (o cümlədən ekspertiza rəyi, videogörüntü, fotoşəkil) yayılmamasının təmin edilməsi.";

3.3. 222.7-ci maddəyə "nümayəndələrinin" sözündən sonra "yazılı" sözü əlavə edilsin;

3.4. 228.2-ci, 235.6-cı və 260.3-cü maddələrə ismin müvafiq hallarında "müəllim," sözündən sonra ismin müvafiq hallarında "psixoloq," sözü əlavə edilsin;

3.5. 261.1.3-cü maddəyə "müəllimlərin," sözündən sonra "psixoloqların," sözü əlavə edilsin;

3.6. 262.3-cü, 263.1.3-cü və 275.3-cü maddələrə ismin müvafiq hallarında "müəllim," sözündən sonra ismin müvafiq hallarında "psixoloq," sözü əlavə edilsin.

**Maddə 4.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231(Cild I); Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli və 30 dekabr tarixli 332-VIIQD nömrəli qanunları) 9.3-cü maddəsində "gənclər" sözü "Gənclər" sözü ilə, ikinci halda "nikahın" sözü "evliliyin" sözü ilə əvəz edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 388 (Cild I); 2025, № 2, maddə 97; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"nin5-ci maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda 7-1-ci bənd əlavə edilsin:

"7-1) "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq çətin həyat şəraitində olan uşaqları aşkar etmək və onlara münasibətdə sosial müdafiə tədbirlərinin həyata keçirilməsi üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat vermək;".

**Maddə 6.** "Yetkinlik yaşına çatmayanlarınbaxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 2, maddə 98, № 6, maddə 523, № 11, maddə 1004; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.0.6-cı maddədən "vaxtında aşkar edilməsi, habelə onların" sözləri çıxarılsın və həmin maddəyə "sosial-pedaqoji" sözlərindən sonra "və sosial-psixoloji" sözləri əlavə edilsin;

6.2. 3.0.3-cü maddəyə "sosial-pedaqoji" sözlərindən sonra "və sosial-psixoloji" sözləri əlavə edilsin.

**Maddə 7.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613 (Cild I); 2024, № 2, maddə 138, №7, maddə 776; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 43.2.5-1-ci maddə əlavə edilsin:

"43.2.5-1. uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onların şərəf və ləyaqətinə hörmət etmək;".

**Maddə 8.** "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191 (Cild I); 2024, №4, maddə 365; 2025, № 5, maddə 437; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.0.2-ci maddəyə "təkbaşına" sözündən sonra ", uşaqlara münasibətdə, həmçinin ailəsinin köməyi ilə" sözləri əlavə edilsin;

8.2. aşağıdakı məzmunda 10-1-ci maddə əlavə edilsin:

**"Maddə 10-1.** Çətin həyat şəraitində olan uşaqların aşkarlanması

Çətin həyat şəraitində olan uşaqların aşkarlanması bu Qanunun 7.1.1-ci maddəsində qeyd edilən əsaslar üzrə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), bu Qanunun 7.1.2-7.1.8-ci və 7.1.10-cu maddələrində qeyd edilən əsaslar üzrə "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiya tərəfindən həyata keçirilir.".

**Maddə 9.** "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812 (Cild I);2024, № 4, maddə 365, №5 (I kitab),maddə 489, №6 (Ikitab), maddələr 630, 631, 642, №7, maddə 775; 2025, № 5, maddə 436, № 7, maddə 626; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 12.5-ci maddə əlavə edilsin:

"12.5. Reklamda uşağın görüntüsü əks olunan materiallardan yalnız onun valideynlərinin (onları əvəz edən şəxslərin)razılığı ilə istifadə edilə bilər.".

**Maddə 10.** "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2244 (Cild I); 2024, №5 (I kitab), maddə 489; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanunu) 14.1.4-cü maddəsinə "əsərlərdə" sözündən sonra "və uşaqlar üçün keçirilən tədbirlərdə" sözləri əlavə edilsin.

**Maddə 11.** "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2220 (Cild I) 1.0.11-ci maddəsində "və avaralıqla (o cümlədən dilənçiliklə)" sözləri ", avaralıq və dilənçiliklə" sözləri ilə əvəz edilsin.

**Maddə 12.** "Media haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I); 2024, №5(I kitab), maddələr 488, 494, №7, maddə 775; 2025, № 2, maddə 100, № 4 (I kitab), maddə 318, № 8, maddə 741) 15.1.5-ci maddəsinə "nümayəndələrinin" sözündən sonra "yazılı" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

# "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 114.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 114.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 10-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I); 2024, № 6 (I kitab), maddə 655, № 7, maddə 812, № 8, maddə 956; 2025, № 6, maddə 542, № 11, maddə 1035; 2026, № 1, maddə 24) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "115.4-cü" sözlərindən əvvəl "114.1-ci," sözləri əlavə edilsin;

3.2. 2.11-ci bənddən "114.1," rəqəmləri çıxarılsın;

3.3. 2.11-1-ci bəndə "116.1" rəqəmlərindən əvvəl "114.1," rəqəmləri əlavə edilsin;

3.4. 2.15-ci bəndə "Komitəsi," sözündən sonra "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi," sözləri, "Tibbi" sözündən əvvəl "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Audiovizual Şurası," sözləri əlavə edilsin.

4. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 600 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 201 (Cild I); 2025, № 5, maddə 447) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "28.2-ci maddəsində" sözləri "10-1-ci və 28.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. həmin Qanunun 10-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024,№ 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325,№ 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli və 16 mart tarixli 622 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 68-ci hissədə "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi adından - Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, Komitənin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavini" sözləri "Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından -Xidmətin rəisi, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, Xidmətin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsin İdarə Heyətinin sədri və onun müavinləri, departament rəhbərləri və onların müavinləri, ərazi idarələrinin rəisləri və onların müavinləri" sözləri ilə əvəz edilsin;

2. 69-cu hissədə "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi adından - Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri" sözləri "Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - Xidmətin rəisi, onun müavinləri, Aparatın rəhbəri, onun müavini"sözləri ilə, "Komitənin ərazi bölmələrinin" sözləri "Xidmətin ərazi şöbələrinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2026-cı il*

# Uşaq hüquqları haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **çətin həyat şəraitində olan uşaqlar** - həyat fəaliyyəti "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş halların mövcudluğu nəticəsində pozulan və bu halları təkbaşına və ya ailəsinin köməyi ilə aradan qaldıra bilməyən uşaqlar;

1.1.2. **erkən evlilik** - uşaqla nikah bağlamadan ailə qurmaq məqsədilə yaradılan ittifaq;

1.1.3. **uşağın qanuni nümayəndələri** - valideynlər, valideynləri əvəz edən şəxslər, onlar olmadıqda qəyyumluq və himayəçilik orqanının nümayəndəsi;

1.1.4. **uşağın sosial reabilitasiyası** - uşağın normal yaşayış mühitinin, sosial əlaqələrinin bərpası və ona qayğı göstərilməsi üzrə həyata keçirilən kompleks tədbirlər;

1.1.5. **uşağın üstün mənafeləri** - bu Qanuna və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına uyğun olaraq uşağın rifahı, təhlükəsizliyi, sağlamlığı, təhsili və inkişafı ilə bağlı mənafeləri;

1.1.6. **uşaq** - 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxs;

1.1.7. **uşaqlar barəsində icraat** - uşaqlar barəsində mülki işlər, cinayət işləri, inzibati xətalara və inzibati mübahisələrə dair işlər üzrə icraat, inzibati icraat;

1.1.8. **uşaqlara qarşı cismani cəza** - valideynlər (onları əvəz edən şəxslər), uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri tərəfindən tərbiyə etmək məqsədilə və ya intizam tədbiri kimi uşaqlara qarşı törədilən fiziki və (və ya) psixoloji zorakılıq;

1.1.9. **uşaqlara qarşı zorakılığın formaları** - fiziki zorakılıq, cinsi zorakılıq, psixoloji zorakılıq, cismani cəza, etinasız rəftar, təhlükədə qoyma, istismar, davamlı təzyiq və aqressiv davranış;

1.1.10. **uşaqlara qarşı zorakılıq** - uşağın həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan, ona fiziki və ya psixoloji əzab verən və ya verə biləcək, uşağın mənafeyinə zidd olan, müxtəlif üsullarla, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilən əməl (hərəkət və ya hərəkətsizlik);

1.1.11. **valideynləri əvəz edən şəxslər** - övladlığa götürənlər, qəyyumlar (himayəçilər).

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Azərbaycan Respublikasının uşaq hüquqları haqqında qanunvericiliyi**

Azərbaycan Respublikasının uşaq hüquqları haqqında qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan, Azərbaycan Respublikasının Ailə Məcəlləsindən, "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarından və digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 3. Bu Qanunun tətbiq dairəsi**

3.1. Bu Qanunda nəzərdə tutulmuş hüquqlar və azadlıqlar irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, əqidəsindən, sağlamlıq imkanlarından, valideynlərinin (onları əvəz edən şəxslərin), digər ailə üzvlərinin sosial vəziyyətindən, ictimai birliklərə mənsubiyyətindən və digər əlamətlərdən asılı olmayaraq hər bir uşağa aid edilir.

3.2. Azərbaycan Respublikasında olan əcnəbi və vətəndaşlığı olmayan uşaqlar digər qanunlarda və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, bu Qanunda nəzərdə tutulmuş bütün hüquqlardan və azadlıqlardan istifadə edə bilərlər.

### 2-ci fəsil
### UŞAQLAR BARƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

**Maddə 4. Uşaqlar barəsində dövlət siyasətinin məqsədləri**

4.1. Uşaqlar barəsində dövlət siyasətinin məqsədləri aşağıdakılardır:

4.1.1. uşaqların hüquq və azadlıqlarının təmin edilməsi, uşaq hüquqlarının təminatının hüquqi əsaslarının formalaşdırılması;

4.1.2. uşaqların hüquq və azadlıqlarının müdafiəsi üçün institusional mexanizmlərin yaradılması, onların pozulmuş hüquqlarının bərpası;

4.1.3. uşaqlara qarşı ayrı-seçkiliyə yol verilməməsi, bütün uşaqlar üçün bərabər imkanların və inklüzivliyin təmin edilməsi;

4.1.4. çətin həyat şəraitində olan uşaqların sosial müdafiəsi;

4.1.5. uşaqların fiziki, əqli, mənəvi və əxlaqi inkişafı, onların vətənpərvərlik, vətəndaşlıq, sülhpərvərlik, əxlaqi dəyərlərə, milli adət və ənənələrə hörmət ruhunda tərbiyə olunması;

4.1.6. uşaqlarda hüquq mədəniyyətinin formalaşdırılması;

4.1.7. uşaqların sağlamlığına və inkişafına zərər vuran məlumatlardan qorunması.

**Maddə 5. Uşaqların hüquq və azadlıqlarının təmin edilməsi sahəsində dövlətin əsas vəzifələri**

5.1. Uşaqların hüquq və azadlıqlarının təmin edilməsi sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

5.1.1. uşaqların hüquq və azadlıqlarının müdafiəsinə dair normativ hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi;

5.1.2. uşaqların mənafelərinin üstünlüyü prinsipindən irəli gələrək dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, dövlət büdcəsinin proqnozlaşdırılmasında nəzərə alınması;

5.1.3. uşaq hüquqlarının təmin edilməsi sahəsində dövlət proqramlarının və bu kimi digər sənədlərin işlənib hazırlanması və həyata keçirilməsi zamanı bu tədbirlərin uşaqların hüquqi vəziyyətinə təsirinin qiymətləndirilməsi mexanizminin yaradılması və tətbiqi;

5.1.4. uşaqların hüquq və azadlıqlarının müdafiəsini təmin edən dövlət orqanlarının (qurumlarının), təhsil, tibb, sosial xidmət müəssisələrinin təsis edilməsi, uşaqların inkişafı və asudə vaxtının təşkili üzrə infrastrukturun yaradılması və təkmilləşdirilməsi;

5.1.5. sosial dəstək mexanizmlərinin tətbiqi vasitəsilə uşaqların sosial xidmət müəssisələrindən ailələrinə qaytarılması, qəyyumluğa (himayəyə), himayədar ailəyə verilməsi və ya övladlığa götürülməsi, eləcə də onların sosial xidmət müəssisələrinə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsi və həmin müəssisələrdə olan uşaqların fərdi inkişafının təmin edilməsi;

5.1.6. təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə uşaqlarla müntəzəm təmasda olan şəxslərin (mütəxəssislərin) peşəkarlığının təmin edilməsi;

5.1.7. uşaqlara qarşı ayrı-seçkiliyin, zorakılığın bütün formalarının və erkən evliliyin qarşısının alınması;

5.1.8. uşaqların hüquq və azadlıqlarını, habelə qanuni mənafelərini pozan, onlara zərər vuran şəxslərin məsuliyyətə cəlb edilməsinin təmin olunması;

5.1.9. uşaqların hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi.

**Maddə 6. Uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi üzrə dəstək proqramları**

6.1. Bu Qanunda təsbit edilmiş uşaq hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsinə dəstək məqsədilə dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaların iştirakı ilə proqramlar həyata keçirirlər.

6.2. Uşaq hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatları müstəqil və ya digər qeyri-hökumət təşkilatları ilə birgə uşaqlara dəstək proqramları həyata keçirə bilərlər.

**Maddə 7. Uşaq hüquqlarını müdafiə edən orqanlar (qurumlar) və qeyri-hökumət təşkilatları**

7.1. Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), məhkəmə, prokurorluq və digər hüquq mühafizə orqanları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və yerli özünüidarəetmə orqanları təmin edirlər.

7.2. Dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları uşaq hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarının fəaliyyətinə dəstək göstərirlər.

7.3. Uşaq hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarının fəaliyyəti bu Qanunla müəyyən edilmiş prinsip və tələblərə əsaslanmalıdır.

**Maddə 8. Əlaqələndirmə, nəzarət və monitorinq**

8.1. Uşaqlar barəsində dövlət siyasəti normativ hüquqi bazanın təkmilləşdirilməsi, dövlət proqramlarının və bu kimi digər sənədlərin işlənib hazırlanması və həyata keçirilməsi, təhsil, səhiyyə, sosial müdafiə və digər sahələrdə əlaqələndirmə və qurumlararası əməkdaşlıq çərçivəsində, vətəndaş cəmiyyəti institutlarının və media subyektlərinin iştirakı ilə həyata keçirilir.

8.2. Uşaq hüquqlarının müdafiəsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətlərinin əlaqələndirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

8.3. Dövlət uşaq hüquqları sahəsində normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsinə, uşaqların mənafeyinin üstün tutulmasına və ayrı-seçkiliyin yolverilməzliyinə nəzarət edir. Uşaq hüquq və azadlıqlarının həyata keçirilməsinə dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin qorunması, uşaq hüquq və azadlıqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması, uşaq hüquq və azadlıqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınmasıdır. Uşaq hüquq və azadlıqlarının həyata keçirilməsinə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar,müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan(qurum), habelə qəyyumluq və himayəçilik orqanı və qanunla müəyyən edilmiş hallarda prokuror nəzarət edir.

8.4. Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

8.5. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.

**Maddə 9. Məlumatların toplanılması və təhlili**

9.1. Dövlət uşaq hüquq və azadlıqlarının təmin edilməsi, o cümlədən uşaqlara qarşı ayrı-seçkilik və zorakılıq halları, onların səbəb və nəticələri, bu halları törədən və məsuliyyətə cəlb edilən şəxslər, uşaq hüquqlarının pozulmasının qarşısının alınması və müdafiə tədbirlərinin səmərəliliyi ilə bağlı məlumatların toplanılmasını və təhlilini həyata keçirir və bu barədə ictimaiyyətin məlumatlandırılmasını təmin edir.

9.2. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti və dövlət orqanları (qurumları) tərəfindən uşaq problemlərinin əlaqəli şəkildə çevik həllinin təşkili məqsədilə uşaq hüquqlarının həyata keçirilməsinə dair məlumat bankı yaradılır.

9.3. Uşaq hüquqlarının həyata keçirilməsinə dair məlumat bankı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil və idarə edilir.

### 3-cü fəsil
### UŞAĞIN ƏSAS HÜQUQ VƏ AZADLIQLARI, ONLARIN HƏYATA KEÇİRİLMƏSİNİN DÖVLƏT TƏMİNATLARI

**Maddə 10. Uşaqların mənafelərinin üstünlüyünün əsas təminatları**

10.1. Uşaqların mənafelərinin üstünlüyünün əsas təminatları aşağıdakılardır:

10.1.1. uşaqların mənafelərinin üstünlüyünün qanunda təsbit edilməklə tanınması;

10.1.2. uşaqların müdafiəsinin və onlara qayğının ilk növbədə təmin edilməsi;

10.1.3. cəmiyyətin bərabərhüquqlu üzvü olaraq uşağın hüquq və azadlıqlarına hörmət edilməsi;

10.1.4. uşağa aid qərarların qəbul edilməsindən əvvəl qanuna əsasən araşdırmanın aparılması və uşağın öz fikrini ifadə etmək hüququnun təmin edilməsi;

10.1.5. uşağın ayrı-seçkiliyin və zorakılığın bütün formalarından müdafiəsinin təmin edilməsi;

10.1.6. hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin müdafiəsinin, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsi məqsədilə ailələrə dövlət dəstəyinin göstərilməsi;

10.1.7. valideynlərin (onları əvəz edən şəxslərin), cəmiyyətin uşaqların hüquq və azadlıqlarına dair məlumatlılıq səviyyəsinin və valideyn məsuliyyətinin artırılması;

10.1.8. uşaqların hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin müdafiəsi sahəsində dövlət və qeyri-dövlət müəssisələri arasında əməkdaşlığın təmin edilməsi;

10.1.9. uşaqların hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin pozulmasına, onlara zərərin yetirilməsinə görə vəzifəli şəxslərin, habelə fiziki və hüquqi şəxslərin məsuliyyətinin müəyyən edilməsi;

10.1.10. uşağın müdafiəsi üzrə tədbirlər görülərkən himayənin, tərbiyənin və təhsilin sabitliyinin və fasiləsizliyinin təmin edilməsi;

10.1.11. uşağın hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin dövlət, cəmiyyət və ailə tərəfindən qorunması və müdafiəsi.

10.2. Dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları öz fəaliyyətində uşaqların hüquq və azadlıqlarını üstün tutmalı, onların hüquq və azadlıqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və dövlət orqanlarının (qurumlarının) qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər vurmamalıdır.

**Maddə 11. Uşağın yaşamaq və inkişaf etmək hüququ**

Hər bir uşaq yaşamaq, fiziki, əqli, mənəvi, əxlaqi və sosial cəhətdən inkişaf etmək üçün zəruri olan yaşayış standartı və həyat səviyyəsi ilə təmin olunmaq hüququna malikdir. Dövlət bu hüququ iqtisadi, sosial-hüquqi və digər tədbirlər sistemi vasitəsilə təmin edir.

**Maddə 12. Uşaqların hüquq bərabərliyi**

12.1. Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqlar bu Qanunun 3.1-ci maddəsində göstərilən əlamətlərə görə ayrı-seçkiliyə məruz qala bilməzlər.

12.2. Uşaqlar valideynlərinin (onları əvəz edən şəxslərin) hərəkət və hərəkətsizliyinə görə məsuliyyət daşımırlar və valideynləriilə (onları əvəz edən şəxslərlə) bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir.

12.3. Nikahdan və ya nikahdankənar doğulmasından asılı olmayaraq, uşaqların valideynlərinin hər birinə münasibətdə eyni hüquqları vardır.

**Maddə 13. Uşağın fərdiliyinin qorunması hüququ**

Dövlət uşağın fərdiliyini, yəni vətəndaşlığını, adını və ailə əlaqələrini saxlamaq hüququnu qoruyur.

**Maddə 14. Uşağın vətəndaşlıq və ad almaq hüququ**

14.1. Hər bir uşaq doğulduqdan sonra onun doğumu Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq qeydiyyata alınır və o, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında"Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla,vətəndaşlıq əldə edir.

14.2. Uşağa ad Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq verilir.

**Maddə 15. Uşağın tərbiyə almaq hüququ**

15.1. Hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır.

15.2. Uşağın tərbiyəsi ailədə, təhsil və sosial xidmət müəssisələrində həyata keçirilir.Uşaqların tərbiyəsi sahəsində həyata keçirilən tədbirlər uşaq hüquqlarını pozmamalıdır.

15.3. Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, dünyagörüşünün, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssisələrin yaradılmasında qeyri-hökumət təşkilatlarına maliyyə və başqa formalarda yardım edir.

**Maddə 16. Uşağın həyat və sağlamlığının qorunması hüququ**

16.1. Hər bir uşağın həyat və sağlamlığının qorunması hüququ vardır.

16.2. Dövlət uşaqların həyatının mühafizəsi, onların sağlam inkişafı, ekoloji təhlükəsizliyi, keyfiyyətli qida və içməli təmiz su ilə təminatı üçün aşağıdakı tədbirləri görür:

16.2.1. profilaktik peyvəndlərin aparılması və uşaqların inkişafına yönəldilmiş digər qabaqlayıcı tədbirlərin görülməsi;

16.2.2. uşaqların qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən qida və içməli su ilə təminatı;

16.2.3. uşaqların və valideynlərin (onları əvəz edən şəxslərin) sağlamlığın qorunması, uşaqların sağlam qidalanması, ana südü ilə qidalanma, gigiyena qaydalarına əməl olunma, ətraf mühitin mühafizəsi, təbii fəlakətlərdən və bədbəxt hadisələrdən qorunma barədə məlumatlandırılması;

16.2.4. uşaq ölümünün azaldılması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi.

16.3. Dövlət uşaqların dispanserizasiyadan keçmək, dispanserizasiyanın nəticələrindən asılı olaraq tibbi göstərişlər əsasında ambulator, stasionar və ya sanatoriya-kurort şəraitində tibbi yardım almaq, dispanserizasiyanın nəticələri, o cümlədən aparılmış müayinə-müalicə tədbirləri, habelə sağlamlığının vəziyyəti haqqında uşaqların və onların qanuni nümayəndələrinin tam və obyektiv məlumat almaq hüququnu təmin edir.

16.4. Valideynlər (onları əvəz edən şəxslər) uşaqların sağlamlığının qayğısına qalmalı və uşağın tibbi yardıma ehtiyacı olduqda dərhal tibb müəssisəsinə müraciət etməlidirlər.

16.5. Uşaqlara tibbi-sosial yardım "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

16.6. Təcili və təxirəsalınmaz tibbi yardıma ehtiyacı olan uşaqların müalicəsinin təşkili "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

16.7. Uşaqların dövlət və bələdiyyə tibb müəssisələrində profilaktik peyvənd edilməsindən əvvəl büdcə vəsaiti hesabına tibbi baxışdan keçmək və müayinə olunmaq, profilaktik peyvəndlər təqviminə əsasən yaş qruplarına görə peyvənd olunmaq, postvaksinal fəsadlar baş verdikdə müalicə olunmaq, epidemik göstərişlərə görə profilaktik peyvəndlərdən imtina etmək hüququ vardır.

16.8. Uşaqların təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə saxlanma, təhsil və tərbiyə şəraiti Azərbaycan Respublikasının sanitariya-epidemioloji salamatlıq haqqında qanunvericiliyinin tələblərinə uyğun olmalıdır.

16.9. Dövlət zorakılıqdan, hərbi münaqişələrdən, təbii fəlakətlərdən və bədbəxt hadisələrdən zərər çəkmiş, zorakılığın şahidi və qurbanı olmuş, habelə əlilliyi olan uşaqların fiziki və psixi sağlamlığının qorunmasını, o cümlədən sosial reabilitasiyasını təmin edir.

16.10. Əhalinin sağlamlığının qorunması sahəsində fəaliyyət göstərən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqların sağlamlığının mühafizəsi üzrə proqramlar həyata keçirirlər.

**Maddə 17. Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ**

17.1. Hər bir uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.

17.2. Uşağın şəxsi və ailə həyatının sirri qanunla qorunur və hər bir uşağın şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, uşağın şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər bir uşağın şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

17.3. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, uşaq izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

17.4. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, dövlət uşaqların yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatlarının sirrini saxlamaq hüququna təminat verir.

17.5. Uşaqlara aid fərdi məlumatların dairəsi, habelə onların toplanması, emalı, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.

17.6. Uşağın tutulmasına, həbs edilməsinə və ya azadlıqdan məhrum edilməsinə yalnız Azərbaycan Respublikasının İnzibati Xətalar, Cinayət və Cinayət-Prosessual məcəllələrində nəzərdə tutulmuş əsaslar mövcud olduqda yol verilir. Uşaq tutulduqda və ya həbs edildikdə bu barədə onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə, habelə ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya dərhal məlumat verilməlidir.

**Maddə 18. Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ**

18.1. Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

18.2. Uşaqların təhqir edilməsi, şərəf və ləyaqətinin alçaldılması qadağandır.

18.3. Ailədə, təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə və uşağın ola biləcəyi digər yerlərdə, habelə internet informasiya ehtiyatlarında və informasiya-telekommunikasiya şəbəkələrində uşağa qarşı zorakılıq qadağandır. Uşağın zorakılıqdan müdafiə olunmaq hüququ vardır. Dövlət uşağa qarşı zorakılığın qarşısının alınması üçün hüquqi, inzibati, sosial və maarifləndirici tədbirlər görür.

18.4. Valideynlər (onları əvəz edən şəxslər), habelə uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrininvə penitensiar müəssisələrin işçiləri uşaqda zorakılıq hərəkətlərinin əlamətlərini aşkar etdikdə konfidensiallığa əməl etməklə, bu barədə aidiyyəti hüquq mühafizə orqanlarına vəya ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya məlumat verməyə borcludurlar, habelə uşaq qaynar xətt xidmətinə məlumat verə bilərlər.

18.5. Valideynlər (onları əvəz edən şəxslər), habelə dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxsləri, tibb müəssisələri, hüquq mühafizə orqanları və digər səlahiyyətli orqanlar zorakılığa məruz qalmış uşağın fiziki sağlamlığının və psixoloji vəziyyətinin bərpa olunması üçün bütün lazımi tədbirləri görməyə borcludurlar.

18.6. Dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları, habelə hüquqi və vəzifəli şəxslər təhsil, tibb, sosial müdafiə, hüquq mühafizə, idman, media, mədəniyyət və istirahət sahələrində uşaqlarla müntəzəm təmasda olan şəxslərlə uşaqların müdafiəsi və uşaq hüquqları barədə təbliğat-təşviqat işlərinin aparılması, həmin şəxslərin zorakılığa məruz qalmış uşaqların müəyyən edilməsi vasitələri barədə təlimatlandırılması üçün tədbirlər görürlər.

18.7. Təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınması və zorakılıq baş verdiyi təqdirdə səmərəli cavab tədbirlərinin tətbiqi üzrə mexanizmlər formalaşdırılır.

18.8. Təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələri və penitensiar müəssisələr uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınması üçün tədbirlər görməyə borcludurlar.

**Maddə 19. Uşağın vicdan azadlığı**

19.1.Hər bir uşağın vicdan azadlığı vardır və hər kəs uşağın vicdan azadlığına hörmətlə yanaşmalıdır.

19.2. Valideynlər (onları əvəz edən şəxslər) qarşılıqlı razılıq əsasında uşaqları özlərinin dini əqidəsinə və dinə münasibətinə uyğun tərbiyə edə bilərlər. Uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağandır. Uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir.

19.3. Yalnız qanunda nəzərdə tutulan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın, mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün uşağın dini etiqad azadlığına məhdudiyyətlər qoyula bilər.

**Maddə 20. Uşağın fikir və söz azadlığı**

20.1. Uşaq öz fikrini azad ifadə etmək hüququna malikdir.

20.2.Hər kəs uşağın fikir və söz azadlığına hörmətlə yanaşmalıdır.

**Maddə 21. Uşağın məlumat azadlığı**

Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq hər bir uşağın əqli və fiziki inkişafı üçün zəruri olan istənilən mövzuda, o cümlədən öz hüquq və azadlıqları barədə məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

**Maddə 22. Uşağın yaradıcılıq azadlığı və əqli mülkiyyət hüququ**

22.1. Hər bir uşağın yaradıcılıq azadlığı vardır. Dövlət uşağın ədəbi-bədii,elmi-texniki və başqa yaradıcılıq növlərini azad həyata keçirməsinə təminat verir.

22.2. Uşağın əqli mülkiyyət hüququ vardır. Uşağın əqli mülkiyyət hüququ "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qorunur.

**Maddə 23. Uşağın birləşmək hüququ**

23.1. Uşaqların qanunla müəyyən edilmiş qaydada onların fiziki, əqli və mədəni inkişafına xidmət edən ictimai birliklər yaratmaq və onlarda birləşmək hüququ vardır.

23.2. Uşaqların və uşaq ictimai birliklərinin siyasi fəaliyyətə cəlb edilməsinə yol verilmir.

**Maddə 24. Uşağın sosial təminat hüququ**

24.1. Hər bir uşaq sosial təminat hüququna malikdir.

24.2. Uşağın qanunla müəyyən edilmiş yaşayış minimumu məbləğindən az olmayan məbləğdə maddi təminat almaq hüququ vardır.

24.3. Dövlət uşaqların sosial müdafiəsi məqsədilə ayrı-ayrı kateqoriyadan olan şəxslərə sosial yardım göstərir.

24.4. Çətin həyat şəraitində olan uşaqlara və onların ailələrinə "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət sosial xidmət müəssisələrində və evlərdə zəmanət verilmiş həcmdə ödənişsiz sosial xidmətlər göstərilir.

24.5. Yerli özünüidarəetmə orqanları uşaqlara dövlət sosial təminatından əlavə təminatlar nəzərdə tutan yerli sosial müdafiə proqramları həyata keçirirlər.

24.6. Qeyri-hökumət təşkilatları dövlət sifarişləri çərçivəsində və ya öz təşəbbüsləri və maliyyə vəsaitləri hesabına uşaqların sosial müdafiəsi üzrə tədbirlər həyata keçirirlər.

**Maddə 25. Uşağın təhsil hüququ**

25.1. Hər bir uşağın keyfiyyətli təhsil almaq hüququ vardır. Dövlət uşaqların təhsilə olan fərdi ehtiyac və imkanlarını nəzərə almaqla onların təhsilə bərabər çıxış imkanlarını təmin edir.

25.2. Dövlət uşaqların dövlət təhsil müəssisələrində pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir uşaq pulsuz ümumi təhsil almaq hüququna malikdir.

25.3. Dövlət icbari ümumi orta təhsildən kənarda qalmış uşaqların təhsilə cəlb olunması və belə halların qarşısının alınması üçün tədbirlər görülməsini təmin edir.

25.4. Dövlət maddi vəziyyətindən asılı olmayaraq istedadlı uşaqların təhsilini davam etdirməsinə təminat verir.

25.5. Dövlət xüsusi istedada malik uşaqların erkən yaşdan üzə çıxarılması, onların qabiliyyətinin qiymətləndirilməsi üçün tədbirlər görür, xüsusi istedadı ilə fərqlənən təhsilalanlar üçün adlı və məqsədli təqaüdlər təsis edir, təhsil müəssisələri sistemini yaradır və maliyyələşdirir, bu sahədə beynəlxalq əlaqələri inkişaf etdirir.

25.6. Sağlamlıq imkanları məhdud uşaqların təhsili sahəsində yaranan münasibətlər "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir və xüsusi təhsilin təşkilati-hüquqi və iqtisadi əsasları müəyyən edilir.

25.7. Mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrində uşaqlara qanuna uyğun olaraq ödənişsiz tibbi və psixoloji yardım göstərilir.

25.8. Təhsilverənlər uşaqları fiziki və psixi zorakılığın bütün formalarından qorumalı, onları zərərli vərdişlərdən çəkindirməli, onların şərəf və ləyaqətinə hörmət etməlidirlər. Təhsil müəssisələrində intizam tədbiri olaraq uşaqlara qarşı zorakılığın hər hansı formasının tətbiqi qadağandır.

25.9. Təhsil müəssisələrində uşaqlar arasında hüquq pozuntularının, riskli davranışın və zərərli vərdişlərə aludəlik meyillərinin qarşısının alınması, sosial dizadaptasiyaya məruz qalmış uşaqların sosial bacarıqlarının artırılması məqsədilə profilaktik tədbirlər görülür və sağlam həyat tərzini təbliğ edən layihələr həyata keçirilir.

**Maddə 26. Uşağın əmlak hüquqları**

Uşaq gəlirinə (o cümlədən aliment, təqaüd, pensiya, müavinət və s.), vərəsəlik və ya hədiyyə şəklində əldə etdiyi əmlaka, habelə onun vəsaiti hesabına əldə edilmiş digər əmlaka mülkiyyət hüququna malikdir. Uşağa məxsus əmlakın onun üstün mənafelərinə uyğun idarə olunması və uşağın həmin əmlak üzərində sərəncam vermək hüququ Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən olunur.

**Maddə 27. Uşağın əmək hüququ**

27.1.Yaşı 15-dən az olan uşaqların işə qəbul edilməsinə yol verilmir.

27.2. Uşaqların əmək hüququ və onlar üçün müvafiq təminatlar Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

27.3. Ümumi təhsil müəssisələrində təhsil alanlar üçün peşəyönümü xidməti təşkil edilir.

27.4. Əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, uşaqların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının, toksik preparatların istehsalı, daşınması, satışı və saxlanılması işlərində, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı olan və uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır.

**Maddə 28. Uşağın istirahət hüququ**

28.1. Hər bir uşağın istirahət və asudə vaxtdan istifadə etmək hüququ vardır.

28.2. Uşaq öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyət növü seçməkdə müstəqildir. Valideynlər (onları əvəz edən şəxslər) və müvafiq dövlət orqanları (qurumları) uşaqların istirahət və asudə vaxtlarında mənfi təsirlərə məruz qalmasının qarşısını alan tədbirlər görməlidirlər.

28.3. Dövlət uşaqların istirahət və asudə vaxtını səmərəli təşkil etmək, mədəni və yaradıcılıq fəaliyyəti ilə məşğul olmasını təmin etmək məqsədilə məktəbdənkənar təhsil müəssisələrinin, uşaq və gənclər, idman, mədəniyyət və sağlamlıq obyektlərinin və digər istirahət yerlərinin geniş şəbəkəsini yaradır və inkişaf etdirir, bu obyektlərdən ödənişsiz və güzəştli istifadə qaydalarını müəyyən edir.

28.4. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, uşaqların məktəbdənkənar istirahət və asudə vaxtlarının təşkili ilə bağlı yerlərin ləğvi və başqa məqsədlər üçün istifadə olunması qadağandır.

28.5. Dövlət və bələdiyyə bədən tərbiyəsi-idman təşkilatlarında aztəminatlı ailələrdən olan uşaqlara, valideyn himayəsindən məhrum olmuş uşaqlara, məktəbəqədər yaşlı uşaqlara və əlilliyi olan uşaqlara bədən tərbiyəsi-idman xidmətləri ödənişsiz göstərilir.

28.6. Əlilliyi olan, şəhid ailəsinin üzvü olan, valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar sanatoriya-kurort müalicəsi almaq üçün normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada sanatoriya-kurort yollayışları ilə təmin edilirlər.

**Maddə 29. Uşaqların hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin inzibati və məhkəmə təminatı**

29.1. Hər bir uşağın hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

29.2. Uşaqlarla bağlı inzibati və məhkəmə icraatı uşaqların yaşına uyğun, onlar üçün aydın, təxirəsalınmaz, ədalətli, ardıcıl, uşaqların hüquq və ehtiyacları nəzərə alınmaqla, onların ləyaqətinə və şəxsi həyatına, habelə valideynlərinə və digər yaxın qohumlarına qarşı hörmət əsasında həyata keçirilir.

*Ardı 5-ci səh.*

# Uşaq hüquqları haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

29.3. Uşaq qanunla müəyyən edilmiş qaydada dövlət orqanlarında (qurumlarında) özü barəsində olan və ya digər informasiyanı əldə etmək və (və ya) rəsmi sənədlərlə tanış olmaq hüququna malikdir.

**Maddə 30. Hərbi münaqişələr dövründə uşaqların müdafiəsi**

30.1. Dövlət hərbi münaqişələrə cəlb edildiyi ərazidə olan uşaqların müdafiəsini beynəlxalq hüquq normalarına uyğun olaraq təmin etməyi öz üzərinə götürür.

30.2. Hərbi qurumlar döyüş əməliyyatları zonasında olan uşaqların təhlükəsiz yerlərə köçürülməsi, onların həyatının və sağlamlığının qorunması üçün bütün mümkün imkanlardan istifadə etməlidirlər.

**Maddə 31. Təbii fəlakətlər, bədbəxt hadisələr və qəzalar nəticəsində zərərçəkmiş uşaqların müdafiəsi**

31.1. Dövlət təbii fəlakətlər, bədbəxt hadisələr və qəzalar nəticəsində əlverişsiz şəraitə düşmüş və ya zərər çəkmiş uşaqlara təcili kömək göstərir, onların təhlükəsiz yerlərə köçürülməsi üçün təxirəsalınmaz tədbirlər görür.

31.2. Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 32. Qaçqın və ya məcburi köçkün uşaqların müdafiəsi**

32.1. Dövlət valideynləri və ya digər şəxslər tərəfindən müşayiət edilib-edilməməsindən asılı olmayaraq, qaçqın və ya məcburi köçkün olan uşaqları lazımi müdafiə və humanitar yardımla təmin etmək üçün təcili tədbirlər görür, valideynlərindən (onları əvəz edən şəxslərdən) ayrı düşmüş uşaqların valideynlərinin (onları əvəz edən şəxslərin) axtarılmasını təşkil edir, bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, qeyri-dövlət təşkilatlarının fəaliyyətinə zəruri kömək göstərir.

32.2. Qaçqın və ya məcburi köçkün uşaqların hüquqi statusu "Qaçqın və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

32.3. Məcburi köçkün statusu almış uşaqların sosial müdafiəsi "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 33. Uşaqlara hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin həyata keçirilməsində və müdafiəsində kömək göstərilməsi**

Dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları, onların vəzifəli şəxsləri uşaqların yaşını və mülki qanunvericiliklə müəyyən edilmiş hədlərdə fəaliyyət qabiliyyətini nəzərə alaraq uşaqların hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin həyata keçirilməsində və müdafiəsində onlara kömək göstərirlər.

**Maddə 34. Uşaq müəssisələrində xidmətlər**

Dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xidmətin keyfiyyətinə dair tələblərə uyğun olaraq göstərilir.

**Maddə 35. Uşağın cəmiyyət qarşısında vəzifələri**

Hər bir uşaq Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etməyə, digər şəxslərin hüquq və azadlıqlarına, şərəf və ləyaqətinə, Azərbaycan Respublikasının dövlət rəmzlərinə, öz xalqının ənənələrinə və mədəni sərvətlərinə, həmçinin ümumbəşəri dəyərlərə hörmət etməyə, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumağa, yaşadığı, işlədiyi və təhsil aldığı yerdə davranış normalarına riayət etməyə borcludur.

**4-cü fəsil**

**UŞAQ VƏ AİLƏ**

**Maddə 36. Uşağın ailədə yaşamaq hüququ**

Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunla müəyyən edilmiş hallardan başqa valideynlərin iradəsinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır.

**Maddə 37. Valideynlərindən ayrı yaşayan uşağın hüququ**

Valideynlərinin hər ikisindən və ya birindən ayrı yaşayan uşağın onları tanımaq, habelə onun maraqlarına zidd olan hallar istisna olmaqla, valideynləri ilə ünsiyyətdə olmaq hüququ vardır.

**Maddə 38. Valideynlərin və onları əvəz edən şəxslərin hüquq və vəzifələri**

38.1. Valideynlər öz uşaqları barədə bərabər hüquq və vəzifələrə malikdirlər.

38.2. Valideynlər və onları əvəz edən şəxslər uşaqların tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki və mənəvi inkişafına cavabdehdirlər. Valideynlər və onları əvəz edən şəxslər uşağı sağlam böyütməli, milli və ümumbəşəri dəyərlər əsasında tərbiyə etməli və müstəqil həyata hazırlamalıdırlar. Uşağın maddi və mənəvi tələbatının təmin edilməsi, hüquq və qanuni mənafelərinin mühafizəsi valideynlərin və onları əvəz edən şəxslərin əsas vəzifələridir.

38.3. Valideynlər və onları əvəz edən şəxslər uşaq barəsində onun üstün mənafeyinə zidd olmayan tərbiyəvi tədbirlər görür və uşağı zərərli informasiyadan qoruyurlar.

38.4. Valideynlər və onları əvəz edən şəxslər tərəfindən uşaqlara qarşı zorakılığın tətbiqi yolverilməzdir.

38.5. Valideynlərin və onları əvəz edən şəxslərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının (qurumlarının) müdaxiləsinə yalnız qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilir.

38.6. Uşaqların erkən evliliyə daxil olmağa məcbur edilməsi, bu barədə valideynlərvə onları əvəz edən şəxslər arasında qabaqcadan hər hansı sövdələşmənin aparılması, habelə erkən evliliklə bağlı mərasimlərin təşkil olunması və uşaqlar barədə dini kəbinkəsmə (dini nikah) qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

38.7. Uşaqların vurduğu maddi ziyana görə onların valideynləri (onları əvəz edən şəxslər) Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 39. Uşağın mənzil hüququ**

39.1. Hər bir uşağın mənzil hüququ vardır və o, yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz.

39.2. Uşaqların yaşadıqları mənzil sahəsinə valideynləri və ailənin digər üzvləri ilə bərabər hüquqları vardır.

**Maddə 40. Uşağın vərəsəlik və valideynlərinin (övladlığa götürənlərinin) əmlakı hesabına saxlanma hüququ**

Hər bir uşağın valideynlərinin (övladlığa götürənlərinin) əmlakına dair vərəsəlik, məhkəmənin qərarı ilə valideynlərdən (övladlığa götürənlərdən) hər ikisi və ya biri xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə isə onların əmlakı hesabına saxlanmaq hüququ vardır.

**5-ci fəsil**

**UŞAQ VƏ CƏMİYYƏT**

**Maddə 41. Uşağın sosial mühitin mənfi təsirindən qorunması**

41.1. Dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər uşağı sosial mühitin mənfi təsirindən qorumağa borcludurlar.

41.2. Uşaqlara qarşı zorakılığın törədilməsi, onların cinayət və ya digər qanunsuz fəaliyyətə cəlb edilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

41.3. Dövlət cinayət, zorakılıq və ya digər qanunazidd davranış nəticəsində zərər çəkmiş uşağa sağlamlığının bərpası və sosial reabilitasiyası üçün zəruri yardım göstərir.

41.4. Yardıma ehtiyacı olan uşaq barədə məlumatı olan fiziki və hüquqi şəxslər bu barədə hüquq mühafizə orqanlarına, fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqlara xidmət göstərən və onların hüquqlarını müdafiə edən dövlət orqanlarına (qurumlarına) məlumat verməyə borcludurlar.

**Maddə 42. Uşağın alkoqollu və energetik içkilərin, tütün məmulatlarının zərərli təsirindən qorunması**

42.1. Valideynlərvə onları əvəz edən şəxslər, dövlət orqanları (qurumları), habelə uşağın təlim-tərbiyəsi ilə bağlı funksiyaları həyata keçirən təşkilatlar sağlam həyat tərzini, alkoqollu və energetik içkilərin, tütün məmulatlarının zərərlərini təbliğ etməyə borcludurlar.

42.2. Uşağa alkoqollu və energetik içkilərin, tütün və tütün məmulatlarının satılması qadağandır.

**Maddə 43. Uşaqların sağlamlığına və inkişafına zərər vuran məlumatlardan qorunması**

43.1. İrqi, milli, sosial və dini ədavəti qızışdırmağa yönəlmiş, müharibəni, terrorçuluğu təbliğ edən, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorakılıqla dəyişdirilməsinə və ərazi bütövlüyünün pozulmasına çağırışları ehtiva edən oyunları və informasiya məhsullarını, uşaqların sağlamlığına və inkişafına zərər vuran, habelə uşağın mənəvi və əxlaqi inkişafına başqa şəkildə mənfi təsir göstərən pornoqrafik materialları uşaqlar üçün nümayiş etdirmək, satmaq, bağışlamaq, çoxaltmaq, icarəyə vermək və yaymaq qadağandır.

43.2. Uşaqların sağlamlığına və inkişafına zərər vuran informasiyadan qorunması "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

43.3. Uşağın onun sağlamlığına və inkişafına zərər vuran çap nəşrlərini, kino və ya videomaterialları, şəkilləri, digər əşyaları, pornoqrafik xarakterli və (və ya) erotik məzmunlu materialları yaymaq və ya reklam etmək məqsədilə onların hazırlanmasına, əldə edilməsinə və ya saxlanmasına cəlb edilməsi qadağandır.

**Maddə 44. Uşağın insan alverindən, uşaq pornoqrafiyasının dövriyyəsindən, əxlaqsız əməllərdən və seksual xarakterli məqsədlərlə təqibdən qorunması**

Uşaq alveri, uşaq pornoqrafiyasının dövriyyəsi, uşağın əxlaqsız əməllərə cəlb edilməsi və seksual xarakterli məqsədlərlə təqib edilməsi qadağandır.

**Maddə 45. Uşaqların avaralıqla və ya dilənçiliklə məşğul olmağa cəlb edilmədən qorunması**

45.1. Uşaqların avaralıqla və ya dilənçiliklə məşğul olmağa cəlb edilməsi qadağandır.

45.2. Valideynlər və onları əvəz edən şəxslər tərəfindən uşaqların avaralıqla və ya dilənçiliklə məşğul olmağa cəlb edilməsi valideynlik hüquqlarından sui-istifadə hesab olunur.

45.3. Avaralıqla və dilənçiliklə məşğul olmağa cəlb edilmiş uşaqların hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin qorunması, onların sosial reabilitasiyası "Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 46. Uşaqların hərbi əməliyyatlarda iştirakının qadağan edilməsi**

46.1. Uşaqların hərbi əməliyyatlara cəlb edilməsi qadağandır.

46.2. Uşaqların xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul edilməsi qaydaları Azərbaycan Respublikasının təhsil haqqında qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 47. Uşağın bir yerdən başqa yerə qanunsuz köçürülmədən qorunması**

Dövlət məqsədlərindən, formalarından və üsullarından asılı olmayaraq, uşaqların oğurlanmasının, alverinin və qanunsuz olaraq yerdəyişməsinin (o cümlədən daimi yaşayış ölkəsinə qaytarılmasının) qarşısını alır.

**Maddə 48. Uşaqların zərərli reklamdan müdafiəsi**

Dövlət uşaqları mənəvi və fiziki baxımdan zərərli olan reklamlardan müdafiə edir. Uşaqların zərərli reklamdan müdafiəsinin əsas prinsipləri və reklama dair tələblər "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

**6-cı fəsil**

**ÇƏTİN HƏYAT ŞƏRAİTİNDƏ OLAN UŞAQLARIN MÜDAFİƏSİ VƏ HÜQUQLARI**

**Maddə 49. Uşaqların çətin həyat şəraitinə düşməsinin qarşısının alınması üzrə profilaktik tədbirlər**

49.1. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətini həyata keçirən orqanlar (qurumlar), yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları çətin həyat şəraitində olan uşaqlarla və onların ailələri ilə profilaktik iş aparırlar və onlara yardım göstərirlər.

49.2. Uşaqların çətin həyat şəraitinə düşməsinin qarşısının alınması üzrə profilaktik tədbirlərə ailələrə sosial dəstəyin göstərilməsi, valideynlik vərdişlərinin inkişafı, uşaq baxımsızlığının və hüquq pozuntularının profilaktikası üzrə tədbirlərin həyata keçirilməsi, ailə dəyərlərini, uşaq hüquqlarını, onların əxlaqi və mənəvi tərbiyəsini təbliğ edən fəaliyyətin həyata keçirilməsi üzrə tədbirlər və xidmətlər sistemi daxildir.

**Maddə 50. Çətin həyat şəraitində olan uşaqların aşkarlanması və onların sosial müdafiəsi**

50.1. Dövlət çətin həyat şəraitində olan uşaqların aşkarlanması və onların sosial müdafiəsi üzrə mexanizmlər müəyyən edir.

50.2. Valideyn himayəsindən məhrum olan uşaqların aşkarlanması və sosial xidmət müəssisələrinə yerləşdirilməsi Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

50.3. Çətin həyat şəraitində olan uşaqlar (valideyn himayəsindən məhrum olan uşaqlar istisna olmaqla) barədə məlumata malik olan dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, hüquqi və ya fiziki şəxslər belə məlumatları onların aşkar edildiyi ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya təqdim etməlidirlər. Uşağın yaşayış yeri onun aşkar edildiyi ərazi olmadıqda uşağın aşkar edildiyi ərazi üzrə uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiya uşaqla işin aparılması üçün məlumatları uşağın faktiki yaşayış yeri üzrə müvafiq komissiyaya göndərir. Uşağın yaşayış yeri məlum olmadıqda onunla iş aşkar edildiyi ərazi üzrəuşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiya tərəfindən həyata keçirilir.

50.4.Uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiya uşaq barədə məlumat daxil olduqda dərhal onun yaşayış yerinə və ya olduğu yerə gedilməsini, uşağın vəziyyətinin (sağlamlıq vəziyyəti, psixoloji vəziyyəti, əlilliyi müəyyən edilmiş uşağa xüsusi qayğının mövcud olub-olmaması, uşağa qarşı zorakılıq hallarının mövcud olub-olmaması və yaşayış şəraiti) ilkin müayinəsinin keçirilməsini və təcili və təxirəsalınmaz tədbirlərin görülməsini təşkil edir.

50.5. Aşkarlanmış uşağa münasibətdə icra olunmalı təcili və təxirəsalınmaz tədbirlərə aşağıdakılar aiddir:

50.5.1. ilkin tibbi və (və ya) psixoloji yardımın göstərilməsi;

50.5.2. uşağın sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduqda uşağın valideynlərdən (onları əvəz edən şəxslərdən) alınması ilə bağlı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulmuş tədbirlərin görülməsi;

50.5.3. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 10.3-cü maddəsinə uyğun olaraq məlumatın göndərilməsi.

50.6. Valideyninin və digər qanuni nümayəndəsinin müşayiəti olmadan xarici ölkədə aşkar edilmiş, çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası üzrə tədbirlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

50.7. Çətin həyat şəraitində olan uşağın fərdi məlumatlarının toplanması, işlənməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 51. Əlilliyi olan uşaqların hüquqları**

51.1. Əlilliyi olan uşaqlar digər uşaqlarla bərabər hüquqlara malikdirlər. Dövlət əlilliyi olan uşaqların reabilitasiyasını, yaşadığı yerdə layiqli həyat sürməsi üçün təhsil, iş və digər sosial mühit və infrastrukturun müyəssərliyini, onlara uyğun məşğulluğun, eləcə də digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına şərait yaradılmasını təmin edir.

51.2. Əlilliyi olan uşaqlara qarşı ayrı-seçkilik qadağandır və qanunla təqib edilir. Əlilliyi olan uşaqların bərabərliyinin təmin edilməsi məqsədilə həyata keçirilən xüsusi tədbirlər ayrı-seçkilik hesab edilmir.

**Maddə 52. Valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqları**

Dövlət valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsini təmin edir, onların təhsil, tibbi xidmət, əmlak və yaşayış sahəsi, habelə əmək hüquqları üzrə təminatlarına dair mexanizmlər müəyyən edir.

**Maddə 53. Baxımsız, kimsəsiz və ya sosial təhlükəli vəziyyətdə olan uşaqların hüquqları**

53.1. Dövlət baxımsız, kimsəsiz və ya sosial təhlükəli vəziyyətdə olan uşaqların hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin qorunmasını, sosial reabilitasiyasını və bu məqsədlə sosial xidmət müəssisələrinin yaradılmasını təmin edir.

53.2. Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar, əhalinin sosial müdafiəsi, təhsil, daxili işlər orqanları, tibb müəssisələri, habelə gənclərin işləri üzrə orqanlar"Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada hüquq pozuntusunu törətmiş uşağın sosial reabilitasiyasını təmin etməlidirlər.

**Maddə 54. Çətin həyat şəraitində olan uşaqlara sosial xidmət müəssisələrində xidmət göstərilməsi ilə bağlı tələblər**

54.1. Çətin həyat şəraitində olan uşaqlara sosial xidmət müəssisələrində göstərilən xidmət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi dövlət və qeyri-dövlət uşaq müəssisələrində xidmətin keyfiyyətinə dair tələblərə uyğun həyata keçirilir.

54.2. Xidmətlər göstərilərkən uşağa münasibətdə zorakılığı nəzərdə tutan tədbirlərin və metodların tətbiqi, onun valideynləri (onları əvəz edən şəxslər), digər ailə üzvləri və ya ətraf mühitlə əlaqəsinin məhdudlaşdırılması qadağandır.

**7-ci fəsil**

**UŞAQLAR BARƏSİNDƏ İCRAATIN ƏSASLARI**

**Maddə 55. Uşaqlar barəsində icraatın əsas prinsipləri**

55.1. Uşaqlar barəsində icraat uşağın iştirakı, onun təhlükəsizliyinin təmin olunması, uşaq hüquqlarına və azadlıqlarına hörmət edilməsi və onların səmərəli şəkildə həyata keçirilməsi, uşaqların mənafelərinin üstünlüyü, uşağın ləyaqətinə hörmət edilməsi, qeyri-bərabər rəftarın yolverilməzliyi və qanunun aliliyi prinsiplərinə əsaslanır.

55.2. Uşağın iştirakı ilə və ya ona aid hər hansı məsələ ilə bağlı icraat uşağın psixoloji, sosial, emosional və fiziki sağlamlığının qiymətləndirilməsi və onun üstün mənafelərinin müəyyən edilməsi məqsədilə hərtərəfli yanaşmadan istifadə etməklə həyata keçirilir.

55.3. Uşaqlar barəsində icraatın onların üstün mənafeləri nəzərə alınmaqla həyata keçirilməsinə dövlət təminat verir.

55.4. Uşaqlar barəsində icraatın bütün mərhələlərində uşağın fərdi məlumatlarının toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

55.5. Uşaqlar barəsində icraat Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən olunmuş qaydalara uyğun həyata keçirilir.

**Maddə 56. Uşaqlar barəsində icraatın həyata keçirilməsi ilə bağlı prosessual təminatlar**

56.1. Uşağın Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bilavasitə, qanuni nümayəndəsi (həmin şəxslərin uşağa qarşı hüquq pozuntusu törətməsinə şübhə olduğu hallar istisna olmaqla) və ya nümayəndəsi vasitəsilə öz hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin müdafiəsi ilə bağlı inzibati orqana, polis, prokurorluq orqanlarına və ya məhkəməyə müraciət etmək, habelə onların hərəkətindən (hərəkətsizliyindən) və qərarlarından şikayət etmək hüququ vardır.

56.2. Polis və prokurorluq orqanları cinayət törətmiş, cinayətin qurbanı olmuş, valideynin və ya ailəni dolandıran şəxsin həbs olunması, habelə cinayət prosesini həyata keçirən orqanın digər hərəkətləri və hərəkətsizliyi nəticəsində nəzarətsiz, baxımsız qalmış və həyat üçün zəruri vəsaitlərdən məhrum olmuş uşaqların hüquq və azadlıqlarının, habelə qanuni mənafelərinin müdafiəsi üçün tədbirlər görür.

56.3. Uşaqlar barəsində icraatın bütün mərhələlərində prosedurların uşaq üçün aydın və əlçatan olması təmin edilir.

56.4. Uşaq özünün və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz.

56.5. Cinayət törətməkdə təqsirləndirilən uşağın barəsində cinayət təqibi həyata keçirilərkən cinayət prosesini həyata keçirən orqanlar tərəfindən həbsə alternativ qətimkan tədbirlərinin tətbiq edilməsinə üstünlük verilməli və Azərbaycan Respublikasının cinayət prosessual qanunvericiliyində müəyyən edilmiş qaydada uşağın hüquq və azadlıqlarının təmin edilməsinin əsas prosessual təminatlarına riayət edilməlidir. Uşaqlar yaşına, cinsiyyətinə və şəxsiyyətinin xüsusiyyətlərinə görə tələb olunan qulluq, müdafiə və digər fərdi yardımla təmin edilirlər.

**Maddə 57. Uşaqlar barəsində icraatı həyata keçirən şəxslər**

Uşaqlar barəsində və ya onların cəlb olunduğu işlər üzrə icraatı həyata keçirən şəxslər uşaq hüquqları barədə biliklərə və uşaqlarla iş üzrə bacarıqlara malik olmalıdırlar.

**Maddə 58. Uşaqlar barəsində icraat zamanı uşağın öz fikrini ifadə etmə hüququ**

58.1. Uşaqlar barəsində icraat zamanı qanunla müəyyən edilmiş qaydada uşağın işlə bağlı öz fikrini ifadə etmək hüququ vardır.

58.2. Uşağa, o cümlədən əlilliyi olan uşağa öz fikrini ifadə etməsi üçün uyğun şərait yaradılır.

58.3. Uşağın fikrinin öyrənilməsi prosesi informativ, uşağa hörmət əsasında, təhlükəsiz və uşaq məsələləri sahəsində hazırlıqlı mütəxəssis tərəfindən istiqamətləndirilən olmalıdır.

**Maddə 59. Uşağın hüquqi yardım almaq hüququ**

59.1.Uşağın yaşı, fərdi xüsusiyyətləri və ehtiyacları nəzərə alınmaqla, qanunla nəzərdə tutulmuş hallarda və qaydada onun başa düşəcəyi dildə və formada dövlət büdcəsinin vəsaiti hesabına yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

59.2. Uşaqlar barəsində icraat zamanı uşaqlara hüquqi yardım göstərən vəkil uşaq hüquqları və uşaqyönümlü hüquqi yardım barədə biliklərə malik olmalıdır.

**Maddə 60. Uşağın təmsil olunmaq hüququ**

Uşaqların onlar barəsində icraatda qanunla müəyyən edilmiş qaydada bilavasitə,qanuni nümayəndə və ya nümayəndə vasitəsilə iştirak etmək hüququ vardır.

**Maddə 61. Uşaq hüquqları ilə bağlı qəbul edilən qərarlar**

61.1. Uşağın hüquqları ilə bağlı qərar qəbul edilərkən aşağıdakılar nəzərə alınmaqla uşağa humanist mövqedən yanaşılmalıdır:

61.1.1. uşağın təhlükəsizliyi;

61.1.2. uşağın təhsil, səhiyyə xidmətlərinə və sosial müdafiə tədbirlərinə maneəsiz çıxış imkanının olması;

61.1.3. uşağa qarşı istənilən zorakılığın, təhqirin və təhdidin qarşısının alınması;

61.1.4. uşağın hərtərəfli inkişafına, fərdi imkanlarına və maraqlarına dəstək göstərilməsi, onun şəxsiyyətinə hörmət edilməsi;

61.1.5. qanunla müəyyən edilmiş qaydada uşağın fikri;

61.1.6. uşaqla valideynləri (onları əvəz edən şəxslər) arasında münasibət;

61.1.7. uşağın hər iki valideynlə ünsiyyətinin saxlanılması və ya bərpası;

61.1.8. uşağın fikrinə zidd qəbul edilmiş qərarın, onun icrası prosesində uşağa mənfi təsirlərinin qarşısının alınması üzrə tədbirlərin əvvəlcədən müəyyən edilməsi.

**8-ci fəsil**

**YEKUN MÜDDƏALAR**

**Maddə 62. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 63. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun qüvvəyə mindiyi gündən "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 1998-ci il 19 may tarixli 499-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484 (Cild I); 2024, № 5(I kitab), maddə 503, № 12 (II kitab), maddə 1335; 2025, № 4 (I kitab), maddə 322,№ 6, maddə 523) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

# "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 371-VIIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanında və "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamında dəyişiklik edilməsi və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 371-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci və 8.2-ci maddələrində, 8.3-cü maddəsinin üçüncü cümləsində, 8.4-cü, 9.3-cü, 31.2-ci, 34-cü, 50.2-ci, 50.6-cı və 54.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 50.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 8.4-cü, 31.2-ci, 34-cü və54.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 7.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və fəaliyyət istiqamətlərinə uyğun olaraq digər dövlət orqanları (qurumları) nəzərdə tutulur;

1.5. həmin Qanunun 8.2-ci və 9.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nəzərdə tutulur;

1.6. həmin Qanunun 8.3-cü maddəsinin üçüncü cümləsində "orqan (qurum)"dedikdə, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Audiovizual Şurası və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 50.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 8.3-cü maddəsinin üçüncü cümləsi nəzərə alınmaqla, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti sahəsində prokurorun funksiyalarının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dəyişiklik edilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2.həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəliFərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21, № 4, maddə 393, № 6 (I kitab), maddə 667, №12 (ll kitab), maddə 1370; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1036; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1-ci hissə üzrə:

3.1.1.1.3-cü bəndə "Komitəsi," sözündən sonra "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi," sözləri, "Agentliyi," sözündən sonra "Azərbaycan Respublikasının Audiovizual Şurası," sözləri əlavə olunsun və həmin bənddə "və qəyyumluq və himayəçilik orqanları" sözləri ",qəyyumluq və himayəçilik orqanları və qanunla müəyyən edilmiş hallarda prokuror" sözləri ilə əvəz edilsin;

3.1.2. aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.";

3.2. aşağıdakı məzmunda 2.1-1-ci və 2.6-1-ci bəndlər əlavə edilsin:

"2.1-1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

2.1-1.1. fəaliyyət istiqamətlərinə uyğun olaraq, uşaq hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin edir və onların pozulmasının qarşısını alır;

2.1-1.2. yetkinlik yaşına çatmayan məhkumların tərbiyə müəssisələrində cəza çəkmələrini təmin edir;

2.1-1.3. uşaq hüquqları ilə bağlı məhkəmə qərarlarının icrasını təmin edir;

2.1-1.4. uşaqlar barəsində probasiya nəzarətini həyata keçirir.";

"2.6-1. Azərbaycan Respublikasının Audiovizual Şurası:

2.6-1.1. televiziya və radio yayımı sahəsində uşaqların zərərli informasiyadan qorunmasına dövlət nəzarətini həyata keçirir.";

3.3. 6.5-ci bəndə aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Monitorinqlərin keçirilməsi barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) məlumat verilir. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) nümayəndələri monitorinqlərin keçirilməsində iştirak edə bilərlər.".

4. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 723 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1036; 2026, № 1, maddə 24) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın 2-ci hissəsinin doqquzuncu abzasının dördüncü cümləsində (ikinci halda), 4.3.12-ci və 4.5.6-cı yarımbəndlərində "nikah" sözü "evlilik" sözü ilə əvəz edilsin.

5. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 511 (Cild I); 2024, №12 (ll kitab), maddə 1368; 2025, № 2, maddə 125, № 6, maddə 542; 2026, № 1, maddə 24) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2026-cı il*

# Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda Qadın Parlamentarilər Forumunda çıxış edib




**Parlamentlərarası İttifaqın Türkiyənin İstanbul şəhərində keçirilən 152-ci Assambleyası çərçivəsində 41-ci Qadın Parlamentarilər Forumu keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə forumun sədri Sintia Lopez çıxış edərək, Milli Məclisin Sədri Sahibə Qafarovanı və tədbirdə iştirak edən digər parlament spikerlərini salamlayıb, forumda iştiraklarına görə onlara təşəkkürünü bildirib.

Sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson, Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq çıxış edərək forumun əhəmiyyətini vurğulayıblar və tədbirin işinə uğurlar arzulayıblar.

Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edərək, Qadın Parlament Sədrlərinin 2025-ci ildə keçirilmiş 15-ci Zirvə Toplantısının hesabatını təqdim edib. Azərbaycan parlamentinin spikeri bildirib ki, bu təqdimat münaqişələrin, gərginliklərin, qeyri-müəyyənliklərin və artan bərabərsizliklərin hökm sürdüyü bir dövrdə xüsusilə böyük əhəmiyyət daşıyır. Onun sözlərinə görə, parlamentarilər mövcud problemlərin həllinin bir hissəsi olmalıdır, çünki bu gün dünya sülhün təmin olunması üçün dialoqun və inklüzivliyin gücünə ehtiyac duyur.

Spiker qeyd edib ki, təqdim olunan hesabat qadın parlament sədrləri tərəfindən qəbul olunmuş bəyannamədir. O vurğulayıb ki, sənəd parlamentləri bir araya gətirməyə, sülh, həmrəylik və inklüzivlik naminə birgə fəaliyyətə çağırır.

Sahibə Qafarova bildirib ki, fəaliyyət üçün çağırışlar heç də həmişə sabit və dinc dövrlərdə ortaya çıxmır, əksinə, daha çox böhran, münaqişə və geriləmə dövrlərində yaranır. Onun sözlərinə görə, dünyanın bir çox regionunda zorakılığın, müharibənin və təhlükəsizlik problemlərinin qadınlara və qızlara, onların gələcəyinə göstərdiyi ağır təsirlər gender bərabərliyi, qadınların və qızların müdafiəsi sahəsində səylərin daha da gücləndirilməsini və sürətləndirilməsini zəruri edir. O, sənəddə dünya üzrə mövcud vəziyyətlə bağlı dərin narahatlığın, münaqişə və müharibə bölgələrində yaşayan qadın və qızlarla həmrəyliyin ifadə olunduğunu diqqətə çatdıraraq, forum iştirakçılarını bu həmrəyliyi bölüşməyə çağırıb.

Eyni zamanda hesabatda beynəlxalq humanitar hüquqa və insan hüquqlarına tam hörmət göstərilməsi, münaqişələrin sülh yolu ilə danışıqlar vasitəsilə həlli ilə bağlı çağırışlar, eləcə də gender bərabərliyini nəzərə alan diplomatiyanın inkişaf etdirilməsinə, inklüziv sülh proseslərinin təşviqinə, qadınların diplomatiya və xarici siyasətdə liderlik rolunun artırılmasına dair tövsiyələr yer alıb.

Milli Məclisin Sədri, bu forumda ədalətli və uzunmüddətli sülhün bərpa olunmasının, münaqişələrin qadın və qızlara təsirlərinin müzakirə olunacağını nəzərə alaraq, forum iştirakçılarını qadın spikerlər tərəfindən irəli sürülən tövsiyələri bu müzakirələrə daxil etməyə çağırıb.

Daha sonra forum digər parlament sədrlərinin və parlamentarilərin çıxışları və mövzu ətrafında aparılan müzakirələrlə davam edib.

*"Azərbaycan"*

# Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransı keçirilib






**Türkiyənin İstanbul şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci konfransı keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, 50-yə yaxın ölkədən və beynəlxalq təşkilatdan olan nümayəndə heyətlərindən 130-a yaxın nümayəndənin iştirak etdiyi konfrans "Qoşulmama Hərəkatı regionunda iqlimə davamlı urbanizasiyanın təmin edilməsində parlamentlərin rolu" mövzusuna həsr edilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Milli Məclisinin və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Sədri Sahibə Qafarova konfrans iştirakçılarını salamlayaraq, 1961-ci ilin sentyabrında Belqradda keçirilmiş Birinci Zirvə Konfransında Qoşulmama Hərəkatının yaradılmasının bu il 65-ci ildönümünün qeyd olunduğunu xatırladıb. Onun sözlərinə görə, 65 il keçməsinə baxmayaraq, həmin ilk konfransın dünyada sülhə və təhlükəsizliyə daha effektiv töhfə vermək, xalqlar arasında sülh və əməkdaşlığı təşviq etmək kimi məqsədləri öz aktuallığını itirməyib. Sahibə Qafarova deyib ki, geosiyasi gərginliklər, silahlı münaqişələr, iqtisadi bərabərsizliklər, iqlim dəyişikliyi və digər mürəkkəb qlobal problemlər kimi ciddi çağırışlar bu problemlərlə mübarizə aparmaq üçün birlikdə hərəkət etməyi tələb edir. Bu gün siyasi müzakirələrin əsasən bu məsələlərin həllinə yönəldiyi bir vaxtda, Qoşulmama Hərəkatının əsas prinsipləri və məqsədləri irəliyə doğru addımlamaq üçün əvəzsiz istiqamət göstərir.

Milli Məclisin Sədri hazırda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə parlament nümayəndələri və tərəfdaş təşkilatlar tərəfindən göstərilən böyük maraqdan məmnunluğunu ifadə edərək, üzv parlament nümayəndələrinin Şəbəkənin fəaliyyətində fəal iştirakının yalnız parlamentarilərin öz hökumətlərinin səylərini tamamlamağa olan qətiyyətini deyil, eyni zamanda Hərəkatın məqsədlərinin həyata keçirilməsində rolunun artdığını da nümayiş etdirdiyini vurğulayıb. Onun sözlərinə görə, Parlament Şəbəkəsi çərçivəsində aparılan dialoq və birgə səylər parlament vasitələri ilə sülhə, sabitliyə, inkişafa və rifaha nail olmaq öhdəliyinin sübutudur. Spiker Sahibə Qafarova bu kontekstdə Parlament Şəbəkəsinin institusional mexanizmlərinin və təşkilati strukturunun daha da inkişaf etdirilməsinin və gücləndirilməsinin xüsusi əhəmiyyətinə diqqət çəkib və inamını ifadə edib ki, bu konfransda aparılan müzakirələr və qəbul olunacaq qərarlar onun bütün potensialını üzə çıxarmağa imkan yaradacaq.

Çıxışda qeyd olunub ki, 2025-ci ilin aprel ayında Daşkənddə keçirilmiş son konfransdan keçən dövrdə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi fəaliyyət dairəsini və beynəlxalq rolunu genişləndirməyə davam edib. Sahibə Qafarova özünün Parlament Şəbəkəsinin Sədri kimi xarici səfərləri, görüşləri və beynəlxalq konfranslardakı çıxışları zamanı təşkilatın rolunun və fəaliyyətinin təşviqini daim prioritet hesab etdiyini və Şəbəkənin mühüm rolunu xüsusi vurğuladığını xatırladıb. Bildirilib ki, 2025-ci ilin aprelindən bu günədək üzv ölkələrin parlament rəhbərləri və hökumət rəsmiləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələri ilə təxminən 35 görüş keçirilib. Bu görüşlərdə platformanın effektivliyinin daha da artırılması və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi məsələlərinə diqqət yetirilib.

Parlament Şəbəkəsinin beşinci konfransının mövzusunun aktuallığını qeyd edən Milli Məclisin Sədri bildirib ki, bu gün dünyada təxminən 3 milyard insan qeyri-qənaətbəxş mənzil şəraitində yaşayır ki, onlardan 1,1 milyarddan çoxu qeyri-rəsmi yaşayış yerlərində məskunlaşıb, 300 milyondan çox insan isə evsizlik problemi ilə üzləşib. Onun sözlərinə görə, qlobal mənzil böhranı sürətlə dərinləşməkdə davam edir, bu isə bütün regionlara, xüsusilə inkişaf etməkdə olan ölkələrə təsir göstərir, eyni zamanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərini zəiflədir.

Çıxışında Sahibə Qafarova Azərbaycanın evsahibliyi ilə keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası haqqında da mıəlumat verib. Bildirilib ki, cari ilin may ayında Bakı şəhərində keçiriləcək sessiya "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunacaq. Bu forum sürətli urbanizasiya ilə bağlı problemlərin həlli və bunun şəhərlərə, milli iqtisadiyyatlara və iqlim dəyişikliyinə təsirinin qiymətləndirilməsi məqsədilə yaradılmış yüksəksəviyyəli beynəlxalq platformadır. COP29-a uğurla evsahibliyi etdikdən sonra bu qlobal tədbir Azərbaycanın ümumi çağırışlar qarşısında birgə səyləri birləşdirmək bacarığına göstərilən etimadın növbəti təzahürüdür. 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edildiyini xatırladan Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan şəhərsalma sahəsində zəngin təcrübəyə malikdir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə əvvəllər işğal altında olmuş və tamamilə dağıdılmış Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və bərpa layihələrini həyata keçirir. Həmin ərazilərdə yeni yaşayış məntəqələri, nəqliyyat, enerji və iqtisadi infrastruktur qabaqcıl şəhərsalma prinsipləri əsasında qurulur və burada "yaşıl enerji zonası", "ağıllı şəhər" və "sıfır tullantı" kimi innovativ konsepsiyalar tətbiq olunur. Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı ilə tərəfdaşlıq çərçivəsində təşkil olunmuş üç milli şəhər forumu təcrübə və yeni təşəbbüslərin paylaşılması üçün mühüm platforma rolunu oynayıb və bu sahədə əməkdaşlığın gücləndirilməsinə töhfə verib.

Qeyd olunub ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası Yeni Şəhər Gündəliyinin icrasının aralıq qiymətləndirilməsi olacaq. Bu tədbirdə son onilliyə nəzər salınacaq və 2036-cı ilə qədər prioritetlər müəyyənləşdiriləcək. Spiker Sahibə Qafarova bütün üzvləri forumun gündəliyində fəal iştirak etməyə və sürətli urbanizasiya ilə bağlı problemlərin həllində onun nəticələrini diqqətlə nəzərdən keçirməyə çağırıb. Milli Məclisin Sədri vurğulayıb ki, kompleks yanaşmanı tətbiq etməklə və mövcud ən yaxşı təcrübələrdən faydalanaraq, parlamentarilər effektiv həllərin formalaşdırılmasına və milli hökumətlər tərəfindən həyata keçirilən tədbirlərə dəstək göstərməklə mühüm töhfə verə bilər. Bu kontekstdə sədr, gələcəyin şəhərlərinin inklüziv, dayanıqlı olması və ən əsası, hər bir vətəndaş üçün layiqli yaşayış şəraitinin təmin olunması üçün birgə fəaliyyətə çağırış edib.

Çıxışının sonunda spiker Sahibə Qafarova bir daha əminliyini ifadə edib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi öz fəaliyyəti vasitəsilə parlamentlərarası əməkdaşlığın inkişafında, ümumi dəyərlərin təşviqində, dialoqun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində mühüm rol oynamaqda davam edəcək.

Sonra konfransda Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, Parlamentlərarası İttifaqın Prezidenti Tulia Akson, İttifaqın baş katibi Martin Çunkonq, Özbəkistan Respubliaksı Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Əlcəzair Milli Xalq Assambleyasının Sədri İbrahim Bouğali, Misir Ərəb Respublikası Nümayəndələr Palatasının Sədri Hişam Badavi, Malavi Milli Assambleyasının Sədri Samir Suleman, Maldiv Xalq Məclisinin Sədri Abdul Rahim Abdulla, Mərakeş Müşavirlər Palatasının Sədri Mohamed Ould Erraşid, Nepal Milli Assambleyanın Sədri Narayan Prasad Dahal, Ərəb Parlamentinin Prezidenti Mohamed Ahmed Alyammahi, Qlobal Tolerantlıq və Sülh Şurasının prezidenti Ahmed Aljarvan, Türk Dövlətləri Parlament Assambleyasının baş katibi Ramil Həsən, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının baş katibi Çem Vidhya, Liviya Nümayəndələr Palatasının sədr müavini, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədr müavini Fouzi Salim, Bəhreyn Şura Məclisi sədrinin birinci müavini Camal Məhəmməd Abdulrəhman Faxro, Belarus Milli Assambleyanın Respublika Şurasının Beynəlxalq məsələlər və milli təhlükəsizlik üzrə daimi komissiyasının sədri Sergey Aleynik, Laos Milli Assambleyasının sədr müavini Soutxon Xayaçak, Qambiya Milli Assambleyanın üzvü Kebba Lanq Fofana və digərləri çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Azərbaycan Milli Məclisinin sədrliyi ilə institusional inkişafı və təşkilatın beynəxalq nüfuzunun artırılması istiqamətində görülən işləri yüksək qiymətləndiriblər.

Çıxış edənlər həmçinin konfransın həsr olunduğu "Qoşulmama Hərəkatı regionunda iqlimə davamlı urbanizasiyanın təmin edilməsində parlamentlərin rolu" mövzusunun aktuallığı barədə fikirlərini bölüşüblər, təkliflərini səsləndiriblər. Konfransın sonunda İstanbul Bəyannaməsi qəbul olunub.

Tədbirdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda qərargahının yaradılması və Ərəb Parlamentinə Parlament Şəbəkəsində müşahidəçi statusunun verilməsi haqqında da qərarlar qəbul olunub.

*"Azərbaycan"*

# Azərbaycan və İsveçrə XİN-ləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu olub

**Aprelin 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının dövlət katibinin müavini, Federal Xarici İşlər Departamentinin Avrasiya şöbəsinin rəhbəri Pier-İv Fuksla görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, enerji, nəqliyyat və digər qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq məsələlərini, beynəlxalq təşkilatlar və platformalar çərçivəsində aparılan işləri, İsveçrənin ATƏT-in fəaliyyətdə olan sədrliyi üzrə planları nəzərdən keçiriblər.

Bununla yanaşı, regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın irəlilətdiyi sülh gündəliyi, həyata keçirdiyi bərpa və quruculuq işləri, eləcə də minasızlaşdırma fəaliyyəti müzakirə olunub.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Eyni gündə, Azərbaycan və İsveçrə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Fariz Rzayev, İsveçrə tərəfindən isə dövlət katibinin müavini Pier-İv Fuks rəhbərlik edib.

# Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin mövcud vəziyyəti nəzərdən keçirilib

**Aprelin 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rumıniyanın xarici işlər naziri Oana-Silvia Toiu arasında telefon danışığı baş tutub.**





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı tərəflər Azərbaycan ilə Rumıniya arasında ikitərəfli və çoxtərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə ediblər.

Bu çərçivədə enerji, nəqliyyat və kommunikasiya sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanın iştirakı ilə həyata keçirilən strateji layihələrin əhəmiyyəti vurğulanıb.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə toxunaraq, əməkdaşlığın möhkəmləndirilməsinin, təhlükəsizliyin və sabitliyin əhəmiyyətini qeyd ediblər.

Danışıq zamanı geniş kontekstdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin mövcud vəziyyəti və perspektivləri də nəzərdən keçirilib. Tərəflər bu istiqamətdə dialoq və əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# XİN-də ABŞ Dövlət Departamentinin nümayəndələri ilə Strateji Tərəfdaşlıq Xartiyası müzakirə edilib

**Aprelin 15-də Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ABŞ Dövlət Departamentinin İqtisadi, Enerji və Biznes Məsələləri Bürosunun baş müşaviri Rebekka Neff və Ticarət və İnkişaf Agentliyinin (USTDA) nümayəndələri ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının icrasından irəli gələn məsələlər, o cümlədən enerji və ticarət məsələləri, regional bağlantılar və iqtisadi sərmayə sahələrində əməkdaşlıq müzakirə edilib.

Tərəflər arasında nəqliyyat, rəqəmsallaşma, süni intellekt və sair potensial layihələr, bu istiqamətdə görülən işlər və özəl sektor nümayəndələrinin iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb. Görüş zamanı Azərbaycanın regionun enerji təhlükəsizliyində mühüm rolu, Orta dəhlizdə ticarət marşrutlarının şaxələndirilməsi, habelə Azərbaycanda mövcud əlverişli biznes və investisiya mühiti və yeni əlaqələrin qurulması imkanları nəzərdən keçirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qadınların imkanlarının genişləndirilməsi istiqamətində müzakirələr aparılıb

**Aprelin 15-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvləri Bakıda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Qadınlar Şurasının ilk iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Qadın və kişi bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Çiğdem Erdoğanı Azərbaycan parlamentində görməkdən məmnunluğunu ifadə edib. O, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Qadınlar Şurasının toplantısında müzakirə olunan məsələlərin əhəmiyyətindən, onların həlli istiqamətində ikitərəfli və təşkilat çərçivəsində, eyni zamanda türk dövlətləri arasında əməkdaşlığın önəmindən danışıb. Tədbirin gender bərabərliyinin təmin edilməsi, qadınların ictimai-siyasi həyatda fəal iştirakı, habelə sahibkar qadınların dəstəklənməsi və hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Komitə sədri hər iki ölkədə müxtəlif sahələrdə çalışan qadınlar arasında daha sıx təmaslarının qurulması, öz təcrübələrini bölüşməsi üçün geniş imkanların olduğunu bildirib.

Hicran Hüseynova Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin daim möhkəmləndiyini söyləyib. Dövlətlərimizin və xalqlarımızın həmişə bir-birinin yanında olduğunu deyib. Dövlətlərimiz arasında əlaqələrin güclənməsində parlamentlərin önəmli rolundan danışıb. Qanunvericilik orqanlarında fəaliyyət göstərən ayrı-ayrı komitələr arasında əməkdaşlığın inkişafının önəmini qeyd edib.

Türkiyə Böyük Millət Məclisinin Qadın və kişi bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğan səmimi görüşə və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Rəhbərlik etdiyi komissiyanın fəaliyyəti barədə söhbət açıb. O, Azərbaycanın sədrliyi ilə keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Qadınlar Şurasının tədbirini yüksək qiymətləndirib, faydalı müzakirələrin aparıldığını vurğulayıb. Ölkələrimizin bu kimi beynəlxalq tədbirlərə evsahibliyinin özümüzü daha geniş tanıtmaq, əlaqələrimizi genişləndirmək, əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirmək baxımından önəmli olduğunu söyləyib.

Azərbaycan Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsi ilə Türkiyə Böyük Millət Məclisinin Qadın və kişi bərabərliyi komissiyası arasında əməkdaşlıq protokolunun imzalandığını xatırlayan Çiğdem Erdoğan bu əlaqələrin daha da gücləndirilməsi üçün səylərin artırılmasının, o cümlədən qarşılıqlı səfərlərin, görüşlərin keçirilməsinin vacibliyini ifadə edib.

Çiğdem Erdoğan habelə ölkəsinin qadınların inkişafı və imkanlarının genişlənməsi istiqamətində gördüyü işlərdən bəhs edərək, bir müddət əvvəl rəhbərlik etdiyi komissiyanın təşkilatçılığı ilə Nyu Yorkda Türkevi binasında "Könül birliyindən güc birliyinə: türk dünyası arasında sahibkarlıq ekosistemi" mövzusunda Türkiyə, Azərbaycan və Şimali Kipr qadın sahibkarlarının da iştirakı ilə tədbirin baş tutduğunu diqqətə çatdırıb. O, gələcəkdə belə toplantılara digər türk dövlətlərinin qatılmasının əhəmiyyətindən danışıb.

Söhbət zamanı Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, komitə üzvü Müşfiq Məmmədli, Türkiyə nümayəndə heyətinin üzvü Songül Uzun çıxış edərək Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərinin daha da dərinləşdiyini, parlamentlər arasında əməkdaşlığın genişləndirildiyini söyləyiblər. Qadınlarımız arasında əlaqələrin möhkəmləndirilməsi, qadınların inkişafı və iqtisadi fəallığının artırılmasının vacibliyi barədə fikirlərini bölüşüblər.

Görüşdə Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvləri Günay Ağamalı, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Sevinc Hüseynova, Mehriban Vəliyeva, İlham Məmmədov, Türkiyənin Azərbaycandakı səfirliyinin müşaviri Seyla Sağlık Yavuzer, TBMM nümayəndəsi Yasemin Elibol və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Milli Xalça Muzeyində "Yaddaşa həkk olunan təsvir" adlı fərdi sərgi açılıb










**Azərbaycan Milli Xalça Muzeyində .ART qlobal domeninin dəstəyilə multidisiplinar rəssam Mədinə Qasımovanın "Yaddaşa həkk olunan təsvir" adlı fərdi sərgisi açılıb.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Sərginin açılış mərasimində çıxış edən Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova qeyd edib ki, sərgidə rəssamın son beş ildə yaratdığı 28 əsər nümayiş olunur. "Muzeyin ənənəvi texnologiya şöbəsində rəssamın eskizləri əsasında toxunan beş yeni xalça ekspozisiyanın mühüm hissəsini təşkil edir. Bu əsərlər müasir obrazın tekstildə ifadə imkanlarını nümayiş etdirərək ənənəvi sənət ilə çağdaş incəsənət arasında məzmunlu dialoq yaradır. Sərgi çərçivəsində "Analar üçün çiçəklər" əsərinin dörd təcəssümü - rəngkarlıq, xalça, vitraj və rəqəmsal interpretasiya muzeyin daimi kolleksiyasına daxil ediləcək",- deyə Ə.Məlikova əlavə edib.

Layihə çərçivəsində eyni obrazın müxtəlif formalarda təcəssüm etdiyini vurğulayan direktor deyib: "Obraz rəngkarlıqdan rəqəmsal müstəviyə keçir, daha sonra vitraj, mozaika və ya xalça kimi maddi daşıyıcılarda yeni məna qazanır. Beləliklə, obraz sabit çərçivədə qalmır, transformasiya olunaraq fərqli materiallarda həyatını davam etdirir. Ekspozisiyanın daxili ritmini formalaşdıran təkrarlanan motivlər fəsillərin dəyişməsi, gül kompozisiyaları, qadın və kişi portretləri, Bakının şəhər mənzərələri və abstrakt formalar müxtəlif material və texnikalarda təqdim olunaraq vizual, emosional, immersiv mühit yaradır. Burada xalçatoxuma prosesinin səsyazması əsasında sərgi üçün xüsusi hazırlanmış səs instalyasiyası təqdim olunur".

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, bu sərgi müəllifin zəngin və güclü yaradıcı enerjisindən xəbər verir. "Mədəniyyət Nazirliyi yaradıcı insanlara xüsusi diqqət göstərir, istedadlı gənclərin yaradıcılığının dəstəklənməsi üçün geniş imkanlar yaradır. Gənc rəssamların beynəlxalq səviyyədə tanınmasına şərait yaradılması prioritet məsələdir. Müəllifin fərqli vizual dili, sənətə cəsarətli yanaşması onu yaradıcılıq baxımından seçilən və yenilikçi edir. Əminik ki, sərgi həm yerli, həm də xarici ziyarətçilər üçün yaddaqalan olacaq və müasir incəsənətin inkişafına öz töhfəsini verəcək", - deyə S.Yusifova əlavə edib.

Sərginin kuratoru, Almatı İncəsənət Muzeyinin inkişafı üzrə direktoru, muzeylərdə innovasiya sahəsində ekspert Vladimir Opredelenov söyləyib ki, rəssamın yaradıcılığı ənənələrə söykənərək tarixdən süzülüb gəlir və eyni zamanda müasir texnologiyalarla vəhdət təşkil edir.

Sərgi mayın 15-dək davam edəcək.

# "Akinak" tarixi-bədii filminin premyerası böyük maraqla qarşılanıb












**Aprelin 15-də Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyilə lentə alınan "Akinak" tammetrajlı bədii filminin premyerası keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyilə "Narimanfilm" MMC tərəfindən istehsal olunan ekran əsərinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Elxan Cəfərov, ssenari müəllifləri İlqar Safat, Azər Ziyadlı, İrəvani və Lətif Lətifsoy, quruluşçu operatoru Ruslan Ağazadədir.

Fentezi elementləri ilə zəngin olan tarixi macəra filmində Azərbaycanın qədim dövlətçilik keçmişinə tamamilə yeni ideoloji prizmadan yanaşılır. Ekran əsəri əsasən gənc auditoriya üçün nəzərdə tutulsa da, süjet xətti və vizual həlli ilə bütün yaş qruplarından tamaşaçıların marağına səbəb olacaq.

Filmdə hadisələr indiki Azərbaycan ərazilərində vaxtilə mövcud olmuş qədim İşquz (İç Oğuz) dövlətində cərəyan edir. Düşmən hücumuna məruz qalan dövləti və xalqı xilas etmək üçün vaxtilə Göylərdən göndərilmiş dörd müqəddəs əmanətdən biri olan "Akinak" qılıncını tapmaq lazımdır. Bu ağır və taleyüklü missiyanı yerinə yetirmək üçün dörd cəsur gənc təhlükələrlə dolu yola çıxır. Onlar hədəfə çatmaq üçün həm real düşmənlərlə, həm də onların qurduğu qaranlıq tilsimlərlə mübarizə aparmalı olurlar.

Filmin premyerası böyük maraqla qarşılanıb, yaradıcı heyət alqışlarla səhnəyə dəvət olunub.

Qeyd edək ki, bədii film may ayından etibarən ölkənin bütün kinoteatrlarında geniş tamaşaçı kütləsinə təqdim olunacaq.

Tədbir zamanı həmçinin Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyilə hazırlanan və bu il təqdimatları keçiriləcək animasiya və filmlərin treylerləri nümayiş etdirilib.

Ekran əsərinin quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Elxan Cəfərov AZƏRTAC-a açıqlamasında filmin qədim tariximizə ekskursiya olduğunu deyib: "Filmdəki hadisələr təqribən eramızdan əvvəl VIII-VII əsrlərə aiddir. Əlbəttə tarixi bilmək, keçmişimizə arxalanıb irəliyə getmək daha məqsədəuyğundur. Filmdəki Ata Arbak obrazı qədim dildə idarəçi, rəhbər deməkdir, Qoytasar bizim qədim türk mədəniyyətinə, türk tarixinə aid bir personajdır. Ekran işindəki qəhrəmanlar daha çox mifik personajlardır. Yəni film sırf tarixi deyil, macəra və nağıl filmidir. Daha çox gənclər və yeniyetmələr üçün nəzərdə tutulub. Çox istərdik ki, ilk növbədə məhz gənc nəsil və yeniyetmələrimiz filmi izləsin, dəyərləndirsin və ondan bəhrələnsinlər".

Ekran işinin çoxkoloritli olduğunu qeyd edən bəstəkar-musiqişünas Məryəm Əlibəyli isə deyib: "Mənim öhdəmə düşən məsuliyyət Azərbaycanın tarixi, qədimliyi ilə bağlı özəllikləri film üçün bəstələdiyim musiqilərə yansıtmaq idi. Azərbaycan kino ənənələri musiqisindən kənara çıxmamaq şərti ilə musiqilər yaratdım. Burada bir çox qədim alətlərdən istifadə olunub. Yallı janrında da musiqi bəstələnib. Musiqiləri filmin süjet xəttinə uyğun yazaraq onun gözəlliyinə bir az da ahəng qatmağa çalışmışam. Ümid edirəm ki, hər kəs ekran işindən məmnun olacaq və Azərbaycan filminin möhtəşəmliyini görəcək".

# Leyla Əliyevanın təşəbbüsü ilə Albaniyada Xəstəxana Mərkəzinin pediatrik sedasiya otağı istifadəyə verilib

**Albaniyanın paytaxtı Tirana şəhərində yerləşən "Mother Teresa" Universitet Xəstəxana Mərkəzində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yeni təchiz olunmuş pediatrik sedasiya otağının açılışı olub.**







AZƏRTAC xəbər verir ki, bu humanitar təşəbbüs çərçivəsində Heydər Əliyev Fondu tərəfindən müasir anesteziya aparatı və sedasiya otağının tam təchiz edilməsi üçün zəruri avadanlıqlar təqdim edilib. Tibbi və cərrahi prosedurlar zamanı sedasiyaya ehtiyacı olan pasiyentlər üçün nəzərdə tutulan otağın yaradılması Albaniya dövlət xəstəxanasında pediatrik xidmətlərin keyfiyyətinin artırılmasına bir töhfədir.

Bu təşəbbüs Heydər Əliyev Fondunun uşaqların sağlamlığı və rifahına yönələn fəaliyyətinin, eləcə də Azərbaycan ilə tərəfdaş ölkələr arasında humanitar əlaqələrin möhkəmləndirilməsində fəal rolunun daha bir təsdiqidir.

Açılış tədbirində Azərbaycanın Albaniyadakı səfiri Anar Hüseynov, "Mother Teresa" Universitet Xəstəxana Mərkəzinin direktoru və tibb müəssisəsinin kollektivi iştirak ediblər.

Səfir Anar Hüseynov Azərbaycan ilə Albaniya arasında münasibətlərin əhəmiyyətini vurğulayaraq bildirib ki, belə təşəbbüslər iki ölkə arasında dostluq münasibətlərinin genişlənməsinə yönəlib.

"Mother Teresa" Universitet Xəstəxana Mərkəzinin direktoru və tibb heyəti Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edərək, bu təşəbbüsü Albaniyada pediatrik səhiyyə xidmətlərinin inkişafına töhfə kimi yüksək qiymətləndirib.

# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin iclasında iştirak edib

**Çin Xalq Respublikasının Şanxay şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) idarəetmə orqanı olan İcraiyyə Komitəsinin 61-ci iclası öz fəaliyyətinə başlayıb.**



Çin Xalq Respublikasında işgüzar səfərdə olan baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də İcraiyyə Komitəsinin iclasında iştirak edib.

Məlumat üçün bildirilməlidir ki, dünyanın müxtəlif regionlarını əhatə edən 170-dən artıq ölkəni təmsil edən 350 mindən artıq prokuroru bir araya gətirən assosiasiya dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatıdır.

Assosiasiya ilə ölkəmizin prokurorluq orqanları arasında kökləri uzun illərə dayanan, geniş və faydalı əməkdaşlıq əlaqələri formalaşıb, təsis edildiyi gündən Azərbaycan Respublikası Prokurorluğu qurumun fəaliyyətinə mühüm töhfələr verib. Ölkəmiz 2002, 2018 və 2024-cü illərdə qurumun İcraiyyə Komitəsinin iclaslarına, 2024-cü ildə, həmçinin İllik İclas və Ümumi Yığıncağına evsahibliyi edib.

Tədbirdə çıxış edən assosiasiyanın vitse-prezidenti Kamran Əliyev ölkəmizin hüquq sistemində həyata keçirilən son yeniliklər barədə iştirakçılara ətraflı məlumat verib, eləcə də gündəlikdə duran məsələlərə dair mövqe bildirərək İcraiyyə Komitəsinə yeni üzvlərin namizədliyini irəli sürüb, keçirilmiş səsvermə nəticəsində komitəyə yeni üzvlər qəbul edilib.

Hazırkı iclasda həmçinin təşkilatın idarə edilməsi ilə bağlı bir sıra vacib məsələlər müzakirə edilib, struktur qurumların fəaliyyəti nəzərdən keçirilərək hesabatlar müzakirə edilməklə qəbul edilib, həmçinin, qurumun təsis sənədlərinə yenidən baxılaraq mühüm dəyişikliklər edilib.

Bununla yanaşı, BPA-nın gələcək strategiyası və fəaliyyəti, təşkilatın şəbəkəsinin genişlənməsi, beynəlxalq əlaqələrinin daha da inkişaf etdirilməsi və digər mühüm məsələlər müzakirə edilib.

Eləcə də iclasda cari ilin 15-18 noyabr tarixlərində Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçiriləcək assosiasiyanın İllik Konfransı və Ümumi Yığıncağı ilə bağlı təşkilati məsələlər müzakirə edilib.

Yekunda Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 32-ci İllik Konfransı və Ümumi Yığıncağının 2027-ci ildə Efiopiyada keçirilməsi barədə ilkin qərar qəbul olunub.

Tədbir çərçivəsində ölkəmizin nümayəndə heyəti ilə bir sıra ölkələrin təmsilçiləri arasında ikitərəfli görüşlər keçirilib, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib.

# Milli maraqları qətiyyətlə təmin edən lider

## 16 aprel 2024-cü ildən Rusiya sülhməramlıları ərazilərimizi birdəfəlik tərk etməyə başladılar



**Azərbaycanın müasir tarixinə nəzər saldıqda Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasətin hər bir mərhələsinin milli maraqlarımızın qətiyyətlə qorunmasına xidmət etdiyinin şahidi oluruq. 2020-ci ilin payızında döyüş meydanında yazılan şanlı tarixlə işğala məruz qalmış dövlətdən qalib dövlətə çevrildik. Qarabağda separatizmin kökü həmişəlik kəsildi və Konstitusiyamızın bütün ərazilərimizdə hüquqi qüvvəsi bərpa edildi.**

Üç onillik boyu erməni vandalizminə məruz qalan Qarabağ və Şərqi Zəngəzur bu gün genişmiqyaslı quruculuq meydanına çevrilib. Dövlətimizin qətiyyəti sayəsində bu torpaqlara yenidən həyat qayıdıb. Bir zamanlar yurd-yuvasından didərgin düşmüş keçmiş məcburi köçkünlərin Böyük qayıdış karvanları yurda üz tutur. Bu gün həmin ərazilərdən silah səsləri yox, dirçəlişin sədaları eşidilir. Azərbaycanın öz suverenliyini tam bərpa etməsi həm də tarixi ədalətin yerini tapması oldu. Xalqımıza qarşı hərbi cinayətlər törətmiş erməniəsilli şəxslərin Bakıda ədalət mühakiməsi qarşısına çıxarılmaları və layiqli cəzalarını almaları bunun bariz sübutudur.

Prezident İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi uğurlu strateji kursun ən parlaq nəticələrindən biri də 2024-cü ilin aprelində Rusiya sülhməramlılarının Azərbaycan ərazilərindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qəbul edilmiş tarixi qərar oldu.

### Sülhməramlı missiyanın sonu

2020-ci il Vətən müharibəsindən sonra bölgədə vəziyyət yeni müstəviyə qədəm qoydu. Xatırladaq ki, həmin il 10 noyabr tarixdə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən üçtərəfli Bəyanat imzalandı. Bəyanata əsasən, bir vaxtlar erməni separatçılarının mövcud olduğu Qarabağda Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilmişdi. Həmçinin bəyanatda sülhməramlı kontingentin qalma müddətinin 5 il olduğu öz əksini tapmışdı.

Lakin üçtərəfli Bəyanatdan sonra proseslər heç də hamar getmirdi. Xüsusilə Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında separatçıların Laçın yolu vasitəsilə mina daşıması və təbii sərvətlərimizin qanunsuz istismarı kimi hallara şərait yaradılması Azərbaycanın haqlı narazılığına səbəb oldu. 2022-ci ilin dekabrında azərbaycanlı ekofəalların Şuşa-Xankəndi yolunda başlatdığı dinc etiraz aksiyası məhz bu qanunsuzluqlara qarşı idi. Bu aksiyalar Azərbaycanın öz sərvətlərinə sahib çıxmaq əzmini nümayiş etdirməklə yanaşı, suverenliyin tam bərpası üçün mühüm zəmin hazırladı. Belə ki, 2023-cü ilin sentyabrında 23 saatlıq antiterror tədbirləri ilə Qarabağda separatizmə son qoyuldu. Azərbaycan bayrağı Xankəndidə Zəfər meydanında dalğalandırıldı.

Bununla da Rusiya sülhməramlılarının bölgədə qalması üçün heç bir zərurət qalmadı. Hər iki dövlətin rəhbərliyi kontingentin vaxtından əvvəl çıxarılması barədə razılığa gəldi və beləliklə, bu məsələ rəsmi şəkildə də təsdiqini tapdı.

16 aprel 2024-cü ildə - vaxtından əvvəl Rusiya sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk etməyə başladı.

12 iyun 2024-cü ildə isə bu proses tamamilə yekunlaşdı. Rusların şəxsi heyəti və hərbi texnikası ərazilərimizi tərk etdi. Bu, Azərbaycanın diplomatik və siyasi qələbəsinin növbəti təsdiqi idi.

### Zərgər dəqiqliyi ilə işlənmiş diplomatiya

Rusiya sülhməramlılarının çıxarılması qərəzli dairələrin "onlar heç vaxt getməyəcək" kimi əsassız proqnozlarını alt-üst etdi. Xatırladaq ki, 2020-ci il bəyanatına "müvəqqəti" statusunun daxil edilməsi məhz Prezident İlham Əliyevin israrlı və uzaqgörən taktikasının nəticəsi idi.

Dövlət başçısının "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fəlsəfəsi həm döyüş meydanında, həm də diplomatik masada özünü doğrultdu. Bəyanatın 4-cü maddəsində nəzərdə tutulan 5 illik müddətin tamamlanmasını gözləmədən bu nəticəyə nail olunması Azərbaycanın regionun lider dövləti olduğunu dünyaya nümayiş etdirdi.

Hazırda bölgədə müşahidə olunan sabitlik şəraiti, normallaşma mühiti və faktiki sülhə nail olunması ölkəmizin bu istiqamətdə yürütdüyü qətiyyətli siyasətin yaratdığı reallıqlardır. Bu gün münaqişədən uzaq bölgə kimi çoxsaylı ölkələrin əməkdaşlıq üçün maraq dairəsinə düşən Cənubi Qafqazın Zəngəzur dəhlizi (TRIPP) kimi nəhəng layihələrin timsalında inkişaf və tərəqqi vəd edən strateji ünvana çevrilməsi də göz önündədir. Bütün bunlar Azərbaycanın liderliyi ilə yürüdülən normallaşma prosesinin, onun sülh gündəliyinə sadiqliyinin uğurlu nəticələridir.

Bir sözlə, Rusiya sülhməramlı kontingentinin ölkəmizi tərk etməsi mühüm hadisə kimi tarixə düşdü. Sülhməramlıların vaxtından əvvəl ərazilərimizdən çıxması respublikamızın suverenliyinin və milli maraqlarının müzakirə mövzusu olmadığını ortaya qoydu. Qətiyyətlə sübut edildi ki, Azərbaycan öz torpaqlarında kənar heç bir hərbi baza saxlamayan müstəqil gücdür.

Son altı il ərzində Cənubi Qafqazda cərəyan edən proseslər həm də Prezident İlham Əliyevin böyük hərbi-siyasi strateq və mahir diplomat olduğunu bir daha təsdiqlədi. Məhz Qalib liderin düşünülmüş və uzaqgörən siyasəti Azərbaycanı qısa müddətdə dünyanın qüdrətli ölkəsinə çevirdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İnkişaf, yoxsa ideoloji girovluq

## Ermənistan tarixi seçim qarşısındadır

**Cənubi Qafqaz bölgəsi elə bir mərhələyə daxil olur ki, ayrı-ayrı ölkələrdə baş verən siyasi proseslər artıq birbaşa regional təhlükəsizlik arxitekturasını müəyyənləşdirir. 2026-cı ilin iyununda Ermənistanda keçiriləcək parlament seçkilərinə hazırlıq artıq daxili siyasi mübarizə çərçivəsindən çıxaraq daha geniş strateji seçim xarakteri alır. Əslində, söhbət təkcə hakimiyyət uğrunda mübarizədən deyil, Ermənistanın gələcəyini - sülhə doğru dönüşünü, yoxsa qarşıdurma məntiqinin qorunmasını müəyyən edəcək bir növ geosiyasi referendumdan gedir.**

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, hazırkı mərhələnin əsas xüsusiyyəti Ermənistan cəmiyyətində dərin parçalanmanın mövcudluğudur. Bu gün ölkədə iki əsas istiqamət aydın şəkildə müşahidə olunur və onların hər biri müxtəlif formalarda inkişaf imkanlarını məhdudlaşdırır. "Birinci istiqamət baş nazir Nikol Paşinyanın irəli sürdüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində "Real Ermənistan" konsepsiyasına əsaslanan xətdir. Bu yanaşma formal olaraq Azərbaycanla münasibətlərin normallaşdırılmasına və regionda sülhün təmin olunmasına yönəlib. Lakin praktikada bu siyasət ehtiyatlılıq və ziddiyyətlərlə müşayiət olunur. N.Paşinyan bir tərəfdən Bakı tərəfindən irəli sürülən hüquqi təminat tələbləri, digər tərəfdən isə daxildə güzəştlərin siyasi sabitliyə təhlükə kimi qəbul edilməsi fonunda balans axtarmağa məcburdur. İkinci istiqamət isə revanşist qüvvələrlə bağlıdır. Bu düşərgə uydurma "böyük Ermənistan" ideologiyasını gündəmdə saxlamaqla cəmiyyətdə emosional mobilizasiyaya çalışır. Bu prosesdə dini amildən və simvolik ritorikadan aktiv şəkildə istifadə olunur. Etiraz aksiyalarında kilsə nümayəndələrinin iştirakı ölkədəki identiklik böhranının dərinliyini bir daha göstərir. Lakin bu qüvvələrin əsas zəif tərəfi gələcəyə yönəlik real proqram təqdim edə bilməmələridir. Təklif olunan model artıq iflasa uğramış keçmişə qayıdışdan ibarətdir", - deyə deputat bildirib.



S.Fətəliyevanın fikrincə, bu kontekstdə Azərbaycanla sülh sazişinin perspektivləri xüsusi əhəmiyyət kəsb edir. Getdikcə daha aydın görünür ki, sadəcə, sənədin imzalanması uzunmüddətli sülh üçün kifayət deyil. Problemin kökü Ermənistan dövlətçiliyinin hüquqi əsaslarında dayanır. Ermənistan konstitusiyasının preambulasında Müstəqillik Bəyannaməsinə istinad edilir və həmin sənəddə Azərbaycana qarşı ərazi iddiaları yer alır. Bu vəziyyətdə istənilən sülh sazişi Ermənistanın öz daxili hüquqi sistemi baxımından mübahisələndirilə və gələcəkdə siyasi və ya məhkəmə qərarları ilə qüvvədən düşə bilər. Məhz buna görə də Azərbaycanın mövqeyi prinsipial və praqmatik xarakter daşıyır. Söhbət, sadəcə, danışıqlar prosesinin formal yekunlaşmasından deyil, uzunmüddətli və dayanıqlı sülhün hüquqi əsaslarının yaradılmasından gedir. Konstitusiya səviyyəsində ziddiyyətlər aradan qaldırılmadan əldə edilən razılaşmalar yalnız müvəqqəti siyasi bəyanatlar olaraq qalacaq.

S.Fətəliyeva qeyd edib ki, Ermənistanda gedən proseslər ikili xarakter daşıyır: "Bir tərəfdən, sərhədlərin delimitasiyası istiqamətində müəyyən irəliləyişlər müşahidə olunur. Digər tərəfdən isə daxili siyasi gündəlik göstərir ki, ən həssas qərarların qəbulu məqsədli şəkildə təxirə salınır. "Dördüncü Respublika" konsepsiyası və yeni konstitusiyanın qəbulu ideyası hələlik daha çox siyasi ritorika səviyyəsində qalır, mümkün referendum isə seçkilərdən sonrakı dövrə ötürülür. Bu yanaşma hakimiyyətə qısa müddətdə riskləri azaltmağa imkan versə də, əsas problemlərin həllini gecikdirir".

Deputat vurğulayıb ki, belə şəraitdə sülh perspektivləri ilə bağlı sual daha konkret məna kəsb edir. İrəliləyiş mümkündür, lakin bu, formal və ya birtərəfli ola bilməz. Ermənistanın beynəlxalq aləmdə "sülh tərəfdarı" imici real addımlarla, ilk növbədə hüquqi sahədə dəyişikliklərlə təsdiqlənməlidir. Əks halda xarici ritorika ilə daxili siyasət arasında ziddiyyət qalmaqda davam edəcək. Azərbaycan üçün isə bu proseslər taktiki deyil, strateji əhəmiyyət daşıyır. "2026-cı il Ermənistan üçün seçim nöqtəsinə çevrilir: ya regionda formalaşan yeni reallıqlara uyğunlaşaraq suverenlik və ərazi bütövlüyü prinsiplərinə əsaslanan əməkdaşlıq modelini qəbul etmək, ya da keçmişin ideoloji yükünün girovuna çevrilmək. Nəticə etibarilə Cənubi Qafqazda dayanıqlı sülh yalnız Ermənistanda dərin institusional dəyişikliklər fonunda mümkün ola bilər. Konstitusiya islahatı və ərazi iddialarından qəti imtina müasir Ermənistanda dövlət quruculuğunun ayrılmaz şərtidir. Bu addımlar atılmadan istənilən sülh təşəbbüsü yalnız daxili siyasi konyunkturaya xidmət edən taktiki manevr kimi qiymətləndiriləcək və regionda real sabitliyin təmin olunmasına xidmət etməyəcək", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Xəyanət şəbəkəsinin fiaskosu:* Qarabağda nə sülhməramlı qaldı, nə də separatçı

## Bədxahların qarayaxma kampaniyası Azərbaycan Prezidentinin uzaqgörən diplomatiyası qarşısında darmadağın oldu

**44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu işğalçı Ermənistanı diz çökdürərək, onilliklər boyu davam edən təcavüzə son qoydu, tarixi ədalət öz yerini tapdı. Savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin diktə etdiyi şərtlər daxilində düşmənin tam təslimiyyəti ilə yekunlaşdı.**

İkinci Qarabağ müharibəsindən sonra imzalanan 10 noyabr üçtərəfli Bəyanatına uyğun olaraq, bölgədə Rusiya sülhməramlı kontingenti yerləşdirilmişdi. Hərbi kontingentin ölkəmizdə qalma müddəti müqavilənin imzalandığı tarixdən, yəni 2020-ci ildən 5 il təşkil edirdi. Tərəflərdən heç biri müddətin bitməsinə 6 ay qalmış öz tələbini bəyan etməsəydi, avtomatik olaraq daha 5 il uzadılacaqdı. Lakin postmüharibə dövründə Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozması, bölgəyə silah-sursat və canlı qüvvə daşınması, mülki şəxslərə qarşı təxribatlar 2023-cü ildə Silahlı Qüvvələrimizin birgünlük lokal antiterror tədbirlərini zərurətə çevirdi. Bu qətiyyətli addım nəticəsində Qarabağda separatçılığın kökü kəsildi, ərazimiz terrorçulardan təmizləndi.

Yeni reallıqlar 2024-cü il aprelin 16-dan etibarən Rusiya sülhməramlı kontingentinin Azərbaycanı mərhələli şəkildə tərk etməsinə səbəb oldu. İyunun 12-də Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş sülhməramlıların tamamilə çıxarılması prosesi başa çatdı. Rusiya sülhməramlılarının 2024-cü ildə Azərbaycanı tərk etməsi suverenliyimizin tam bərpa edilməsinin məntiqi yekunu və Prezident İlham Əliyevin həyata keçirdiyi strateji diplomatiyanın parlaq qələbəsi idi.

Bu tarixi uğurun arxasında duran bəzi məqamlara diqqət çəkək. Dövlətimizin başçısı sülhməramlıların fəaliyyəti dövründə yaranan hər bir insidenti və hüquqi boşluğu böyük ustalıqla diplomatik rıçağa çevirdi. Qarabağda keçirilən hərbi əməliyyatlar, Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması və 2023-cü ilin sentyabrındakı antiterror tədbirləri sülhməramlıların ərazidə qalmasını funksional olaraq əhəmiyyətsiz hala gətirdi. Prezidentimizin zərgər dəqiqliyi ilə tətbiq etdiyi diplomatiyası sayəsində Rusiya bölgədə qalmaq üçün heç bir hüquqi və siyasi əsasın olmadığı faktı ilə üz-üzə qaldı.

Dövlətimizin başçısı siyasi ustalıqla, Rusiya ilə münasibətləri gərginləşdirmədən hüquqi çərçivədə sülhməramlıların çıxarılması qərarının alınmasına nail oldu. Azərbaycan Prezidenti uzaqgörən siyasəti ilə vəziyyəti elə bir məntiqi sonluğa gətirdi ki, sülhməramlıların Qarabağda qalması Rusiyanın özü üçün resurs itkisinə çevrildi. Bununla bəzi xarici güclərin sülhməramlı məsələsindən Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etmək planları da "suya düşdü". Sülhməramlıların gedişindən sonra Ermənistanla Azərbaycan arasında birbaşa, vasitəçisiz sülh danışıqları üçün sağlam zəmin yarandı.

O vaxt Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk edəcəyinə inanmayan təkcə xarici dairələr deyildi. Sapı özümüzdən olan baltalar, özünü "müxalifət" zənn edən şər-şəbədə şəbəkələri, "Milli Şura" adlı xəyanətkar yuva və xarici ölkələrdəki əxlaqsız törtöküntülər də "Rusiya ordusu heç vaxt Azərbaycandan getməyəcək" deyirdilər. Əlbəttə, xain qüvvələrin məsələyə dair vay-şüvəni heç də ölkəmizə görə narahatlıqdan irəli gəlmirdi. Milli mənlik duyğusundan və qalib ölkənin vətəndaşı kimi şərəfdən uzaq olan şəbəkə kənar dairələrin təlimatlarını yerinə yetirirdi. Ancaq bu ünsürlərin qara piar kampaniyası 2024-cü ilin aprelində tamamilə iflasa uğradı.

Sülhməramlıların vaxtından əvvəl və insidentsiz şəkildə ərazimizdən çıxarılması antimilli ünsürlərin siyasi savadsızlığı ilə yanaşı, onların dövlətimizə, xalqımıza düşmən mövqedə dayandıqlarını da bütün çılpaqlığı ilə ortaya qoydu. Həqiqi müxalifət dövlətin suverenliyi bərpa ediləndə sevinməli olduğu halda bu ünsürlər sülhməramlıların gedişindən əməlli-başlı məyusluq keçirdilər. Çünki böhtan şəbəkəsinin siyasi varlığı Azərbaycanın uğursuzluğu üzərində qurulmuşdu. Dövlətimizin ardıcıl uğurları qarşısında deyəcək sözləri qalmadığından uçuruma yuvarlandılar, siyasi ofsayda düşdülər.

Onlar Azərbaycanın daxili gücünə, xalq-iqtidar birliyinə yox, kənar mərkəzlərin ssenarilərinə inanırdılar. Həqiqətə kor baxdıqları üçün 44 günlük müharibədə ordumuzun gücünü, Xankəndi məsələsində diplomatik manevrləri düzgün qiymətləndirə bilmədilər. Bu, onların Azərbaycanın milli maraqlarından nə qədər uzaq olduqlarını, ermənipərəst dairələrin tezisləri ilə nəfəs aldıqlarını sübut etdi. Reallıq onların bütün yalanlarını hər addımda üzlərinə vurdu. Hansı məsələyə "mümkün deyil" dedilərsə, Azərbaycan lideri onu ən yüksək səviyyədə reallaşdırdı.

2020-ci ildə 10 noyabr Bəyanatı imzalananda antimilli ünsürlər Rusiya sülhməramlılarının gəlişini "işğalın yeni forması" kimi qələmə verməyə çalışırdılar. Lakin Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan dövləti bu müddət ərzində sülhməramlıların status-kvonu dəyişməsinə imkan vermədi, onların müvəqqəti statusda olduqlarını hər an xatırlatdı.

Antimilli ünsürlərin ən böyük manipulyasiyaları Xankəndi üzərindən idi. Onlar iddia edirdilər ki, "Şuşa alınsa da, Xankəndinə heç vaxt girə bilməyəcəyik". Ancaq 23 saatlıq antiterror tədbirləri ilə separatçılığın kökü kəsildi, 15 oktyabrda isə Azərbaycan bayrağı Xankəndidə ucaldıldı. Bu, antimilli ünsürlərin illərlə apardığı "qara qarğa siyasəti"nin ən böyük rüsvayçılığı idi.

Rusiya sülhməramlılarının ölkəmizdən çıxarılması ilə cənab İlham Əliyev bütün dünyaya sübut etdi ki, Azərbaycanın taleyi kənar güclərin masalarında yox, məhz Bakıda, xalqın iradəsi ilə həll olunur. Bu gün Qarabağda nə sülhməramlı, nə də separatçı var. Bu gün Qarabağın hər qarışında torpağın həqiqi sahibləri yaşayır və geniş bərpa-quruculuq işləri ilə məşğul olurlar. Bu reallıq vaxtilə "ruslar getməyəcək" deyərək şadlanan bədxahların ən ağrılı məğlubiyyət qapazıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Fransa Azərbaycanlıları Koordinasiya Şurasının növbəti görüşü olub

**Parisdə səfirliyin Mədəniyyət Mərkəzində Fransa Azərbaycanlıları Koordinasiya Şurasının növbəti görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Fransanın müxtəlif şəhərlərində yaşayan azərbaycanlılar iştirak ediblər. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə həmrəyliyin, birlik və Azərbaycanın beynəlxalq aləmdə düzgün təqdim olunmasının önəmi vurğulanıb.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva diasporun bir araya gəlməsinin əhəmiyyətini qeyd edərək, bu görüşün birlik və həmrəyliyin, eləcə də Vətənə bağlılığın göstəricisi olduğunu bildirib. O, Fransa ilə Azərbaycan arasında son illərdə yaşanan çətinliklərə toxunaraq, diasporun üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb və bu şəraitdə ölkəmizin düzgün təqdim edilməsinin vacibliyini qeyd edib.

Səfir həmçinin Fransadakı Azərbaycan diasporunun ictimaiyyətlə daha effektiv kommunikasiya qurmasının və yanlış məlumatlara qarşı daha aktiv fəaliyyət göstərməsinin vacibliyini diqqətə çatdırıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov komitənin və Fransadakı diaspor təşkilatlarının fəaliyyəti barədə məlumat verib. Daha sonra komitənin 2025-ci ilin yekunlarına həsr olunmuş və Fransadakı diaspor fəaliyyətini əks etdirən video təqdim olunub.

Tədbirdə Azərbaycan diasporunun tarixi inkişafı və hazırkı fəaliyyəti müzakirə edilib, həmrəyliyin və qarşılıqlı dəstəyin önəmi vurğulanıb.

Diasporun formalaşmasında mühüm rol oynamış Əlimərdan bəy Topçubaşov və Ceyhun Hacıbəyli kimi şəxsiyyətlər xatırlanıb. Son illərdə Fransanın müxtəlif şəhərlərində yaşayan azərbaycanlıların sayının artdığı və diaspor fəaliyyətlərinin daha da genişləndiyi qeyd olunub.

Fransa üzrə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzləri, "Azərbaycan Evi" və gənclər-tələbə assosiasiyalarının diaspor fəaliyyətinə dəstək verdiyi bildirilib.

Görüşdə diaspor üzvlərinin mövcud şəraitdə əməkdaşlığının gücləndirilməsi və Azərbaycanın beynəlxalq aləmdə təşviqinin artırılması məsələləri də müzakirə olunub.

Tədbir çərçivəsində politoloq Rəzmi Maşallah Neşatabad Azərbaycanın "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edilib.

Daha sonra Mişel Jalların müəllifi olduğu, Ədilə Əliyevanın həyat və yaradıcılığından bəhs edən "Barmaqların ucundakı müqəddəs alov" kitabının təqdimatı keçirilib.

Pianoçu Ədilə Əliyeva Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini ifa edib.

Sonda Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti Parisdə fəaliyyət göstərən "Natəvan" məktəbinin müəllim kollektivi, şagirdləri və valideynləri ilə görüş keçirib.

# Ölkəmiz üçün ən ciddi təhlükəsizlik çağırışı

## 2020-ci ildən bəri 422 şəxsin mina qurbanına çevrilməsi problemin aktuallığını bir daha ön plana çıxarır

**Postmünaqişə dövründə Azərbaycanın qarşılaşdığı ən ciddi problemlərdən biri genişmiqyaslı mina çirklənməsidir. Bu təhlükə ərazilərimizin təxminən 13 faizini əhatə edən 1 milyondan artıq mina və partlamamış hərbi sursat mövcudluğu deməkdir. Aprelin 14-də ANAMA əməkdaşının mina partlayışı nəticəsində həlak olması və ümumilikdə 2020-ci ildən bəri 422 şəxsin mina qurbanına çevrilməsi problemin aktuallığını bir daha ön plana çıxarır.**

### Müharibənin "gizli irsi"

Bütün bunlar onu göstərir ki, mina və partlamamış hərbi sursat problemi ölkəmiz üçün ən ciddi təhlükəsizlik çağırışlarından biri olaraq qalır. Belə ki, işğaldan azad edilmiş ərazilərimiz uzun illər ərzində Ermənistan və Qarabağdakı separatçılar tərəfindən sistemli şəkildə minalanmışdır. Hazırda ərazilərimizdə tank və piyada əleyhinə minalar, partlamamış hərbi sursatlar, digər partlayıcı qurğular mövcuddur.



Hesablamalara əsasən, minalarla və partlamamış hərbi sursatlarla bu qədər genişmiqyaslı çirklənmənin tam şəkildə aradan qaldırılması üçün milyardlarla ABŞ dolları həcmində maliyyə vəsaiti və uzun zaman müddəti tələb olunur. Hazırkı mərhələdə Azərbaycan dövləti bu ağır vəzifənin öhdəsindən əsasən öz daxili maliyyə resursları hesabına gəlir ki, bu da dövlətin məsuliyyətli və ardıcıl siyasətinin göstəricisidir.

Problemin əsas çətinliklərindən biri Ermənistan tərəfindən mina xəritələrinin natamam və qeyri-dəqiq təqdim edilməsidir. Bu minatəmizləmə prosesinin həm təhlükəli, həm də vaxt aparan məsələsidir. Mina xəritələrinin qeyri-dəqiqliyi, ərazilərin mürəkkəb relyefi və təhlükəsizlik riskləri əməliyyatların planlaşdırılmasını çətinləşdirir.

Müasir beynəlxalq münasibətlər sistemində diqqət və resurslar çoxsaylı böhranlar arasında bölüşdürülür. Digər irimiqyaslı münaqişələr beynəlxalq donorların diqqətini özünə yönəldir. Bu isə Cənubi Qafqazdakı humanitar problemlərin ön plana keçməsinə mane olur. Digər tərəfdən bir çox beynəlxalq aktor regionda aktiv hərbi əməliyyatların olmamasını de-fakto sülh, vəziyyətin sabitləşməsi kimi qiymətləndirir. Halbuki mina təhlükəsi faktiki olaraq müharibənin "gizli irsi" kimi qalmaqdadır.

Qlobal miqyasda artan humanitar böhranlar da donor ölkələrin maliyyə imkanlarını məhdudlaşdırır. Minatəmizləmə isə uzunmüddətli və yüksək maliyyə tələb edən prosesdir.

### Mina təhlükəsi bərpa işləri üçün yeganə problemdir

Minalar mülki əhali üçün daimi təhlükə mənbəyidir. Bu, Qarabağ və Şərqi Zəngəzura keçmiş məcburi köçkünlərin geri qayıdışını ləngidir. Yol, enerji və su infrastrukturu layihələri yalnız ərazilər tam təmizləndikdən sonra icra oluna bilər. Mina təhlükəsi infrastruktur layihələrinin icra müddətini uzadır, dövlət xərclərini artırır.

Kənd təsərrüfatı və digər iqtisadi fəaliyyət sahələri mina təhlükəsi səbəbilə tam potensialına uyğun istifadə oluna bilmir. Bu isə regionun iqtisadi reinteqrasiyasını ləngidir.

Mina probleminin həlli yalnız milli səviyyədə deyil, beynəlxalq humanitar gündəlik çərçivəsində qiymətləndirilməlidir. Effektiv həll üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi vacibdir:

- beynəlxalq donorların bu işə daha fəal cəlb edilməsi;
- minatəmizləmə texnologiyalarına investisiyanın artırılması;
- beynəlxalq təşkilatlarla koordinasiyanın gücləndirilməsi;
- mina probleminin qlobal humanitar platformalarda daha aktiv şəkildə qaldırılması.

Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyən edilmiş 17 Dayanıqlı İnkişaf Məqsədi mövcuddur. Hər bir dövlət, o cümlədən Azərbaycan Respublikası bu məqsədlər əsasında öz milli inkişaf prioritetlərini formalaşdırıb. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə humanitar minatəmizləmə 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi irəli sürülüb. Bu yanaşma mina probleminin təkcə regional deyil, qlobal humanitar çağırış kimi qəbul edilməsinin vacibliyini ortaya qoyur. Hazırda dövlət başçısının tapşırığına uyğun olaraq, Azərbaycan diplomatiyası beynəlxalq platformalarda humanitar minatəmizləmənin qlobal səviyyədə dayanıqlı inkişaf məqsədi kimi tanınması istiqamətində fəal iş aparır.

Digər mühüm məqam ondan ibarətdir ki, mina terroru yalnız insan həyatına deyil, eyni zamanda mədəni irsə, ətraf mühitə və bütün canlı aləmə ciddi təhlükə yaradır. Bu baxımdan mina problemi çoxşaxəli, kompleks və uzunmüddətli fəsadlara malik təhlükə kimi qiymətləndirilir. Azərbaycan dövləti bu reallığı nəzərə alaraq, mümkün olan bütün istiqamətlər üzrə sistemli fəaliyyət göstərir. Bu istiqamətlərdən biri də minaların mədəni irs obyektlərinə vurduğu ziyanın beynəlxalq səviyyədə tanınması və sənədləşdirilməsidir.

1954-cü ildə "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyası qəbul edilib. 2023-cü ildə Haaqa Konvensiyasına tərəf dövlətlərin 15-ci beynəlxalq toplantısında Azərbaycan dövlətinin məqsədyönlü fəaliyyəti nəticəsində "Minaların mədəni irsə təsiri" ilə bağlı xüsusi qətnamə qəbul edilib. Bu sənəd mina terrorunun mədəni irsə vurduğu dağıdıcı təsirin beynəlxalq hüquqi müstəvidə tanınması baxımından mühüm əhəmiyyət daşıyır və Azərbaycanın bu sahədə qlobal təşəbbüskar rolunu bir daha nümayiş etdirir.

*Rizvan NƏBİYEV,*
*Milli Məclisin deputatı,*
*siyasi elmlər doktoru*

# İqtisadi inteqrasiya artdıqca etimad mühiti də güclənir

**Ötən ilin dekabrından etibarən Ermənistana həm birbaşa, həm də Azərbaycan ərazisindən müxtəlif yüklər daşınır. Rəsmi Bakının bu addımı iki ölkə arasında münasibətlərin tədricən normallaşması fonunda iqtisadi əməkdaşlıq imkanlarının genişlənməsinə töhfə verir. Prezident İlham Əliyev bəyan edib ki, Cənubi Qafqaz regionunda bütün kommunikasiyalar açılmalıdır. Azərbaycan öz üzərinə düşən öhdəlikləri yerinə yetirir və ərazisindən yüklərin daşınmasına şərait yaradır. Bu, regional nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində atılan addımların praktik nəticəsi kimi dəyərləndirilə bilər.**



Milli Məclisin deputatı Könül Nurullayeva qəzetimizə açıqlamasında bildirib ki, uzun illər işğal siyasəti səbəbindən blokada şəraitində yaşamış Ermənistan üçün yeni logistika marşrutlarının yaranması iqtisadiyyatın diversifikasiyası baxımından əhəmiyyətlidir: "Azərbaycanın tranzit ölkə kimi çıxış etməsi həm regionda iqtisadi inteqrasiyanı gücləndirir, həm də ticarət dövriyyəsinin artmasına şərait yaradır. Ermənistan rəsmiləri də bəyan ediblər ki, neft məhsullarının çatdırılması ölkənin daxili bazarında enerji təminatını və qiymətlərini sabitləşdirir, sənaye sektorunun davamlı fəaliyyətinə müsbət təsir edir. Baş nazir Nikol Paşinyan bu addımı "real sülhün nümunəsi" kimi qiymətləndirərək, Azərbaycanın neft məhsullarının Ermənistandakı monopoliyanı dağıtdığını da bildirmişdi".

Deputat qeyd edib ki, Azərbaycanın bu prosesdə iştirakı regionda iqtisadi əməkdaşlıq modelinin formalaşmasına töhfə verir. Həmçinin uzunmüddətli perspektivdə siyasi sabitliyə müsbət təsir edir. Beynəlxalq təcrübə göstərir ki, iqtisadi inteqrasiya səviyyəsi yüksəldikcə münaqişə riskləri azalır və tərəflər arasında etimad mühiti formalaşır. Ermənistan iqtisadiyyatı üçün bu əməkdaşlığın potensial faydalarına gəlincə, demək olar ki, tranzit imkanlarının genişlənməsi bu ölkəni regional ticarət şəbəkələrinin bir hissəsinə çevirə bilər. Bu isə yeni investisiyaların cəlb olunmasına, logistika və xidmət sektorlarının inkişafına, həmçinin məşğulluğun artmasına şərait yaradar. Paralel olaraq idxal marşrutlarının şaxələndirilməsi iqtisadi risklərin azaldılmasına xidmət edir.

K.Nurullayeva deyir ki, prosesin davamlı və sistemli xarakter alması üçün siyasi dialoqun gücləndirilməsi, müvafiq mexanizmlərin formalaşdırılması vacibdir: "Ermənistana neft məhsullarının göndərilməsi, ümumilikdə yüklərin Azərbaycan üzərindən daşınması təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan yeni reallıqların formalaşdığını göstərir. Bu proseslərin düzgün idarə olunması regionda sabitliyi möhkəmləndirəcək, qarşılıqlı faydalı əməkdaşlığı daha da genişləndirəcək. Bir sözlə, sözügedən əməkdaşlıq fonunda Azərbaycan regionda enerji və logistika mərkəzi rolunu gücləndirir, Ermənistan isə izolyasiyadan çıxaraq regional bazara inteqrasiya olunur".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

● 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir

# Müasir şəhərsalmanın Azərbaycan nümunəsi



**Azərbaycanda şəhərsalma mədəniyyətinin tarixi çox qədim dövrlərə gedib çıxır. Tarixin müxtəlif mərhələlərində ərazilərimizdə formalaşan şəhərlər həm yaşayış məntəqəsi, həm də ticarət, mədəniyyət və elm mərkəzləri kimi inkişaf edib. Müasir şəhərsalma siyasəti isə keçmişin zəngin irsini qorumaqla yanaşı, yeni dövrün tələblərinə uyğun davam etdirilir.**

Şuşa, Gəncə, Şəki, Bakı, Naxçıvan və digər şəhərlərimiz şəhərsalma mədəniyyətinin ən parlaq nümunələridir. Bu şəhərlərdəki memarlıq abidələri ölkəmizin zəngin şəhərsalma ənənəsindən xəbər verir.



Azərbaycan bu il XIII Ümumdünya Şəhərsalma Forumuna (WUF13 - World Urban Forum XIII) evsahibliyi edəcək. Belə bir tədbirin Azərbaycanda keçirilməsi respublikamızdakı şəhərsalma siyasətinin beynəlxalq səviyyədə diqqət mərkəzində olması ilə bağlıdır. Bu beynəlxalq tədbir Azərbaycanın şəhərsalma sahəsində gördüyü işləri, yenilikləri və inkişaf planlarını dünya ilə bölüşmək üçün yaxşı fürsət olacaq. Belə tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın şəhərsalma, infrastruktur və beynəlxalq əməkdaşlıq sahəsində nüfuzunun artdığının göstəricisidir.





Hazırda Azərbaycanın qarşısında duran əsas məsələlərdən biri Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Azad edilmiş ərazilərdə geniş bərpa və tikinti işləri davam edir. Şuşa, Füzuli, Ağdam, Cəbrayıl, Kəlbəcər, Zəngilan, digər şəhər və rayonlarda həyata keçirilən layihələr müasir şəhərsalmanın uğurlu nümunəsidir. Bu, beynəlxalq səviyyədə qəbul olunan şəhərsalma prinsiplərinə uyğundur.







Ağdam şəhərinin Baş planı 2050-ci ilə qədər 100 min nəfərin yaşayışı üçün nəzərdə tutulub və burada əsasən bərpaolunan enerji mənbələrindən istifadə ediləcək. Füzuli və Zəngilanda quraşdırılan "ağıllı işıqlandırma", tullantıların ayrılması və suyun yenidən istifadəsi sistemləri "yaşıl enerji"nin nümunəsidir. Bu layihələr Azərbaycanın 2030-cu ilə qədər karbon emissiyasını azaltmaq məqsədinə xidmət edən şəhərsalma planının həyata keçirilməsinin bir hissəsidir.

Prezident İlham Əliyev qeyd edib ki, quruculuq planlı və sistemli şəkildə aparılmalıdır: "Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq".

Qeyd edək ki, Baş plan şəhərin uzunmüddətli perspektiv inkişafını təyin edən əsas şəhərsalma sənədidir. Baş planın hazırlanması şəhər ərazi vahidi daxilində məskunlaşma ərazilərinin planlaşdırılmasını nəzərdə tutur. Bu sənədə şəhərətrafı ərazilərdə ayrı-ayrı yaşayış məntəqələri də daxil edilir ki, buna məskunlaşma prosesinin tələbləri də şamil edilir. Baş planda xəritə-sxem üzərində əsas tikinti obyektlərinin yerlərinin təyin olunması öz əksini tapır. Təyin olunmuş şəhər ərazilərinin sərhədlərində həmçinin elektrik, istilik, qaz və su təchizatı da proqnozlaşdırılmış əhali sayını nəzərə alaraq öz həllini tapır. Eyni zamanda avtomobil yolları, ictimai nəqliyyat, körpülər və bu kimi nəqliyyat mühəndis qurğularının da planlaşdırılması baş planda nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərdəki bütün şəhərlərin baş planları təsdiq edilib. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri zamanı bu planlar təqdim olunub. Hər bir baş plan hazırlanarkən şəhərin özünəməxsusluğu və coğrafiyası nəzərə alınıb. Şəhərlərin baş planlarında yaşayış yeri, məşğulluq üçün imkanlar və ictimai-sosial rifah kimi konseptual əsaslar dayanır. Şəhərlərin hər biri mənzərəli landşaftı, ictimai məkanları, sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Bu mənada baş planların hazırlanması zamanı regionda müasir tələblərə cavab verən yeni infrastrukturun qurulması, şəhərlərə tezliklə qayıdacaq əhalinin yüksək yaşayış standartlarının, təhlükəsizliyinin, iş imkanlarının və yaşayış məntəqələrinin dayanıqlı inkişafının təmin olunması prioritet götürülüb, aparıcı dünya təcrübəsi öyrənilərək tətbiq edilib, "yaşıl enerji", "ağıllı şəhər" və bir çox digər müasir şəhərsalma yanaşması tətbiq olunub. İşğaldan azad edilmiş ərazilərdəki bütün şəhərlər strateji əhəmiyyətli yaşayış məntəqələri kimi inkişaf etdirilir.

Beləliklə, Azərbaycanda aparılan şəhərsalma siyasəti ölkəmizin yeni inkişaf modelinin əsas dayaqlarından biridir. İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələr müasir, dayanıqlı və innovativ bir gələcəyin qurulması deməkdir. Böyük qayıdış çərçivəsində görülən işlər Qarabağ və Şərqi Zəngəzuru tədricən ölkəmizin ən perspektivli inkişaf zonalarına çevirir. Bu proses həm tarixi ədalətin bərpası, həm də gələcəyə doğru atılan mühüm addımdır.

*Təhminə VERDİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# Bakı qlobal əməkdaşlığın strategiyasını formalaşdırır

## Azərbaycan beynəlxalq təşkilatlara sədrliyi dövründə uğurlu fəaliyyəti və liderliyi ilə seçilir

**Azərbaycan bir çox beynəlxalq platformada uğurlu inteqrasiya layihələri həyata keçirir. Bakı müxtəlif coğrafiyaları və ideologiyaları birləşdirən diplomatik qovşaq statusunu beynəlxalq qurumlara sədrlik etdiyi dönəmlərdə daha da möhkəmləndirir. Bu xəttin məntiqi davamı olaraq, ölkəmiz 2024-cü ildən bu yana Asiyanın ən böyük dialoq platformalarından birinə - Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) uğurla rəhbərlik edir. Sədrliyin praktik nəticələrindən biri kimi aprelin 14-də Bakıda mühüm tədbir də reallaşıb. Azərbaycanın AQEM-ə sədrliyi çərçivəsində "AQEM məkanında davamlı inkişaf naminə qadınların səslərinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans və təşkilatın Qadınlar Şurasının ilk iclası keçirilib.**

Tədbirdə AQEM-in baş katibi Kayrat Sarıbay, Azərbaycanın dövlət rəsmiləri, həmçinin üzv dövlətlərin yüksəksəviyyəli nümayəndələri iştirak ediblər. Baş katib Azərbaycanın təşəbbüsünü yüksək qiymətləndirib və buna görə rəsmi Bakıya təşəkkür edib. K.Sarıbay əlavə edib ki, Azərbaycanın sədrliyi və təşəbbüsü ilə daha uğurlu nəticələr əldə olunacaq. Azərbaycan AQEM çərçivəsində Qadınlar Şurasının yaradılması təşəbbüsü ilə çıxış edib. Bu, ölkəmizin Qoşulmama Hərəkatında olduğu kimi, AQEM-də də yeni mexanizmlərin qurulması ənənəsini davam etdirdiyini göstərir.

Təxminən 4 milyarda yaxın insanın Asiya qitəsində yaşadığını nəzərə alsaq, AQEM kimi beynəlxalq platformanın planetimizin gələcək təhlükəsizliyinin təminatı baxımından böyük əhəmiyyət daşıdığı aydın olar. Məlumat üçün bildirək ki, AQEM-in çağırılması haqqında təşəbbüs ilk dəfə 1992-ci ildə Qazaxıstan tərəfindən BMT Baş Assambleyasının 47-ci sessiyası zamanı irəli sürülüb. Əsas məqsəd isə Asiyada sülh və təhlükəsizliyin təmin olunması üzrə effektiv və universal təşkilat təsis etmək olub. Hazırda 28 üzvü olan AQEM-in fəaliyyətini tənzimləyən əsas sənədlərdən biri 2002-ci ildə qəbul edilmiş "Almatı Aktı"dır. Müşavirənin inzibati orqanı Astana şəhərində yerləşən Katiblikdir. AQEM-in əsas qərar qəbuletmə orqanları Dövlət və Hökumət Başçılarının Şurası, Xarici İşlər Nazirləri Şurası və Yüksək Vəzifəli Şəxslər Komitəsidir.

Azərbaycan AQEM-in çağırılması ilə bağlı təşəbbüsü dəstəkləyən ilk dövlətlərdən biri olub və qurum çərçivəsində fəal əməkdaşlığını davam etdirib. 2023-cü ildə qurumun Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasında müşavirənin tamhüquqlu beynəlxalq təşkilata transformasiyası ilə bağlı yol xəritəsi qəbul edilib. Hazırda sözügedən yol xəritəsində əksini tapmış müddəaların icrası istiqamətində fəaliyyət davam etdirilir. AQEM Nazirlər Şurasının 2024-cü il 19 mart tarixli qərarı ilə 2024-2026-cı illər üzrə müşavirəyə sədrlik ölkəmizə keçib.

Payızda Bakıda AQEM sammiti və AQEM Media Forumu keçiriləcək, mühüm qərarlar qəbul olunacaq. Bakı sammiti həm Asiyada təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq nüfuzunun artmasına xidmət edəcək. Bu tədbir ölkəmizin sədrlik dövründəki uğurlarının nümayişi üçün tarixi bir mərhələ olacaq.

Coğrafi baxımdan Asiya ilə Avropanın kəsişməsində yerləşən Azərbaycan ticarət yollarının inkişafı üçün infrastrukturunu tamamilə yeniləyib. Mövcud enerji və nəqliyyat layihələri, o cümlədən yaxın illərdə istifadəyə veriləcək Zəngəzur dəhlizi (TRIPP) və Xəzər ilə Qara dənizi birləşdirəcək elektrik enerjisi ixracı kabeli, eləcə də digər daxildəki infrastruktur layihələri AQEM dövlətləri üçün mühüm fürsətdir.

Belə əhəmiyyətli bir təşkilata 2024-2026-cı illər üzrə sədrliyin Azərbaycana həvalə olunması heç də təsadüfi deyil. Azərbaycanın beynəlxalq qurumlara rəhbərliyi ölkənin xarici siyasətində çoxşaxəlilik prinsipinin və qlobal diplomatik nüfuzunun göstəricisidir. Bakı bu platformalarda təkcə milli maraqlarını deyil, həm də ədalət, beynəlxalq hüquq və inkişaf etməkdə olan ölkələrin səsini təmsil edən aparıcı aktor kimi çıxış edir.

Xatırladaq ki, Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi təşkilatın tarixində institusionallaşma dövrü kimi xarakterizə edilir. Ölkəmiz pandemiya ilə mübarizədə "peyvənd millətçiliyi"nə qarşı çıxaraq, BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinə nail oldu. Azərbaycanın QH-yə sədrliyi dövründə qurumun Parlament Şəbəkəsi, Gənclər Təşkilatı və Qadınlar Platforması yaradıldı. Dövlətimizin uğurlu fəaliyyəti nəticəsində üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycanın sədrlik müddəti daha bir il uzadıldı.

Ölkəmizin 2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına sədrlik dövrü isə türk dünyasının birliyinin keyfiyyətcə yeni mərhələyə keçməsini təmin etdi. Məhz ölkəmizin TDT-yə rəhbərliyi müddətində türk dövlətlərinin iqtisadi, nəqliyyat və humanitar sahələrdə inteqrasiyası sürətləndi. 44 günlük müharibə zamanı və sonrakı dönəmdə türk dövlətlərinin mənəvi dəstəyinin vəhdət halına gəlməsi də bu dövrə təsadüf edir.

2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu dövrdəki sədrlik fəaliyyəti ölkəmizin diplomatiyasının ən böyük uğurlarından biri sayılır. Həmin zaman kəsiyində Azərbaycanın sədrliyi ilə terrorizmlə mübarizəyə dair yüksəksəviyyəli iclaslar keçirildi. Beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında hüququn aliliyi prinsipi ardıcıl müdafiə olundu.

2014-cü ildə ölkəmzin Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrlik dövründə də Azərbaycan Avropanın hüquqi və humanitar məkanında mühüm gündəlik formalaşdırdı. Korrupsiya ilə mübarizə, mədəniyyətlərarası dialoq və gənclər siyasəti ölkəmizin sədrliyinin əsas mövzuları idi. Bu platformalardakı liderlik Azərbaycanın beynəlxalq arenada körpü rolunu və strateji əhəmiyyətini daha da möhkəmləndirib.

Nəticə etibarilə Bakının beynəlxalq qurumlardakı fəallığı qlobal əməkdaşlığın qurulmasına böyük töhfələr verir. Azərbaycanın humanitar təşəbbüsləri ölkəmizin yalnız enerji və nəqliyyat qovşağı olmadığını, həm də mədəniyyətlərarası dialoq və inklüziv inkişafın mərkəzi olduğunu nümayiş etdirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

İQTİSADİYYAT

# Qardaş ölkə, strateji tərəfdaş

## Azərbaycanla Özbəkistan arasında illik ticarət dövriyyəsi üzrə hədəf - 1 milyard dollar



**Azərbaycanla Özbəkistan arasında ikitərəfli əlaqələrin inkişafında ölkələrimizin dövlət başçılarının siyasi iradəsi, yüksəksəviyyəli qarşılıqlı səfərləri, keçirilən görüş və tədbirlər xüsusi əhəmiyyət daşıyır. İqtisadi əlaqələrin inkişafında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya mühüm platforma kimi çıxış edir.**

Mərkəzi Asiyanın ən böyük dövlətlərindən olan və sürətlə inkişaf edən Özbəkistanla Azərbaycanın qarşılıqlı münasibətləri xüsusilə son illərdə durmadan genişlənir. Əlaqələrimiz həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təsisatlar çərçivəsində intensiv şəkildə inkişaf edir. İki ölkə arasında bu vaxtadək imzalanmış 170-dən çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb.

Azərbaycan-Özbəkistan iqtisadi əlaqələri özünü ticarətdə, investisiya tərəfdaşlığında bariz şəkildə göstərir. Enerji, sənaye, xüsusilə avtomobil sənayesi, tekstil, kənd təsərrüfatı, nəqliyyat, tranzit, turizm və digər sahələrdə əlaqələr iqtisadi əməkdaşlığımızın gündəliyində olan məsələlərdir.

Azərbaycanın Avropaya "yaşıl enerji" dəhlizi çəkmək məqsədini qardaş Özbəkistan da dəstəkləyir. Məlum olduğu kimi, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Qazaxıstan və Özbəkistan da qərara gəliblər ki, Azərbaycan üzərindən bu dəhlizə özlərinin istehsal etdikləri bərpaolunun enerjini qoşsunlar (Bununla ölkəmiz "yaşıl enerji"nin həm də tranzitini həyata keçirəcək).

Xatırladaq ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev 2024-cü il noyabrın 11-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə Azərbaycana səfərə gəlmişdi. Səfər çərçivəsində noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü oldu. Sonra Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzaladılar.

Enerji əməkdaşlığından söz düşmüşkən onu da deyək ki, bununla bağlı əldə edilmiş razılaşmalar, bu çərçivədə İşçi qrupunun keçirdiyi iclaslar, hər iki ölkənin müvafiq nazirlikləri, eləcə də neft-qaz və elektrik enerjisi sahəsində fəaliyyət göstərən strukturları arasında müxtəlif layihələrlə əlaqədar aparılan müzakirələr getdikcə daha çox bəhrə verir. Bir sözlə, Azərbaycan-Özbəkistan enerji əməkdaşlığı çoxistiqamətlidir. "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Özbəkistan Respublikasının Energetika Nazirliyi arasında 2023-2025-ci illər üçün enerji sektorunda əməkdaşlığın genişləndirilməsinə dair Yol Xəritəsi" imzalanıb və sənəd 14 istiqaməti əhatə edir. Yol xəritəsi hər iki ölkədə karbohidrogen ehtiyatlarının geoloji kəşfiyyatı və hasilatı, birgə müəssisələrin yaradılmasına dair əməkdaşlığı nəzərdə tutur. Bu sənədə əsasən, hazırda Azərbaycan və Özbəkistan bərpaolunan enerji, enerji sektorunda islahatlar, enerji resurslarından səmərəli istifadə, enerji keçidi, dekarbonizasiya, hidrogen istehsalı ilə bağlı informasiya və təcrübə mübadiləsi üzrə də əməkdaşlıq edirlər. Bir neçə il əvvəl "Azərenerji" ASC ilə "Özbəkistan Milli Elektrik Şəbəkəsi" SC arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq, hər iki ölkənin sistem operatorlarının əməkdaşlığının davam etdirilməsi də əsas fəaliyyət istiqamətlərindən biri kimi sözügedən yol xəritəsində əks olunub.

SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında əlaqələr getdikcə genişlənir. Özbəkistanın neft-qaz sənayesinin mütəxəssisləri azərbaycanlı həmkarlarına böyük hörmətlə yanaşır, onların bu sahədəki təcrübəsini yüksək qiymətləndirirlər. Azərbaycanda keçirilməsi artıq ənənə halını almış Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində son illər Özbəkistanın geniş təmsil olunması buna aydın misaldır. Burada özbək mütəxəssisləri Azərbaycanın və bir sıra digər ölkələrin neft-qaz işçiləri ilə sıx təmasda olur, işgüzar söhbətlər apararaq gələcək uğurlu əməkdaşlığın, tərəfdaşlığın konturlarını müəyyənləşdirirlər.

SOCAR və "Uzbekneftegaz" arasında əməkdaşlığa dair imzalanan sənədlərin də sayı getdikcə artır. O cümlədən 2004-cü ilin avqust ayında Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində bu iki şirkət arasında Əsas Şərtlər Sazişi imzalanıb.

Bakıda fəaliyyət göstərən Özbəkistan Ticarət Evinin rəhbəri Ramin Şərifov vurğulayıb ki, Mərkəzi Asiya respublikaları böyük iqtisadi potensiala malikdir. Özbəkistanın digər dövlətlərlə yanaşı, Azərbaycan ilə tarixi, dini, milli dəyərləri çox yaxındır və bu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafına stimul verir.

O həmçinin bildirib ki, ötən il ərzində Azərbaycanın Özbəkistanla ümumi ticarət dövriyyəsi 2024-cü ilə nisbətdə 3,1 dəfə artaraq 795,1 milyon dolları ötüb. Cari ilin yanvar ayında isə ticarət dövriyyəsinin ümumi həcmi 2025-ci ilin müvafiq dövrünə nisbətən 75,1 faiz artaraq 25,5 milyon dolları üstələyib.

Lakin bu, son hədd deyil. Ticarət dövriyyəsinin ildən-ilə artması onu göstərir ki, bu istiqamətdə hər iki ölkənin böyük potensialı var. Özbəkistanla ölkəmiz arasında ticarət dövriyyəsinin 2030-cu ilə qədər 1 milyard dollara çatdırılması planlaşdırılır və bunun üçün perspektiv var.

R.Şərifovun məlumatına görə, Özbəkistan və Azərbaycan investorları arasında tərəfdaşlıq sazişi də imzalanıb. Artıq bu istiqamətdə 500 milyon dollar nizamnamə kapitalına malik Azərbaycan-Özbəkistan İnvestisiya Fondu fəaliyyətə başlayıb: "Fond yarandığı gündən iqtisadiyyatın real sektorunda layihələrin həyata keçirilməsində fəal iştirak edir. Eyni zamanda hazırda iki ölkə arasında 100-dən çox investisiya layihəsi təhlil edilir. Ümumi dəyəri 80 milyon dollardan çox olan 6 layihə isə artıq təsdiqlənib. 2024-cü ildə Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" dövlətlərarası münasibətlərin hüquqi-siyasi əsasını formalaşdıraraq əməkdaşlığın ən yüksək səviyyəyə çatdığını təsdiqləyir. Müqavilə yalnız diplomatik münasibətlərin deyil, eyni zamanda siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sistemli əməkdaşlığın genişlənməsinə zəmin yaradıb".

Əlavə edək ki, Özbəkistanın da Orta dəhlizin əsas nəqliyyat istifadəçilərindən olması bu ölkə ilə iqtisadi əməkdaşlığımızın məcrasının daha da genişlənməsinə zəmin yaradır.

***Flora SADIQLI, "Azərbaycan"***

## Asiya İnkişaf Bankı ilə sosial sahədə əməkdaşlığın gələcək istiqamətləri müzakirə edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Asiya İnkişaf Bankının (AİB) Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Lea Qutierrezin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.**



Nazirliklə AİB arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayan nazir Anar Əliyev ötən dövrdə icra olunan birgə layihələrin əhəmiyyətini diqqətə çatdırıb. "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün sosial müdafiə sahəsində AİB-in dəstəyinin gücləndirilməsi" layihəsi üzrə aparılmış işlərin müsbət nəticələrindən bəhs olunub.

Təşkilatın 2025-2029-cu illər üçün Ölkə Tərəfdaşlıq Strategiyasının əməkdaşlığın genişləndirilməsində xüsusi önəm kəsb etdiyi vurğulanıb. Nümayəndə heyətinə son illər ölkəmizdə həyata keçirilən sosial islahatların nailiyyətləri, aktiv məşğulluq proqramları, əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin bacarıqlarının artırılması istiqamətində görülən işlər barədə məlumat verilib.

Lea Qutierrez ötən dövrdə əldə olunmuş uğurlu əməkdaşlıq təcrübəsinin məmnunluq doğurduğunu və yeni layihələr çərçivəsində birgə fəaliyyətin uğurla davam edəcəyinə əminliyini bildirib.

Görüşdə əmək sahəsi ilə bağlı yeni regional texniki yardım layihəsi çərçivəsində görüləcək işlər, əmək və sosial müdafiə sahələrində gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

## Energetika Nazirliyində BP-nin regional prezidenti ilə görüş olub




**Energetika naziri Pərviz Şahbazovla BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofoli arasında görüş keçirilib.**

Görüşdə BP şirkəti ilə strateji tərəfdaşlıq çərçivəsində neft-qaz və bərpaolunan enerji sahələrində həyata keçirilən layihələrin icra vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Bu kontekstdə "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağında hasilatın sabit saxlanılması, yeni texnologiyaların tətbiqi və əməliyyat səmərəliliyinin artırılması istiqamətində görülən işlər nəzərdən keçirilib.

Eyni zamanda "Şahdəniz" yatağında aparılan fəaliyyətlər, "Şahdəniz Kompressiya" layihəsinin inkişafı və AÇG-dən sərbəst təbii qazın işlənməsi layihəsi çərçivəsində ilk qazın əldə olunması ilə bağlı yeniliklər diqqətə çatdırılıb. "Şəfəq-Asiman", "Qarabağ" və "Babək" yataqlarının işlənməsi ilə bağlı məsələlər də müzakirə edilərək perspektiv imkanlar dəyərləndirilib. Qeyd olunub ki, bu layihələr ölkənin qaz ixrac potensialının artırılmasına mühüm töhfə verəcək.

Görüşdə həmçinin neft-qaz platformalarının və "Səngəçal" terminalının elektrikləşdirilməsi, eləcə də "Şəfəq" Günəş Elektrik Stansiyasının 2027-ci ildə istismara verilməsi istiqamətində görülən işlər nəzərdən keçirilib.

Söhbət zamanı enerji bazarlarında mövcud vəziyyət fonunda enerji təhlükəsizliyinin prioritetliyi, enerji mənbələrinin, marşrutlarının və təchizatın şaxələndirilməsinin əhəmiyyəti vurğulanıb. Bərpaolunan enerji sahəsində sürətli inkişafla yanaşı, karbohidrogenlərin hələ də qlobal enerji istehlakında əsas paya malik olduğu və gələcəkdə də mühüm rol oynamaqda davam edəcəyi bildirilib. Azərbaycanın neft, qaz, elektrik enerjisi və bərpaolunan enerji sahələrində diversifikasiya siyasətini ardıcıl şəkildə davam etdirdiyi qeyd olunub.

Görüşdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, regional enerji təhlükəsizliyinin gücləndirilməsi və Azərbaycanın beynəlxalq enerji mərkəzi kimi rolunun daha da möhkəmləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsinin vacibliyi ifadə olunub.

## Xarici dövlət borcu ÜDM-in 6,3 faizini təşkil edib

**Beynəlxalq maliyyə-bank qurumları və digər kredit təşkilatları ilə imzalanmış müqavilələr əsasında istifadə olunmuş kreditlər və həyata keçirilmiş əsas borc ödənişləri nəzərə alınmaqla 2026-cı il 1 yanvar tarixinə xarici dövlət borcu 4 milyard 813,5 milyon dollar (8 milyard 183 milyon manat) ekvivalentində olub və ya ÜDM-in 6,3 faizini təşkil edib.**

AZƏRTAC Maliyyə Nazirliyinin 2027-2030-cu illər üzrə ortamüddətli büdcə çərçivəsinə istinadla xəbər verir ki, xarici dövlət borcu 2025-ci ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 316,2 milyon dollar və ya 6,2 faiz, ÜDM-ə nisbəti isə 0,6 faiz bəndi azalıb. Belə ki, imzalanmış kredit sazişləri çərçivəsində 2025-ci il ərzində istifadə olunan vəsait müqabilində xarici dövlət borcu üzrə vaxtı çatmış 472,8 milyon dollar məbləğində əsas borc ödənişləri həyata keçirilib.

2026-cı ilin 1 yanvar tarixinə xarici dövlət borcunun valyuta tərkibi aşağıdakı kimi olub: XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) - 3,2 faiz, valyutalar üzrə isə dollar- 85,7 faiz, avro - 6,4 faiz, yapon yeni - 3,1 faiz, digər valyutalar - 1,6 faiz.

Qeyd olunan tarixə dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici borc məbləğinin 49,5 faizini, sabit dərəcə ilə olanlar isə 50,5 faizini təşkil edib. Xarici dövlət borcunun 58,2 faizi 5 ilə qədər olan müddətdə, 36,1 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 5,7 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

## İlk rübdə 11,5 min şəxsə əlillik təyin olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin I rübü ərzində 11,5 min şəxsə əlillik təyin edilib. Onlardan 5,3 min şəxsə ilkin, 6,2 min şəxsə isə təkrar əlillik təyinatı aparılıb.**

Əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir.

Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir.

## Qeyri-neft sektoru üzrə ixracda aqrar və aqrar-sənaye məhsullarının çəkisi yüksəkdir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı il üçün mart sayını təqdim edib. İcmala əsasən, cari ilin yanvar-fevral aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,7 faiz artaraq 580,7 milyon dollar təşkil edib.**



Bu ilin yanvar-fevral aylarında yeyinti məhsulları üzrə ixrac 30,5 faiz artaraq 200,6 milyon dollara bərabər olub. İxrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,3, pambıq iplik - 2,6, bitki və heyvan mənşəli piylər və yağlar - 2,1 dəfə, alüminium və ondan hazırlanan məmulatlar - 37,4, pambıq lifi - 33,3, meyvə-tərəvəz - 32,7, spirtli və spirtsiz içkilər - 10,9, çay 5,1 faiz artıb. Həmin dövrdə aqrar məhsullar üzrə ixracın dəyəri 34,6 faiz artaraq 160,9 milyon, aqrar-sənaye məhsulları üzrə isə 22 faiz artaraq 52,5 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının ixracının birgə dəyəri 31,2 faiz artaraq 213,4 milyon dollar təşkil edib. İki ay ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid məhsulların siyahısında qızıl birinci, meşə fındığı ikinci, mis filizləri isə üçüncü olub.

Bu dövr Rusiya Federasiyasına 149,1 milyon, Türkiyəyə 83,4 milyon, Gürcüstana 77,2 milyon, İsveçrəyə 67,7 milyon, Ukraynaya 29 milyon dollar dəyərində qeyri-neft məhsulları satılıb.

Yanvar-fevral ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "AGRARCO" MMC, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "PRİME LM", "P-AQRO", "KHAN-EL", "MORS TRADİNG" və "STP ALÜMİNİUM" MMC-lər təşkil olunublar. Dövlətə məxsus şirkətlərin siyahısına isə "SOCAR POLYMER", "AzerGold" QSC, "AZƏRALÜMİNİUM" MMC, ARDNŞ-nin "Marketinq Və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi " MMC, ARDNŞ-nin Qaz İxrac İdarəsi, "Socar Cape" MMC, "Sənayecihaz" EİM, "İstisu" Mineral Su Zavodu" MMC, "Qaradağ Şüşə Zavodu" ASC başçılıq ediblər.

Hesabat dövründə həmçinin Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən 32 ölkəyə 3 milyon dollar dəyərində telekommunikasiya xidməti ixrac olunub.

Bu da "Azərkosmos"un xidmət ixracından əldə etdiyi ümumi gəlirlərinin 65 faizini təşkil edib. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 710,4 min dollarla Birləşmiş Krallıq, 545,4 min dollarla Lüksemburq, 374,4 min dollarla İsveç, 162 min dollarla Türkiyə, 152,5 min dollarla Pakistan qərarlaşıb.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## Ümumi kredit portfelinin 82 faizi uzunmüddətli kreditlərin payına düşüb

**Mərkəzi Bankın təqdim etdiyi məlumata görə, 2026-cı il mart ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,8 faiz artaraq, milli valyuta ekvivalentində 32 milyard 2,5 milyon manat təşkil edib.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, ümumi kredit portfelinin 26 milyard 230,3 milyon manatı və ya 82 faizi uzunmüddətli kreditlərin payına düşüb. Kreditlərin 94,1 faizi banklar, 5,9 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 17,1 faiz artaraq 562 milyon manat olub və ümumi kredit portfelinin 1,8 faizini təşkil edib.






# Gənclik






Uğura imza atanlar

## Ot kökü üstə bitər

### Azərbaycanın perspektivli gənc hüquqşünası 30-cu illərdə repressiya qurbanı olmuş məşhur nəslin nümayəndəsidir

**Müasir Azərbaycan gəncləri arasında tanınan Vüqar Qədimov 2017-ci ildə Bakı Dövlət Universitetinin "Gənc İstedadlar" liseyini bitirib. Daha sonra BDU-nun Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə bakalavr, 2026-cı ildə isə həmin fakültənin Cinayət hüququ və kriminologiya, cəza-icra hüququ ixtisaslaşması üzrə doktorantura pillələrini bitirib.**



Vüqar Qədimov məzun olaraq Respublika Vəkillər Kollegiyasının Rəyasət Heyətində dörd il vəkil köməkçisi işləyib. Daha sonra vəkil seçilib.

Deyirlər ki, elm insan həyatını dəyişdirən ən mühüm amillərdən biri, bəlkə də birincisidir. Bəşəriyyətin ən böyük zəfəri də elmdir. Dahi Nəsirəddin Tusiyə görə, alimdə bir neçə xüsusiyyətin olması vacibdir. Bunların sırasında zəka, zehin aydınlığı, dərk sürəti, ağıl gözəlliyi və hafizənin əhəmiyyəti mühüm rol oynayır. Ona görə də sevib-seçdiyi peşəyə böyük maraq göstərən gənc hüquqşünas bilgilərini hüquq elminin zənginləşdirilməsində sınamaq üçün iki il öncə Azərbaycanda hüquq üzrə ilk qadın elmlər doktoru, professor Şəhla xanım Səmədovanın rəhbərliyi altında "Hərəkətsizlik cinayət-hüquqi kateqoriya kimi" mövzusunda dissertasiya yazmağa qərar vermişdir. O, gənc araşdırmaçı kimi tədqiqata cəlb olunan mövzu ilə əlaqədar Azərbaycanda və bir neçə xarici ölkədə müxtəlif beynəlxalq elmi seminarlarda və konfranslarda iştirak və çıxış etmişdir. Gənc hüquqşünasın 6-sı xaricdə olmaqla 14 elmi əsəri nəşr edilmişdir. Elmi tədqiqatlarında qanunçuluğun təkmilləşdirilməsi istiqamətlərində diqqətdən yayınan boşluqları aradan qaldırmaq üçün təkliflər işləyib hazırlamışdır, hazırda mövzu ilə əlaqədar monoqrafiya üzərində işləyir.

Ötən ilin avqustunda Niderland Krallığının Leyden Universiteti tərəfindən təşkil olunan elmi proqramlarda yüksəksəviyyəli iştirakına görə sertifikatlara layiq görülmüş gənc hüquqşünasın cari ilin fevralında BDU-nun Hüquq fakültəsinin professor-müəllim heyətinin iştirakı ilə təşkil etdiyi elmi seminarda "Təcavüz siyasətinə görə məsuliyyət: yeni tendensiyalar" mövzusunda etdiyi elmi məruzə dinləyicilər tərəfindən maraqla qarşılanmışdır. Vüqar Qədimov həmçinin cari ilin yanvarında peşəkar hüquqi ingilis dilini bilmə səviyyəsini müəyyən edən TOLES imtahanında 100-dən 92 bal toplayaraq yüksək bilgi nümayiş etdirmişdir.

Gənc hüquqşünas ötən il iyun ayının əvvəllərində Niderland Krallığının Haaqa Beynəlxalq Cinayət Məhkəməsi Vəkillər Kollegiyasına (BCMVK) yeganə azərbaycanlı kimi dəvətli üzvlüyə qəbul edilmişdir. Bundan üç ay sonra bilik və bacarığı nəzərə alınmaqla BCMVK-nın Hüquqi Dəstək Heyəti Komitəsinin üzvü seçilmiş, həmin ilin dekabrında isə Vəsait Komitəsinin üzvü təyin edilmişdir. Vüqar Qədimov burada Azərbaycan Respublikasının Cinayət Məcəlləsində Beynəlxalq Cinayətlərə görə məsuliyyət məsələsinin Roma nizamnaməsinə uyğunluğu barədə geniş məlumat vermiş, ekosid cinayətinin ölkəmizdə kriminallaşdırıldığını və bunun Beynəlxalq Cinayət Məhkəməsinə üzv dövlətlər üçün müsbət nümunə ola biləcəyini vurğulamışdır. Bu zaman gənc hüquqşünas-tədqiqatçının Beynəlxalq Cinayət Məhkəməsinin prezidenti, hakim xanım Tomoko Akane ilə görüşü diqqətdən kənarda qalmamışdır.

Gənc hüquqşünas-tədqiqatçı BDU-da və Milli Aviasiya Akademiyasının Hüquq fakültəsində pedaqoji fəaliyyətlə də məşğul olur. O, milli dövlətçiliyimizə dəstək olmaq üçün Azərbaycanın hüquqi və iqtisadi hərbi qüdrətini, habelə ekoloji və bioloji təhlükəsizliyini qorumaq və daha da möhkəmləndirmək istiqamətində tələbə-gəncləri bilgiləndirməklə onlara hüquq elminin incəliklərini yüksək səviyyədə öyrədir. Elmi-pedaqoji qüvvəsini səfərbər etməklə gələcəyin hüquqşünası olacaq tələbələrinin hüquq elminin və qanunlarının icrası zamanı vəzifələrinin öhdəsindən layiqincə gələ bilmələrinə çalışır.

"Ot kökü üstə bitər" deyiblər. Vüqar Qədimov ötən əsrin 30-cu illərində Şəmkirdə repressiya qurbanı olmuş məşhur Bədirbəylilər nəslindən olan Xəlil ağa Bədirbəylinin nəticəsidir. Amma sovetlər dönəmində nəsillərinin soyadı məcburən dəyişdirilib. 26 il əvvəl adi bir ailədə dünyaya göz açan Vüqarın atası Anar kişi orta təhsillidir, pensiya yaşındadır, anası Leyla xanım tibb bacısı işləyir, kiçik qardaşı İlqar isə hərbi xidmətdən bu günlərdə qayıdıb. Amma əsil-nəsil sözünü deyib. Gənc hüquqşünas-pedaqoqun elmi araşdırmaları və uğurları ailə üzvlərini, onu yaxından tanıyanları, xüsusən də ona dərs deyən professor və müəllimləri, tələbə yoldaşları və həmkarlarını çox qürurlandırır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Gələcəyə dəstək

## Milli-mənəvi dəyərlərə bağlılıq nümunəsi

**Azərbaycanın gənclik siyasəti dövlətin gələcəyə hesablanmış strateji baxışının əsas sütunlarından biridir. Ölkəmizdə gənclərin hərtərəfli inkişafı, onların bilik və bacarıqlarının üzə çıxarılması, istedadlarının reallaşdırılması üçün hərtərəfli imkanlar yaradılıb. Bu gün təhsil, elm, mədəniyyət və dövlət idarəçiliyi sahələrində həyata keçirilən məqsədyönlü proqramlar gənclərin cəmiyyətin həyatında fəal iştirakını təmin edir, onları yeni ideyalarla çıxış etməyə, təşəbbüskar olmağa ruhlandırır.**



Nigar Abdullayeva 1991-ci ildə Bakıda doğulub O, hələ məktəb illərindən seçilən, biliyə və özünüinkişafa xüsusi maraq göstərən gənclərdəndir. Xətai rayonunun 257 saylı orta məktəbini



əla qiymətlərlə bitirən Nigar gələcək uğurlarının möhkəm təməlini məhz həmin dövrdə qoyub.

Nigar müxtəlif sahələr üzrə biliklərini zənginləşdirməyə həvəsli olub. İnformasiya texnologiyaları sahəsində aldığı biliklər, Bakı Biznes Kooperasiya Kollecində Bələdiyyə təsərrüfatının təşkili ixtisası üzrə qazandığı peşə hazırlığı, sonra Azərbaycan Dövlət İqtisad Universitetində Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə ali təhsil alması onun idarəçilik və təşkilatçılıq bacarıqlarını formalaşdırıb. Tələbəlik illərində elmi fəaliyyətə xüsusi maraq göstərməsi, elmi işlər üzrə komissiyaya rəhbərlik etməsi və gənclərə elmi məqalələrin yazılması ilə bağlı təlimlər keçməsi onun artıq bu sahədə mütəxəssis kimi formalaşmasını sübut edir.

Bu gün Nigar Abdullayeva AMEA Folklor İnstitutunda mütəxəssis kimi fəaliyyət göstərməklə yanaşı, Gənc Alim və Mütəxəssislər Şurasının üzvü, elektron elmi xidmətlər üzrə məsul şəxs və Vikipediya üzrə rəhbər kimi də mühüm vəzifələri icra edir. Gənc mütəxəssisin fəaliyyəti yalnız bir sahə ilə məhdudlaşmır, eyni zamanda elmi, ictimai müstəvidə fəallığı ilə seçilir. Yeni Azərbaycan Partiyasının üzvü kimi ictimai-siyasi proseslərdə yaxından iştirak edən Nigar xanım Yasamal rayonu üzrə ərazi partiya təşkilatında sədr müavinidir.

Gənc alimin elmi yaradıcılıq istiqamətində fəaliyyəti də diqqətəlayiqdir. 45-dən çox elmi, 100-dən artıq publisistik məqalənin müəllifi olan Nigar Abdullayeva yerli və beynəlxalq konfranslarda fəal iştirak edir. Onun Qarabağın mədəni-tarixi abidələri ilə bağlı araşdırmaları Türkiyə və İtaliyada nəşr olunub. Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun "Qrant" müsabiqəsində qalib olması isə onun elmi potensialının yüksək qiymətləndirilməsinin təsdiqidir. "Ədəbiyyatşünaslıq, ədəbi tənqid" və "Rəylər, müsahibələr" 10 cildlik nəşrlərin tərtibində iştirakı isə onun ədəbiyyatşünaslıq və elmi redaktə sahəsində də peşəkarlığını göstərir.

Nigar Abdullayevanın şəxsiyyətini səciyyələndirən əsas cəhətlərdən biri onun milli-mənəvi dəyərlərə bağlılığıdır. Özünün də dediyi kimi, hələ kiçik yaşlarından ədəbiyyata, folklorumuza, xalqımızın söz xəzinəsinə dərin maraq göstərib. Onun üçün bir bayatı, bir folklor nümunəsi, sadəcə, mətn deyil, xalqın keçmişinə açılan qapıdır. Bu yanaşma onun elmi fəaliyyətində də öz əksini tapır və milli irsin qorunması istiqamətində gördüyü işlərə xüsusi ruh verir.

Nigar xanım müasir Azərbaycan gəncinin vətənpərvərlik mövqeyini də öz fəaliyyəti ilə təsdiq edir. O, 44 günlük Vətən müharibəsi dövründə informasiya cəbhəsində bir əsgər kimi dövlətin həyata keçirdiyi mühüm ictimai-siyasi proseslərdə yaxından iştirak etmişdir.

Bu gün N.Abdullayeva təkcə qazandığı uğurlarla kifayətlənməyən, böyük hədəflərlə gələcəyə baxan gənc tədqiqatçıdır. O, hazırda dövlətimizin başçısının xarici səfərlərinin sistemləşdirilməsi üzərində çalışır. Bununla Nigar xanım həmin səfərləri elmi şəkildə təqdim etmək istəyir.

N.Abdullayevanın həyat yolu sübut edir ki, müasir Azərbaycan gəncliyi yalnız bilik və bacarığı ilə deyil, həm də milli kimliyə bağlılığı, vətəndaş məsuliyyəti və dövlətçilik mövqeyi ilə seçilir. Onun timsalında biz bu günün savadlı, vətənpərvər və təşəbbüskar Azərbaycan gəncini görürük. Belə gənclər uğurlarımızın əsas təminatçısı kimi ölkəmizin inkişafında sözlərini deməyə qadir olduqlarını sübut edirlər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Sənət dünyası

## "Uğurlarıma görə müəllimlərimə minnətdaram"

**Daim inkişafda olan cəmiyyətimizin elə bir sahəsi yoxdur ki, gənclərimiz fəallıqları və bacarıqları ilə uğur qazanmasınlar, ölkəmizin inkişafına öz töhfələrini verməsinlər. Belə bacarıqlı, fəal gənclərimizdən biri də Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun Teatr, kino və televiziya şöbəsinin böyük elmi işçisi Əlləz Əhmədovdur.**

O, 1989-cu ildə İsmayıllıda dünyaya göz açıb. Sonra ailəsi Bakıya köçüb. Yaşı çatanda Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayev adına 202 nömrəli orta məktəbə yollanıb. Yazmağı, oxumağı öyrənib, kitablarla dost olub. Davranışı, nizam-intizamı, hazırcavablığı, bacarığı ilə müəllimlərinin rəğbətini qazanıb. Məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edib.

2007-ci ildə orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılıb. Əyninə hərbi forma geyindiyi və təlim-məşqlərdə iştirak etdiyi ilk günlərdən silahların və hərbi texnikanın sirlərinə dərindən yiyələnib. Xidmətini başa vurandan sonra - 2009-cu ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Aktyor sənəti fakültəsinə qəbul olunub, 2013-cü ildə oranı bitirib. Aktyorluq sənətinin sirlərinə dərindən yiyələnmək üçün 2014-2016-cı illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatr sənəti fakültəsinin magistratura pilləsində oxuyub. Buranı fərqlənmə diplomu ilə bitirən Əlləz Əhmədovun həyatında 2011-2021-ci illər mühüm mərhələ olub. O, həmin illər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında ştatdankənar aktyor kimi işləyib, böyük təcrübə qazanıb. Teatrın repertuarında olan "Xanuma" (A.Saqareli), "Yaşlı xanımın gəlişi" (F.Dürrenmatt), "Kuraj və uşaqları" (B.Brext), "Anamın kitabı" (C.Məmmədquluzadə), "Şah Qacar" (Ə.Əmirli), "Biri var idi, biri yox..." (Nağıl tamaşa), "Nağıllar aləmində" (Nağıl tamaşa), "Almaz" (C.Cabbarlı), "Çipollino" (C.Rodari), "Gəl, baharım, gəl, yazım" (X.Həsənova), "Yaşar" (C.Cabbarlı) və başqa tamaşalarda müxtəlif rollar oynayıb. O, yalnız teatr tamaşalarında deyil, seriallarda da müxtəlif obrazları canlandırıb. "Xəzər" televiziyasında yayımlanan "Bir ailəm var", "İmtahan", "Ata ocağı" və başqa teleseriallara çəkilib. Bundan başqa, Azərbaycan Dövlət Televiziyasında çəkilən "İş № 715", "Məhşər" və başqa sənədli filmlərdə rol alıb. Harada, hansı tamaşada olursa-olsun, Əlləz Əhmədov ona tapşırılan rolun öhdəsindən bacarıqla gəlib.

Daim öz üzərində çalışan Əlləz Əhmədov 2015-ci ilin aprelindən AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Teatr, kino və televiziya şöbəsində böyük laborant vəzifəsində işləməyə başlayıb. Onun üçün illər bir-birindən uğurlu gəlib, tale üzünə gülüb. 2017-ci ildən bu elm və təhsil ocağında kiçik elmi işçi, 2020-ci ildən elmi işçi vəzifələrində çalışıb. İndi isə böyük elmi işçidir.

Daim öyrənməyə və təcrübəsini artırmağa can atan Əlləz Əhmədov bacarığını müxtəlif müsabiqələrdə də sınaqdan keçirib və bir-birindən ürəkaçan uğurlar qazanıb. 2017-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunda keçirilmiş "Ana dilimiz - milli varlığımızdır" yarış-müsabiqəsində 3-cü yerə layiq görülüb.

Söhbət zamanı gənc alim dedi ki, ata-anası əslən Qərbi Azərbaycandandır: "Ermənilər 1988-ci ildə valideynlərimi doğma



ocaqlarından didərgin salıblar. İki il İsmayıllıda yaşadıqdan sonra Bakıya köçmüşük. Kiçik yaşlarımdan musiqiyə həvəsim var idi. Dinləyənlərin səsimdən xoşları gəlirdi. Bir gün məni musiqi məktəbinə aparıb səsimi yoxladılar. Səsim yaxşı olsa da, çox qəribəydi ki, mən musiqiçi yox, idman şərhçisi olmaq istəyirdim. Orta təhsilimi başa vurandan sonra arzumu reallaşdırmaq istədim, təəssüf ki, cəhdim baş tutmadı. Amma həvəsdən düşmədim, hərbi xidmətimi başa vurduqdan sonra aktyor olmaq arzusu ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul oldum. Vətən həsrətinə dözə bilməyən valideynlərim dünyalarını tez dəyişdiklərinə görə böyük qardaşım Ağasif bizə atalıq edir, yol göstərirdi. Məni oxumağa da o həvəsləndirirdi. Təhsil aldıqca aktyorluğa, ümumiyyətlə, sənətə marağım daha da artırdı. Müxtəlif teatrların səhnəsində müxtəlif tamaşalarda bir-birinə bənzəməyən rollar oynadım. Elə ilk anlarından səhnə məni öz cazibəsinə saldı. Hiss etdim ki, səhnənin cazibəsindən çıxmaq



mümkün deyil. Bir müddətdən sonra isə elmi araşdırmalar məni özünə cəlb etdi. Beləcə, səhnədən elmə gəldim. Gərgin araşdırmalardan sonra elmi iş yazıb müdafiə etdim. Qazandığım uğurlara görə öz çalışqanlığıma və müəllimlərim Ötkəm İsgəndərov, Zemfira Nərimanova, Laləzar Mustafayeva, Gülşad Baxşıyeva, Məmmədsəfa Qasımov, İlham Rəhimli və Vidadi Qafarova minnətdaram. Elmi araşdırmalarımı bu gün də uğurla davam etdirirəm".

Bacarığı ilə bir-birindən dəyərli uğurlar qazanan Əlləz Əhmədov 2022-ci ilin dekabr ayından Memarlıq və İncəsənət İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri kimi fəaliyyət göstərir. 2024-cü ildə AMEA Rəyasət Heyətinin qərarı ilə gənc alimlər arasında elmi fəaliyyət sahəsində fərqləndiyinə görə "İlin gənc alimi" diplomuna, 2025-ci ildə isə "Elmin populyarlaşdırılması sahəsində səmərəli fəaliyyətinə görə" təşəkkürnamə ilə təltif edilib.

Seriallara, sənədli filmlərə çəkilməklə yanaşı, Əlləz Əhmədov elmi işlə də ciddi məşğul olub. "Müstəqillik dövrü Azərbaycan teatrında repertuar problemi (1991-2015-ci illər)" mövzusunda dissertasiya işi yazıb. 2024-cü ildə elmi işini uğurla müdafiə edərək sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

İşləri nə qədər çox olsa da, Əlləz Əhmədov bir çox respublika və beynəlxalq elmi konfransa da qatılır. Onun konfranslarda etdiyi çıxışlar iştirakçılar tərəfindən maraqla qarşılanır. Gənc alimin teatrımızın tarixinə həsr etdiyi elmi məqalələri də oxucularda böyük maraq doğurur. 16-dan çox elmi məqaləsi olan Əlləz Əhmədov qazandığı uğurları ilə yaxınlarını, doğmalarını sevindirir. Amma o cavandır. İnanırıq ki, Əlləz gələcəkdə də elmi uğurları, dəyərli məqalələri ilə teatr sənətinin inkişafına böyük töhfələr verəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "WUF13 Gənclik simulyasiyası"

**Bakı Dövlət Universitetinin (BDU) Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) və "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş "WUF13 Gənclik simulyasiyası" adlı tədbir keçirilib.**



Tədbirin əsas məqsədi gənclərin şəhərsalma və ekoloji problemlərin həlli istiqamətində yanaşmalarını nümayiş etdirmək olub.

Simulyasiyada dünyanın müxtəlif ölkələrini (Azərbaycan, ABŞ, Türkiyə, Danimarka, Fransa, Norveç, İtaliya, Almaniya, Çin, Portuqaliya, Birləşmiş Krallıq, Braziliya, Birləşmiş Ərəb Əmirlikləri, Yaponiya, Niderland, Hindistan, Kanada, İsveçrə və İndoneziya) təmsil edən tələbələr iştirak ediblər. Hər bir iştirakçı təmsil etdiyi ölkənin ekoloji problemlərini təhlil edərək, bu problemlərin həlli üçün hazırladığı şəhərsalma modellərini və layihələri təqdim edib.

Simulyasiya zamanı iştirakçılar qlobal ətraf mühit və şəhərsalma problemləri ətrafında geniş fikir mübadiləsi aparıblar. Davamlı şəhər inkişafı, təbii resursların qorunması, təmiz enerji istifadəsi və ekoloji cəhətdən dayanıqlı şəhər infrastrukturlarının qurulması kimi mövzularda müxtəlif yanaşmalar səsləndirilib.

## Tələbələr Əfşarlar və Qacarlar dövrünün ictimai-siyasi xadimləri barədə məlumatlandırılıb

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmin populyarlaşdırılması və təhsilə inteqrasiyası istiqamətində növbəti seminar keçirilib.**

İnstitutdan bildirilib ki, Bakı Dövlət Universiteti və Bakı Slavyan Universiteti tələbələrinin, o cümlədən "Könüllülük" layihəsi iştirakçılarının qatıldığı seminarda Çap kitablarının tədqiqi şöbəsinin müdiri professor Tahirə Həsənzadənin "Əfşarlar və Qacarlar dövrünün azərbaycanlı ictimai və siyasi xadimləri" mövzusunda mühazirəsi dinlənilib. Alim çıxışında Əfşarlar imperiyasının və Qacarlar dövlətinin siyasi tarixi, bu dövlətlərin hökmdarları, onların hakimiyyət dövrləri, eləcə də həmin mərhələlərdə fəaliyyət göstərmiş azərbaycanlı sərkərdələr, hərbçilər və dövlət xadimləri haqqında ətraflı məlumat verib. Həmçinin Mirzə Rza xan Qəzvini, Hüseyn xan Müqəddəm Marağayi, Mirzə Yusif Təbrizi, Mirzə Rza xan Daneş, Mirzə Əsədulla xan və Mahmud xan kimi diplomatların fəaliyyətini ayrıca nəzərdən keçirərək onların regionun ictimai-siyasi həyatında rolunu təhlil edib.

Seminar çərçivəsində adıçəkilən tarixi şəxsiyyətlərin fotolarından ibarət videoslayd nümayiş olunub.



# "Azərenerji" və Dünya Bankı nümayəndə heyətlərinin görüşü olub

**"Azərenerji" ASC-nin sədri Baba Rzayevlə Dünya Bankının enerji üzrə baş mütəxəssisləri, hazırkı tapşırıq qrupunun rəhbəri Rocer Koma Kunilin və yeni tapşırıq qrupunun rəhbəri Sameh Mobarekin təmsil olunduğu Enerji sektoru üzrə missiya heyəti arasında görüş olub.**



Görüşdə AZURE layihəsinin icra statusu və iş prosesinin planlanması barədə müzakirələr aparılıb.

Azərbaycanda həyata keçirilən irihəcmli bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası və əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi edilib.

# Bu ilin yanvar-mart aylarında narkotik vasitələrlə bağlı 2443 cinayət faktı aşkarlanıb

**Cari ilin yanvar-mart ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.**

Bu barədə AZƏRTAC-a İşçi qrupundan məlumat verilib.

Bildirilib ki, qeyd olunan müddətdə hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 2443 cinayət faktı aşkarlanıb. Onlardan 549-u narkotik vasitələrin qanunsuz satışı, 1889-u narkotik vasitələrin qanunsuz əldə edilib-saxlanılması, 4-ü narkotik tərkibli bitkilərin qanunsuz əkilib-becərilməsi, 1-i bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 2 ton 896 kiloqram 808,712 qram və 17 ədəd həb narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 477 kiloqram 653,24 qramını marixuana, 171 kiloqram 664,846 qramını heroin, 57 kiloqram 520,39 qramını tiryək, 160 kiloqram 241,04 qramını həşiş, 6 kiloqram 536,7 qramını digər narkotik vasitələr və 23 kiloqram 192,496 qramını psixotrop maddələr təşkil edib. Bunlarla yanaşı, 15 ədəd çətənə bitkisi və 17 həb psixotrop maddə aşkar edilərək götürülüb.

Qanunsuz dövriyyədən çıxarılmış 2 ton 896 kiloqram 808,712 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 75 milyon 978 min manat kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 1044 nəfər cəlb edilib, onlardan 13-ü xarici ölkə vətəndaşıdır.

Məsuliyyətə cəlb edilmiş 13 xarici ölkə vətəndaşından ümumilikdə 112 kiloqram 789,853 qram və 17 ədəd müxtəlif növ narkotik vasitələr götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 44 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 759 kiloqram 474,815 qram narkotik vasitə çıxarılıb.

Ümumilikdə aşkarlanmış cinayətlərin 54-ü qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 625 kiloqram 285,9 qram narkotik vasitə və psixotrop maddə və 1,2 qram güclü təsir edən maddə müsadirə edilib. 500 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 454 kiloqram 500,9 qram müxtəlif növ narkotik vasitə müsadirə edilib.

Təhlil göstərir ki, 2025-ci ilin yanvar-mart ayı ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkarlanan faktların ümumi sayı 118, satış məqsədi olmadan qanunsuz əldə edilib-saxlanılması ilə əlaqədar faktların sayı 251 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 691 kiloqram 798,93 qram artıb, narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 14 fakt, qrup halında olan cinayətlərin sayı 2 fakt, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 2, digər cinayətlərlə əlaqədar faktların sayı 1 fakt, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 24, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı isə 15 nəfər azalıb.

Ötən ilin yanvar-mart ayı ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılmış digər narkotik vasitələrin çəkisi 14 kiloqram 565,067 qram (69 faiz), psixotrop maddələrin çəkisi 32 kiloqram 894,117 qram (58,7 faiz) azalıb.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 2 ton 477 kiloqram 653,24 qramını (85,5 faiz) marixuana təşkil edib. Onun da 1 ton 949 kiloqram 312,6 qramı (78,6 faizi) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olub, 528 kiloqram 340,64 qramı (21,3 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmiş narkotik vasitələrdir.

Dövlət Komissiyasının İşçi qrupunun təşkilatçılığı ilə 2026-cı il yanvarın 30-da qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiya tərəfindən 25 məhkəmə və istintaq qərarları əsasında barəsində məhvetmə qərarı qəbul edilmiş 858 kiloqram 620,899 qram, 22139 ədəd həb, 1056 ampul narkotik vasitə, psixotrop maddə və 4745 ədəd həb, 240 paket güclü təsir maddələr yandırma üsulu ilə məhv edilib.

Eyni zamanda hesabat dövründə qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə edilmiş az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaların birgə təşkilatçılığı ilə 8 rayon və şəhərdə 380 məhkəmə hökmü üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş ümumi çəkisi 6 kiloqram 574,623 qram müxtəlif narkotik vasitələrin, psixotrop maddələrin və 19 ədəd həb güclü təsir edən maddənin məhv olunması təmin edilib.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 21 min 944 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1527 nəfərdən 736-nın istifadəçi olması müəyyən edilib və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin olunub.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 276, QİÇS-lə Mübarizə Mərkəzində 297, Sumqayıt Narkoloji Mərkəzində 125 nəfər) 698 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2026-cı il mart ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 15 (4,2 faizi) nəfəri inyeksion narkotik istifadəçisi olub.

Cari ilin yanvar-mart ayları ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 183 vətəndaş müraciəti daxil olub ki, onların 16-sı narkotik vasitələrin qanunsuz dövriyyəsi, 16-sı narkotik asılılıqdan müalicə, 151-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd edilən müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 32 məktub ünvanlanıb.

"802" qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

Cari ilin yanvar-mart ayları ərzində Dövlət Komissiyasının İşçi qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 39 tədbir (24 maarifləndirici və təşkilati tədbir, 15 maarifləndirici sosial aksiya) təşkil olunub.

# ABŞ-də son 33 ildə İsrail və Livan arasında ilk birbaşa danışıqlar keçirilib

## "Hizbullah" məsələsində tərəflər eyni mövqedə olduqlarını bildiriblər

**İsrail və Livan arasında onilliklər ərzində ilk dəfə keçirilmiş birbaşa danışıqlar başa çatıb. ABŞ-də baş tutmuş danışıqlarda iki ölkənin Vaşinqtondakı səfirləri və Amerikanın Dövlət katibi Marko Rubio iştirak ediblər. İsrailin ABŞ-dəki səfiri Yexiel Leyterin dediyinə görə, ikisaatlıq görüşün əsas nəticəsi tərəflər arasında Livanın "Hizbullah"dan azad edilməsinin vacibliyi barədə razılığa gəlmək olub.**



"Bu gün biz tənliyin eyni tərəfində olduğumuzu aşkar etdik və bu, əldə edə biləcəyimiz ən müsbət nəticədir. Livanı İranın nəzarətində olan "Hizbullah" adlı işğalçı qüvvədən azad etmək istəyimizdə birik", - bunu israilli səfir deyib. İsrailli diplomat Livan hökumətini "Hizbullah"ın danışıqlardan çıxmaq çağırışlarına məhəl qoymadığına görə tərifləyib. Halbuki bir gün əvvəl qruplaşma Livan hakimiyyətindən görüşün ləğvini tələb etmiş və onu mənasız adlandırmışdı. "Livan hökuməti artıq "Hizbullah"ın onu işğal etməsinə icazə verməyəcəyini açıq bildirib", - deyə Leyter əlavə edib.

Jurnalistlərin İsrailin Livanın atəşkəs çağırışlarına qulaq asıb-asmayacağı sualına Leyter cavab verərək İsrailin vətəndaşlarını qorumaq üçün lazım olan hər şeyi edəcəyini vurğulayıb. "İran zəifləyib, "Hizbullah" əhəmiyyətli dərəcədə zəifləyib və bu, münasibətlərin normallaşdırılması üçün fürsət yaradır. 30 ildən çox müddət ərzində ilk dəfə olaraq ölkələrimiz eyni masada oturur. Gəlin bu andan istifadə edək", - deyə o bildirib.

Bu, 1993-cü ildən bəri Livan və İsrail arasında ilk birbaşa yüksəksəviyyəli əlaqə idi. Ölkələr 1948-ci ildə İsrail dövlətinin qurulmasından bəri rəsmi olaraq müharibə vəziyyətindədirlər.

Dövlət katibi Marko Rubio ilə yanaşı, Amerika tərəfini ABŞ-nin Livandakı səfiri Mişel İssa, BMT-dəki xüsusi elçisi Mayk Valts və Dövlət Departamentinin müşaviri Maykl Nidhem təmsil edirdi.

Hələlik yeni görüş təyin olunmayıb, lakin danışıq iştirakçıları qeyd ediblər ki, tərəflər müzakirə olunmuş təklifləri öz paytaxtlarına çatdıracaqlar və dialoq yaxın həftələrdə Vaşinqtonda bərpa oluna bilər.

İsrail səfiri bildirib ki, hazırlanan razılaşma həm təhlükəsizlik, həm də mülki məsələləri əhatə edəcək ki, "sülh müqaviləsi bağlaya və İbrahim Sazişləri ölkələri ilə olan münasibətlərə bənzər ahəngdar münasibətlər qura bilək".

Danışıqlar başlamazdan əvvəl amerikalı vasitəçilər və İsrail ekspertləri insanları bu gün üçün gözləntilərini şişirtməməyə çağırıblar. Daha əvvəl ABŞ Dövlət katibi Marko Rubio danışıqlar başladıqdan sonra jurnalistlərə qısa açıqlamalarında görüşün məqsədinin İsrail və Livan arasında gələcək sülh müqaviləsi üçün çərçivəni müəyyən etmək olduğunu bildirib.

Ekspertlər qeyd edirlər ki, sözügedən görüş atəşkəsə nail olmaq üçün bu günə qədər Qüdslə ən yüksək səviyyədə qarşılıqlı əlaqə axtaran Beyrut üçün daha vacibdir. İsrail üçün bunun əsas şərti "Hizbullah"ın tam tərksilah edilməsidir, lakin İsrail Livan hökumətinin İsrail Müdafiə Qüvvələrinin hərbi müdaxiləsi olmadan bu məqsədə çatmaq qabiliyyətinə şübhə ilə yanaşır.

Beyrut dəfələrlə "Hizbullah"ın tərk-silah edilməsinə sadiq olduğunu açıq bildirib, çünki qruplaşma ölkəni İsrail ilə hərbi münaqişələrə daim cəlb edir. Lakin İsrail rəsmiləri qeyd edirlər ki, Livan hökuməti BMT Təhlükəsizlik Şurasının 2006-cı il tarixli qətnaməsinə baxmayaraq, qruplaşmanı cənub sərhədlərindən çəkilməyə məcbur edə bilməyib.

Danışıqlarda vasitəçilik edən Dövlət Departamenti İsrailin Livanla deyil, "Hizbullah"la mübarizə apardığını vurğulayıb və buna görə də Vaşinqtondakı görüşü qarşı tərəflərin deyil, ortaq bir problemin həllini tapmalı olan qonşuların görüşü adlandırıb. Marko Rubio bildirmişdir: "Bu, bir prosesdir, bir hadisə deyil. Bu, birgünlük məsələ deyil. Bu, vaxt aparacaq, amma biz inanırıq ki, bu səylər dəyərlidir və bu, gələcəyi qurmaq niyyətində olduğumuz tarixi bir görüşdür". O, jurnalistlərə demişdir ki, "söhbət dünyanın bu hissəsində 20-30 illik "Hizbullah" təsirinə son qoymaqdan gedir - təkcə İsrailə vurduğu ziyana deyil, həm də Livan xalqının özünə vurduğu ziyana görə".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


İCBARİ SIĞORTA BÜROSU
Compulsory Insurance Bureau

**Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə**

**ELAN**

Yaşıl Kart Sisteminə üzv ölkələrə səfər etmək istəyən vətəndaşların nəzərinə çatdırırıq ki, bu növ üzrə "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının (İSB) iştirakçısı olan sığorta şirkətləri bunlardır: "Atəşgah" Sığorta Şirkəti ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

Məlumat üçün bildiririk ki, İSB Yaşıl Kart Sistemi üzrə əlaqələndirici, ixtisaslaşmış təşkilat kimi fəaliyyət göstərməklə Beynəlxalq Yaşıl Kart Sistemində Azərbaycanı təmsil edir.

**Tel: +99412 525 97 07, E-mail: aaliyeva@isb.az Web: www.isb.az**
**Ünvan: Akademik Zahid Xəlilov küçəsi, 53/1, Bakı, AZ1141**

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**baş ofis və struktur idarələrində yanğına qarşı sistemlərə illik texniki xidmətlərin satın alınması məqsədilə**
**AÇIQ TENDER ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 29 aprel 2026-cı il saat 14:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**
**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**

***Tender komissiyası***

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**dənizdə və quruda yükqaldırıcı, xilasedici, qəza takelajlarının və yedəkləmə avadanlıqlarının yoxlanılması, təmiri, testi və sertifikatlaşması xidmətlərinin satın alınması məqsədilə**
**AÇIQ TENDER ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 aprel 2026-cı il saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***


**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 24.11.2017-ci il tarixdə "Neyron" Tibb Mərkəzinə verilmiş İN/L-(043)2017 qeydiyyat nömrəli Lisenziya itdiyi üçün etibarsız sayılır.**

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova və Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Azər Bayramova əzizləri

**VİDADİ BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3718
Sifariş 483

Qiyməti 60 qəpik